RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 67 (10087) 21 aprel 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Antalya forumu növbəti dəfə Azərbaycanın qlobal proseslərdəki rolunu və gücünü göstərdi



Azərbaycanın Antalya Diplomatiya Forumundakı iştirakının əsas strateji istiqamətlərindən biri Türkiyə ilə siyasi sinxronizasiyanın gücləndirilməsidir. Azərbaycan və Türkiyə strateji müttəfiqlik münasibətlərinə malik qardaş ölkələrdir. Forum bu əməkdaşlığı daha görünən edir və sistemli formaya salır. Burada formalaşan ortaq mesajlar regional məsələlərdə iki ölkənin vahid siyasi xətt kimi çıxış etməsinə şərait yaradır və bu, onların beynəlxalq təsir gücünü artırır.

Digər mühüm istiqamət postmünaqişə reallığının beynəlxalq ictimaiyyətə izah edilməsidir. Vətən müharibəsindəki qələbəmizlə regionda yaratdığımız yeni reallıqdan sonra Azərbaycanın əsas diplomatik vəzifələrindən biri yeni geosiyasi reallığı dünya ictimaiyyətinə qəbul etdirməkdir. Antalya Diplomatiya Forumu bu baxımdan effektiv platformadır, çünki burada həm Qərb, həm Şərq, həm də Cənub ölkələri eyni masada təmsil olunur. Bu isə Azərbaycanın mövqeyini daha geniş auditoriyaya çatdırmaq üçün əlverişli mühit yaradır.

Forum həmçinin qeyri-rəsmi diplomatiya və pərdəarxası əlaqələr üçün mühüm imkanlar təqdim edir. Müxtəlif ölkələrin yüksəksəviyyəli nümayəndələrinin eyni məkanda olması ikitərəfli və çoxtərəfli qeyri-formal görüşlərə imkan verir. Bu isə xüsusilə mürəkkəb regional məsələlərin müzakirəsində çevik diplomatik manevr imkanları yaradır. Azərbaycan bu platformadan istifadə edərək müxtəlif geosiyasi aktorlarla daha sıx əlaqələr qurmaq imkanı qazanır.

Enerji diplomatiyası baxımından da forumun xüsusi əhəmiyyəti vardır. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkələrdəndir. Bu platforma vasitəsilə enerji təchizatı, "yaşıl enerji" layihələri və investisiya əməkdaşlığı mövzuları daha geniş beynəlxalq auditoriyaya çıxarılır. Bu isə Azərbaycanın enerji siyasətinin qlobal səviyyədə legitimliyini, cəlbediciliyini artırır.

Eyni zamanda Antalya Diplomatiya Forumu Azərbaycanın "yumşaq güc" potensialının gücləndirilməsi baxımından vacibdir. Beynəlxalq çıxışlar, panel müzakirələri və media interaksiyaları vasitəsilə ölkəmizin imici daha da yüksəlir və regional sabitliyi təmin edən ölkə mövqeyi güclənir. Bu, uzunmüddətli perspektivdə Azərbaycan üçün çox mühümdür.

5

## Aleksandar Vuçiç İlham Əliyevə zəng edib



Aprelin 19-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri, dövlət başçılarının iştirakı ilə keçirilmiş Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası məmnunluqla xatırlanıb, səfər çərçivəsində imzalanmış sənədlərin əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycan və Serbiya prezidentləri ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi barədə fikir mübadiləsi aparıb, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, enerji, investisiyalar və hər iki dövlət üçün strateji əhəmiyyət kəsb edən yeni birgə layihələrin daha da inkişaf etdirilməsi ilə bağlı planları müzakirə ediblər.

Serbiyaya göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edən Aleksandar Vuçiç ölkəsinin Azərbaycanla münasibətləri səmimi dostluq, qarşılıqlı hörmət və iqtisadi tərəqqiyə ortaq maraq ruhunda gələcəkdə də inkişaf etdirmək əzmini bir daha vurğulayıb.

Aleksandar Vuçiç bütün bunları ölkələrimiz arasında güclü tərəfdaşlığın və qarşılıqlı etimadın təsdiqi kimi qiymətləndirib. Serbiya Prezidenti gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyasında iştirak edəcəyini də deyib.

Telefon danışığı zamanı Serbiyanın "Airserbia" şirkətinin mayın 3-nə planlaşdırılan Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşların həyata keçiriləcəyindən məmnunluq bildirilib, bunun xalqlarımızın yaxınlaşdırılması və iqtisadiyyatlarımızın, o cümlədən turizm potensialının möhkəmləndirilməsi istiqamətində mühüm addım olduğu vurğulanıb.

Dövlət başçıları Yaxın Şərqdəki mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıb, regionun təhlükəsizliyi və inkişafı üçün əsas şərtlərdən biri kimi sülhün və sabitliyin bərpasının vacibliyini bir daha qeyd ediblər.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

## Ana dilimiz milli varlığımızın aynasıdır

### Ümummilli Liderin təşəbbüsü ilə hələ sovet dövründə 1978-ci il aprelin 21-də Azərbaycan dili dövlət dili kimi konstitusiyada təsbit olunmuşdur




Fəaliyyəti boyu milli dəyərlərimizə himayədarlıq edən Ümummilli Liderimiz ana dilimizə xüsusi ehtiramla yanaşıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında "Azərbaycan dili Azərbaycan SSR-in dövlət dili kimi təsbit olunmuşdu. Bu, gələcəyə köklənən uzaqgörən siyasətin təzahürü idi. Bu amal uğrunda həmişə mübarizə aparan dahi lider ölkənin ziyalılarını, xalqı ana dilinin təbliğinə səsləyib, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ilə ana dilinin daha da inkişaf etdirilməsinə təkan verib. Müstəqillik illərində də Ulu Öndər Heydər Əliyevin qayğısı nəticəsində ana dilimizin hüquqları qorunub, cəmiyyətdəki mövqeləri möhkəmlənib. Bu gün dilimizin özünəməxsus kamil qrammatik quruluşu, zəngin fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksəksəviyyəli yazı normaları mövcuddur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" böyük öndər Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli fərmanında deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir".

4

## Zəfərimizin Qazax mərhələsi

### İki il əvvəl Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin qaytarılması barədə razılığın əldə edilməsi Azərbaycanın siyasi-diplomatik qələbəsi oldu



Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi uzaqgörən siyasət xalqımıza Şuşa zəfərini bəxş etdi. Azərbaycanın 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunu vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 26 avqust 2022-ci ildə Laçın şəhəri, Zabux və Sus kəndləri düşmən tərəfindən boşaldıldı. 2023-cü ildə cəmi 23 saata həyata keçirilən antiterror tədbirləri nəticəsində suverenliyimiz, dövlətimizin konstitusion əsasları da tam təmin edildi. İkiəsrlik erməni cəfəngiyyatına son qoyuldu, tarixi torpaqlarımıza göz dikərək milli nifrət zəminində xalqımıza qarşı qanlı əməllər törədən erməni faşistlərinə, onların xaricdəki havadarlarına unutmayacaqları dərs verildi.

Qarabağda separatizmin kökünün kəsilməsi ilə Rusiya sülhməramlılarının fəaliyyətinə də bölgədə ehtiyac qalmadı. Beləliklə, vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müəyyənləşdirdiyi növbəti əsas prioritet işğal altında qalan bütün torpaqlarımızın, o cümlədən Qazaxın qeyri-anklav kəndlərinin qeyd-şərtiz azad edilməsi idi.

6

## Prezidentin mesajları: *sülh, əməkdaşlıq və qlobal inteqrasiya*



Prezident İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının iştirakçılarına ünvanladığı müraciət yeni reallıqların beynəlxalq müstəvidə rəsmi bəyanatı və gələcəyə baxış konsepsiyasıdır. Dövlətimizin başçısının müraciəti Azərbaycanın sülhə, dayanıqlı inkişafa və qlobal inteqrasiyaya sadiqliyini təsdiq edən mühüm siyasi sənəddir.

Müraciətdə Azərbaycanın sülhə verdiyi töhfələrə, beynəlxalq nüfuzuna və dayanıqlı inkişafına dair mühüm məqamlara diqqət yönəldilib: "BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası, dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan, BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Biz, xüsusən də, multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq".

6

## "Uşaqdır", - deyib yan keçməyək

### Son vaxtlar yeniyetmələrlə bağlı baş verən faciələr bizdən övladlarımıza münasibətdə daha ayıq olmağı tələb edir

Uşaqların bu cür qanlı hadisələri törətməsinin qarşısının alınması üçün onların tərbiyəsi istiqamətində illərin sınağından çıxmış metodlar tətbiq olunmalıdır. Valideynlər uşaqların bütün hərəkətlərini nəzarətdə saxlamalı, onlar üçün zorakılıqdan uzaq mühit yaradılmalıdır. Kahramanmaraşdakı qanlı hadisədən yalnız Türkiyə deyil, bütün dünya dərs götürməlidir. Yeniyetmələrin düzgün tərbiyə olunması üçün sistemli profilaktik tədbirlər görülməlidir.

8

# BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının səksən ikinci sessiyasının iştirakçılarına

Hörmətli Baş katibin müavini!

Zati-aliləri!

Xanımlar və cənablar!

Azərbaycanın sədrliyi ilə keçirilən BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (BMT ASİSK) 82-ci sessiyasında çıxış etmək üçün mənə göndərdiyi səmimi dəvətə görə Baş katibin müavininə dərin təşəkkürümü bildirmək istəyirəm.

BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Biz xüsusən də multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq.

Görüşümüz artan qlobal qeyri-müəyyənlik dövründə baş tutur. Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda Azərbaycan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır.

2021-ci ildə bu mötəbər qurumda ilk dəfə çıxış etdikdən sonra Cənubi Qafqazda dərin transformasiya baş vermişdir. Azərbaycan özünün suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa etmiş, Ermənistanla sülh gündəliyinə başlamışdır. Ötən ilin avqustunda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın evsahibliyi ilə keçirilmiş Vaşinqton Zirvə görüşündə Azərbaycan ilə Ermənistan arasında normallaşmada tarixi irəliləyiş əldə olunmuşdur.

Bu gün biz sülhün bəhrəsinin şahidiyik. Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətləri başlamışdır və hazırda Azərbaycan Ermənistan üçün tranzit çıxışına şərait yaradır. Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulmasına töhfə verir.

Eyni zamanda Azərbaycan işğal zamanı tam dağıdılmış və azad edilmiş ərazilərdə unikal və genişmiqyaslı yenidənqurma layihələrini həyata keçirir. "Böyük qayıdış" proqramı uğurla icra olunur. 80 000-dən artıq insan öz həyatını yenidən qurmaq, doğma yurdlarına qovuşmaq, təhsil almaq və işləmək məqsədilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıtmışlar. Bununla belə, minalar humanitar və inkişaf sahələrində ciddi təhdid olaraq qalır. Asiya və Sakit okean üzrə Komissiyanın əhatə dairəsində olan bir sıra ölkələrdə də mövcud olan mina problemi bu sahədə geniş beynəlxalq əməkdaşlığı zəruri edir. 2020-ci ildə münaqişə başa çatdıqdan sonra 400-dən artıq azərbaycanlı mülki şəxs mina partlayışları nəticəsində həyatını itirmiş və ya yaralanmışdır.

Xanımlar və cənablar!

Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir. Son iki onillik ərzində iqtisadiyyatımız təxminən dörd dəfə artmış, yoxsulluq və işsizlik isə təqribən 5 faiz səviyyəsinə düşmüşdür. Sosial müdafiə və infrastruktur sahəsində böyük sərmayələr hazırda sayı 10 milyonu keçmiş əhalimizin rifahını yaxşılaşdırmışdır.

Azərbaycan BMT-nin 2030-cu il Gündəliyini milli inkişaf strategiyalarına daxil edərək, yoxsulluğun azaldılması, təhsil və səhiyyə sahələrində nailiyyətlər qazanaraq, "heç kəsi diqqətdən kənarda qoymamaq" prinsipinə qəti şəkildə sadiq çıxdığımızı əks etdirən könüllü milli hesabatlarını dövri olaraq təqdim edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmişdir.

Bundan əlavə, Azərbaycan əsas daşımalar qovşağı kimi öz rolunu gücləndirir. Cari geosiyasi mühitdə Orta dəhlizin əhəmiyyəti artır. Zəngəzur dəhlizi Asiyanı Avropa ilə birləşdirərək, Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyanın prioritetləri ilə tam uyğun şəkildə daha geniş nəqliyyat, enerji və rəqəmsal şəbəkələrə töhfə verərək regional bağlantıları daha da artıracaq.

Azərbaycan sabit və şaxələndirilmiş enerji təchizatına töhfə verərək müxtəlif bölgələrdə enerji təhlükəsizliyinin təminatçısı kimi öz etibarlı rolunu oynamaqda davam edir.

Münaqişənin başa çatması Azərbaycanın beynəlxalq səylərinin genişləndirilməsi üçün də yeni imkanları yaratmışdır. Azərbaycanın Türk Dövlətləri Təşkilatında və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyi, onun D8 - İqtisadi Əməkdaşlıq üzrə Təşkilata, Mərkəzi Asiyada dövlət başçılarının məşvərətçi görüşlərinə qəbul olunması və COP29 tədbirinə uğurlu evsahibliyi etməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın xarici siyasətinə artan etimadının təzahürüdür.

Sonda məmnunluqla qeyd etmək istərdim ki, Azərbaycan gələn ay Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına evsahibliyi edəcək. Genişmiqyaslı yenidənqurma və dayanıqlı şəhərsalma işlərində iştirak edən ölkə kimi biz sessiyada öz təcrübəmizi bölüşməyi və ən yaxşı qlobal təcrübələrlə tanış olmağı arzulayırıq. Mən hamınızı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak etməyə dəvət edirəm.

Bu iclasın işinə uğurlar arzu edirəm. Sağ olun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Yerin təkindən istifadə sahəsində fəaliyyətin təkmilləşdirilməsi (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında iqtisadi islahatların davamı olaraq faydalı qazıntı yataqlarının öyrənilməsi, istismarı və idarə olunması sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasını, innovativ texnologiyalar tətbiq edilməklə çevik icra və nəzarət mexanizminin qurulmasını, habelə bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi aktların təkmilləşdirilməsini, o cümlədən yerin təkindən istifadə sahəsində sahibkarlara göstərilən xidmətlərin operativliyinin və şəffaflığının gücləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində səmərəliliyin artırılması və bazar tələbatının ödənilməsi məqsədilə Bakı şəhərinin Qaradağ rayonu ərazisində yerləşən "Qaradağ I və II", Bakı şəhərinin Qaradağ rayonu və Abşeron rayonunun ərazilərində yerləşən "Güzdək muldası" əhəngdaşı yataqları, Zaqatala rayonu ərazisində yerləşən "Katexçay I və II" , Balakən rayonu ərazisində yerləşən "Balakənçay I və II", Oğuz rayonu ərazisində yerləşən "Ağçay I" qum-çınqıl yataqları və İmişli rayonu ərazisində yerləşən "İmişli" qum-çınqıl yataqları daxilində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müəyyən etdiyi yer təki sahələri "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) istifadəsinə verilsin.

2. Müəyyən edilsin ki:

2.1. yerin təkindən istifadə sahəsində (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) yer təkindən istifadə hüququnun verilməsi, yer təki sahələrinin dövlət ekspertizasının aparılması, yer təki istifadəçiləri tərəfindən hesabatların təqdim edilməsi, yer təkinin istifadəyə verilməsi üzrə aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylərin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarınınalınması, hərraclara (auksion və müsabiqə) dair sənədlərin qəbulu və onların keçirilməsi zamanı torpaqların kateqoriyalara aid edilməsi, kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi və digər əlaqəli proseslər 2027-ci il avqustun 1-dən etibarən "Rəqəmsal ekologiya" informasiya sistemi vasitəsilə "bir pəncərə" prinsipi əsasında həyata keçirilir;

2.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan "bir pəncərə" prinsipi üzrə əlaqələndirici dövlət orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. yer təkindən istifadə sahəsində normativ hüquqi aktların tələblərinin pozulmasına görə məsuliyyətin gücləndirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. altı ay müddətində:

3.2.1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri, bu Fərmanın 4.1.2-ci yarımbəndi nəzərə alınmaqla, prioritet qeyri-filiz faydalı qazıntı yataqlarının monitorinqinin və qiymətləndirilməsinin həyata keçirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifləri nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının əsas istehlak bazarından olan məsafəsindən, ərazinin relyefindən, iqlim şəraitindən və infrastrukturun mövcudluğundan asılı olaraq, iqtisadi dövriyyəyə cəlb edilməsi üçün güzəştlərin tətbiqinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və dövlət torpaq kadastrı məlumatlarına əsasən mənafeyinə toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 aprel tarixli 639 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar"ın 5.1.1-ci yarımbəndində nəzərdə tutulan siyahıya daxil ediləcək yer təki istifadəçilərinin istifadəsindəki və bu Fərmanın 1-ci hissəsi ilə Cəmiyyətin istifadəsinə verilən yer təki sahələrinin yerləşdiyi və sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı olmayan torpaqların kateqoriyasının həmin kateqoriyaya keçirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

3.2.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifləri nəzərə alınmaqla, yer təkindən istifadə hüququnun əldə edilməsi, yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı zamanı yer təki istifadəçiləri tərəfindən təqdim edilməsi tələb olunan normativ hüquqi aktlarda nəzərdə tutulan sənəd və hesabatların nümunəvi formalarını təsdiq etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

4.1. qeyri-filiz faydalı qazıntı yataqlarının geoloji öyrənilməsinə və istismarına dair Dövlət Geoloji İnformasiya Fondunda mövcud olan, habelə bu Fərmanın 4.1.3-cü yarımbəndinə uyğun olaraq aparılan monitorinq və qiymətləndirmə işləri nəticəsində əldə edilən məlumatlar əsasında müvafiq informasiya ehtiyatının yaradılması məqsədilə:

4.1.1. Dövlət Geoloji İnformasiya Fondunda mövcud olan məlumatlardan (mövcud yataqların siyahısı və koordinatları, sahəsi, xammalın növü, sənaye təyinatı, ilkin və qalıq ehtiyatı, ehtiyatların hesablanması planı (və ya xəritəsi), yer təki istifadəçiləri barədə məlumat, faydalı layın qalınlığı, geoloji məlumatlar, faktiki materiallar xəritəsi, yanakı komponentlər, laboratoriya nəticələri və digər qrafik məlumatlar), ayrılmış və faydalı qazıntı ehtiyatları yerləşən ərazilər üzrə torpaq kadastr məlumatlarından, habelə faktiki yer təki istifadəçiləri və istismar olunan sahələr barədə məlumatlardan ibarət olan informasiya ehtiyatını 2028-ci il yanvarın 1-dək yaratsın;

4.1.2. prioritet qeyri-filiz faydalı qazıntı yataqlarının siyahısını Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə birlikdə üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.1.3. bu Fərmanın 4.1.2-ci yarımbəndində nəzərdə tutulmuş siyahı üzrə qeyri-filiz faydalı qazıntı yataqlarında aparılacaq monitorinq və qiymətləndirmə işləri nəticəsində əldə edilən məlumatların (koordinatlar, sahəsi, xammalın növü, sənaye təyinatı, ilkin və qalıq ehtiyatı, ehtiyatların hesablanması planı (və ya xəritəsi), yer təki istifadəçiləri barədə məlumat, faydalı layın qalınlığı, geoloji məlumatlar, faktiki materiallar xəritəsi, yanakı komponentlər, laboratoriya nəticələri və digər qrafik məlumatlar) bu Fərmanın 4.1.1-ci yarımbəndi ilə nəzərdə tutulan informasiya ehtiyatına daxil edilməsini təmin etsin;

4.2. yer təkindən istifadə sahəsində proseslərin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar "Rəqəmsal ekologiya" informasiya sisteminin "Geologiya və mineral xammal" altsistemi vasitəsilə aşağıdakıları təmin etsin:

4.2.1. yer təkindən istifadə sahəsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq icazələrin verilməsini, dövlət geoloji ekspertizasının keçirilməsi, yer təkinin istifadəyə verilməsi üzrə hərraclara (auksion və müsabiqə) dair ərizələrin və digər sənədlərin qəbulunu, müvafiq dövlət orqanlarından (qurumlarından) razılıq və rəylərin alınmasını;

4.2.2. yer təkindən istifadə sahəsində hesabatların qəbulunu, razılaşdırılmasını və təsdiqini, aşkar edilmiş uyğunsuzluqlar barədə yer təki istifadəçilərinin məlumatlandırılmasını;

4.2.3. hərraca çıxarılmış faydalı qazıntı yataqları yerləşən torpaq sahəsinin müvafiq kateqoriyaya aid edilməsi və ya kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət göndərilməsini;

4.2.4. dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə hərracdan əvvəl razılaşdırılmış icarə haqqının məbləği barədə hərrac iştirakçılarına məlumat verilməsini;

4.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan proseslərin "Rəqəmsal ekologiya" informasiya sisteminin "Geologiya və mineral xammal" altsistemi vasitəsilə Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirilməsini, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarından və sistemlərindən məlumatların əldə edilməsini, mübadiləsini və həmin informasiya ehtiyatlarının və sistemlərinin inteqrasiyasını 2027-ci il avqustun 1-dək təmin etsin.

6. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan informasiya ehtiyatının yaradılması məqsədilə ayrılmış və faydalı qazıntı ehtiyatları yerləşən ərazilər üzrə torpaq kadastr məlumatlarının Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilməsini üç ay müddətində təmin etsin.

7. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, yerin təkindən istifadə ilə bağlı texniki təhlükəsizlik və tikinti, habelə geoloji öyrənmə, tədqiqat, sınaqlar aparılması və mədənlərin bağlanması üzrə dövlət standartlarının hazırlanmasını 2027-ci il iyulun 1-dək təmin etsinlər.

8. Azərbaycan İnvestisiya Holdinqi bu Fərmanın 14-cü hissəsindən irəli gələn məsələlərin icrasını bir ay müddətində təmin etsin.

9. Aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan qeyri-filiz faydalı qazıntı sahələrinin yerləşdiyi və dövlət mülkiyyətində olan torpaq sahələrinin "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Cəmiyyətin müraciəti əsasında, Cəmiyyətin istifadəsinə verilməsini bir ay müddətində təmin etsinlər.

10. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 974 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 579 (Cild I) ilə təsdiq edilmiş "Yerin təkindən, dəniz dibi sahələrindən və akvatoriyasından istifadəyə görə ödənişlərin alınması Qaydaları"nın 13-cü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxur kütləsinin (dövlət geoloji ekspertizası aparılmaqla) iqtisadi dövriyyəyə cəlb edilməklə istifadəsinə görə ödənişin miqdarı müvafiq faydalı qazıntının hasilatına görə ödənişin (mədən vergisi) 50 faizi miqdarında müəyyən olunur.".

11. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 580 (Cild I) ilə təsdiq edilmiş "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. Agentlik hərraca çıxarılmış faydalı qazıntı yataqları yerləşən torpaq sahəsinin müvafiq kateqoriyaya aid edilməsi və ya kateqoriyasının dəyişdirilməsi, yaxud məqsədli təyinatının dəyişdirilməsi üçün, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın 2-ci və 3-cü hissələrinin tələblərinə uyğun olaraq fəaliyyət sferasına (maraqlarına) toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərini, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarını əldə edir və həmin Qaydalara əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra - Xidmət) təqdim edir. Bu zaman müvafiq rəy və razılıqların əldə edilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın 2-ci və 3-cü hissələrinə uyğun olaraq aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərinin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin razılıqlarının Xidmətə təqdim edilməsinə bərabər tutulur.";

11.2. 4.3.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.3.8-ci yarımbənd əlavə edilsin:

"4.3.8. dövlət, bələdiyyəvə xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə razılaşdırılmış icarə haqqının məbləği barədə məlumat.";

11.3. 8-ci hissə üzrə:

11.3.1. aşağıdakı məzmunda 8.2-1-ci bənd əlavə edilsin:

"8.2-1. Hərrac komissiyası auksiona çıxarılan qeyri-filiz faydalı qazıntı yatağının axtarışı və (və ya) kəşfiyyatı bu Qaydaların 8.1.5-ci yarımbəndinə uyğun olaraq ən yüksək qiymət təklifini verən və qalib elan olunan auksion iştirakçısı tərəfindən aparıldığı təqdirdə, auksion qalibinin təklif etdiyi qiymətə 25 (iyirmi beş) faiz güzəşt tətbiq edir. Tətbiq edilmiş güzəşt yekun protokolda qeyd olunur.";

11.3.2. 8.3-cü və 8.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.3. Auksion qalibi auksionun nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi məbləğində ödənişi etmədikdə auksionun nəticəsi ləğv olunur. Yekun protokolu imzalamaqdan imtina edən və (və ya) 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi məbləğində ödənişi etməyən auksion qalibinin behi qaytarılmır və həmin iştirakçı yer təkinin istifadəyə verilməsi üzrə keçiriləcək növbəti 2 (iki) hərracda iştirak hüququnu itirir.

8.4. Auksionun nəticələri haqqında yekun protokol əsasında, auksion qalibi 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi, istismar işlərinə başladıqda 40 (qırx) faizi, ilkin ehtiyat həcminin 50 (əlli) faizini çıxardıqda isə qalan 30 (otuz) faizi məbləğində ödənişi təmin etməlidir.".

12. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1006; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 8 aprel tarixli 640 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 3-cü hissə üzrə:

12.1.1. 3.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.5-ci yarımbənd əlavə edilsin:

"3.1.5. faydalı qazıntı yataqlarının (neft-qaz yataqları istisna olmaqla) istismara verilməsi zamanı - Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (işğaldan azad edilmiş ərazilər istisna olmaqla).";

12.1.2. 3.2.4.7-ci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.4.8-ci abzas əlavə edilsin:

"3.2.4.8. bu Qaydaların 3.1.5-ci yarımbəndinə uyğun olaraq müraciət edildiyi hallarda, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları"na uyğun olaraq, faydalı qazıntı yataqlarının istifadəyə verilməsi mərhələsində aidiyyəti dövlət orqanlarından (qurumlarından) əldə edilmiş rəylər, habelə torpaq mülkiyyətçilərindən, istifadəçilərindən əldə edilmiş yazılı razılıq sənədləri (həmin sənədlər təqdim edildiyi halda bu Qaydaların 3.2.4.3-cü abzasında göstərilmiş Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi, habelə bu Qaydaların 3.2.4.4-cü və 3.2.4.5-ci abzaslarında nəzərdə tutulmuş sənədlər təqdim edilmir).";

12.2. 4.1.1-ci yarımbənddə "3.1.1-3.1.4-cü" sözləri "3.1.1-3.1.5-ci" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 282 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 22) ilə təsdiq edilmiş "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında Əsasnamə"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3.1.8-ci yarımbəndə "Geologiya" sözündən sonra "və mineral xammal" sözləri əlavə edilsin;

13.2. 3.3.8-ci yarımbəndə "Geologiya" sözündən sonra "və mineral xammal" sözləri, "proseslərin" sözündən sonra ", yerin təkindən istifadə sahəsində (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) yer təkindən istifadə hüququnun verilməsi, yer təki sahələrinin dövlət ekspertizasının aparılması, yer təki istifadəçiləri tərəfindən hesabatların təqdim edilməsi, yer təkinin istifadəyə verilməsi üzrə aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylərin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarının alınması, hərraclara (auksion və müsabiqə) dair sənədlərin qəbulu və onların keçirilməsi zamanı torpaqların kateqoriyalara aid edilməsi, kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi və digər əlaqəli proseslərin" sözləri əlavə edilsin.

14. "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 179 (Cild I) 2-ci hissəsinə "filizi" sözündən sonra ", habelə qeyri-filiz" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 aprel 2026-cı il*

## "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanı) I hissəsinin beşinci abzasına "Xidməti" sözündən sonra "və Dövlət Gömrük Komitəsi" sözləri əlavə olunsun və həmin abzasda "keçirir" sözü "keçirirlər" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 aprel 2026-cı il*

## "Islamabad Post": Azərbaycan şəhərsalma modelinin yalnız milli transformativ deyil, həm də beynəlxalq səviyyədə əhəmiyyətli olduğunu nümayiş etdirir

Azərbaycan Prezidenti İlham Əliyev 2026-cı ili ölkədə "Şəhərsalma və Memarlıq İli" elan etmək haqqında Sərəncam imzalayıb. Bu təşəbbüs ölkənin əsrlər boyu davam edən şəhərsalma və memarlıq irsi ənənələrini qorumaqla yanaşı, sektorda müasir, innovativ yanaşmaların inkişafını və daha geniş tətbiqini təşviq etmək məqsədi daşıyır. Bu qərar Azərbaycanın müasir şəhərsalma problemlərinin həlli, davamlı inkişafın təmin edilməsi və tarixi irsin gələcəyə yönəlmiş memarlıq və planlaşdırma təcrübələri ilə uyğunlaşdırılması öhdəliyini əks etdirir.




AZƏRTAC xəbər verir ki, bu barədə Pakistanın "Islamabad Post" nəşrinin dərc etdiyi "2026: Azərbaycanın Şəhərsalma İli - Gələcək üçün model" sərlövhəli məqaləsində bildirilir.

Jurnalist Ənsar Mahmud Bhattinin müəllifi olduğu məqalədə qeyd olunur ki, Azərbaycanın urbanizasiya planları təkcə öz şəhərlərini yenidən formalaşdırmaqla kifayətlənmir, həm də xaricdə təsirini genişləndirir ki, bu da ölkənin davamlı inkişafda tərəfdaş qismində artan rolunu əks etdirir. "1991-ci ildə müstəqillik qazandıqdan sonra ölkədə şəhər əhalisi 1993-cü ildəki 45 faizdən 2025-ci ildə təxminən 58 faizə yüksəlib. Bu transformasiya "ağıllı şəhər" texnologiyalarını, davamlı planlaşdırmanı və inklüziv idarəetməni birləşdirən düşünülmüş strategiya ilə idarə olunub. Daxili model dayanıqlılıq və rəqəmsal bağlantı üzərində qurulub. Azərbaycan sənaye mərkəzləri və böyük yaşayış blokları ilə bağlı sovet arxitekturasını miras alıb, lakin müstəqillikdən sonrakı üç onillikdə davamlılığı, inklüzivliyi və müasir infrastrukturu vurğulayan siyasətlər hazırlayıb", - deyə məqalədə qeyd olunur.

Müəllif yazır ki, münaqişə nəticəsində viran qalan Qarabağ bölgəsi bu transformasiyanın flaqmanına çevrilib. Ölkənin ilk "ağıllı kənd"i kimi yenidən qurulan Ağalı indi bərpaolunan enerji şəbəkələri, rəqəmsal idarəetmə platformaları və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı ilə öyünür. Mədəniyyət paytaxtı olan Şuşa elektrikli ictimai nəqliyyat, yeraltı tullantıların toplanması və irsə əsaslanan planlaşdırma ilə yenidən qurulur. Bu layihələr Azərbaycanın davamlılığı yenidənqurmaya necə tətbiq etdiyini, münaqişədən sonrakı bərpanı innovasiya fürsətinə çevirdiyini nümayiş etdirir.

Məqalədə vurğulanır: "Lakin Azərbaycanın şəhərsalma vizyonu təkcə öz sərhədləri ilə məhdudlaşmır. Ölkə öz təcrübəsini və maliyyə dəstəyini Pakistan da daxil olmaqla digər ölkələrlə bölüşməyə başlayıb. İslamabadda Azərbaycan əsas ərazilərin, xüsusən də turistlərin tez-tez getdiyi yerlərin təkmilləşdirilməsinə və abadlaşmasına töhfə verib. Bu əməkdaşlıq paytaxtın estetik cəlbediciliyini və infrastrukturunu artırıb, müasir və qonaqpərvər bir şəhər kimi mövqeyini möhkəmləndirib. Bu təşəbbüs Pakistan və Azərbaycan arasındakı sıx əlaqələri vurğulayır və təkcə diplomatik xoşməramlılığı deyil, həm də şəhərsalmanın transformativ gücünə ortaq inamı əks etdirir. İslamabadın yüksəlişinə sərmayə qoyan Azərbaycan şəhərsalma strategiyasının yalnız daxili prioritet deyil, həm də beynəlxalq əlaqələrin təməl daşı olduğunu nümayiş etdirir. Eyni zamanda bu əməkdaşlıq Azərbaycanın yanaşmasının iki vacib aspektini vurğulayır. Birincisi, bu, şəhərsalmanın milli kimlik və xarici siyasətdə mərkəzi yer tutduğunu göstərir. Azərbaycan üçün müasir, dayanıqlı şəhərlərin qurulması təkcə daxili inkişafla deyil, həm də yumşaq gücün layihələndirilməsi və tərəfdaşlığın inkişaf etdirilməsi ilə bağlıdır. İkincisi, bu, şəhərsalmanın millətlər arasında necə körpü rolunu oynaya biləcəyini göstərir. İslamabadın abadlaşdırılmasını dəstəkləməklə, Azərbaycan Pakistanla mədəni və iqtisadi əlaqələri gücləndirir və şəhərsalma ilə diplomatiyanı birləşdirən əməkdaşlıq modeli yaradır".

Azərbaycanın şəhərsalma üzrə təşəbbüsləri barədə bəhs edən müəllif daha sonra yazır: "Azərbaycan Milli Şəhərsalma Forumuna (NUFA), ən son 2025-ci ildə NUFA3-ə evsahibliyi etməyə davam edir və burada mütəxəssislər enerjiyə qənaət edən şəhərlər, "yaşıl planlaşdırma" və rəqəmsal bələdiyyə idarəetməsini müzakirə edirlər".

Qeyd olunur ki, regional qonşularla müqayisələr Azərbaycanın unikallığını daha çox vurğulayır. Türkiyə və İran yetkin, həddindən artıq izdihamlı şəhər sistemlərinin mürəkkəbliyi ilə mübarizə apararkən, Azərbaycan müasir şəhərləri, demək olar ki, sıfırdan qurur, dayanıqlılığı və "ağıllı" texnologiyaları tətbiq edir. Bu vizyonu Pakistana da şamil etməklə, Azərbaycan urbanizasiya modelinin yalnız milli transformativ deyil, həm də beynəlxalq səviyyədə əhəmiyyətli olduğunu nümayiş etdirir.

Məqalənin sonunda qeyd olunur: "Azərbaycanın urbanizasiya strategiyası şəhərləri genişləndirmək planları ilə yanaşı, milli inkişafın mühərrikləri və münaqişədən sonrakı bərpanın rəmzi kimi xidmət edən dayanıqlı, yaşıl və rəqəmsal şəkildə əlaqəli şəhər məkanlarının yaradılması ilə bağlıdır. Qarabağın yenidən qurulması flaqman nümunəsi kimi çıxış edir, İslamabadın abadlaşdırılması isə ölkənin qlobal şəhər yüksəlişində tərəfdaş kimi artan rolunu əks etdirir. Bu səylər birlikdə göstərir ki, Azərbaycan üçün urbanizasiya həm daxili zərurət, həm diplomatik alət, həm də Pakistan kimi müttəfiqlərlə əlaqələri gücləndirmək yolu ilə ölkə daxilində və xaricdə şəhərləri formalaşdırır".

## Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Antalyada "Fələstində sülh naminə birləşərək: Təhsil sisteminin məhv edilməsi ilə mübarizə və gələcəyin qorunması" adlı paneldə iştirak edib



**Aprelin 18-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Fələstində sülh naminə birləşərək: Təhsil sisteminin məhv edilməsi ilə mübarizə və gələcəyin qorunması" adlı panel iclas təşkil olunub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Əvvəlcə qonaqlar Afrika Mədəniyyət Evinin stendi ilə tanış olublar. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə 2016-cı ildə qurulan Afrika Mədəniyyət Evinin fəaliyyətinin məqsədi afrikalı qadınların əl əməyini təbliğ etmək, onların fəaliyyətini iqtisadi dəyərə çevirmək və mədəni həmrəyliyi gücləndirməkdir.




Türkiyənin birinci xanımı Əminə Ərdoğanın himayəsi altında keçirilən tədbir Fələstinə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

Tədbirdə çıxış edənlər müharibənin təsirlərinə məruz qalan uşaqlar üçün təhlükəsiz təhsil mühitinin bərpası, dəstək mexanizmlərinin gücləndirilməsi və təhsildə davamlılığın təmin edilməsinin regionun gələcəyi üçün strateji əhəmiyyət daşıdığını bildiriblər.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan çıxış edərək, tədbirdə veriləcək mesajların dünyanın müxtəlif bölgələrində baş verən müharibələrin qurbanı olan uşaqlar üçün yeni bir həyatın ümid işığı olacağına əminliyini vurğulayıb. O, uşaqların və gənclərin bir millətin ümidi və sabahı olduğunu deyərək, zorakılığı təşviq edən ən xırda amillə belə qətiyyətlə mübarizə aparmağın mühüm roluna toxunub.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra tədbir iştirakçıları Fələstində münaqişə nəticəsində təhsil sisteminin məhv edilməsinə həsr olunan sərgiyə baxıblar.




## Leyla Əliyevanın təşəbbüsü ilə sosial xidmət müəssisələrinin uşaqları üçün sosial-emosional öyrənmə proqramı həyata keçirilir

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə uşaq evi sosial xidmət müəssisələrinin uşaqları üçün sosial-emosional öyrənmə proqramı həyata keçirilir.**

AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyi, ADA Universiteti və Sosial Xidmətlər Agentliyinin birgə tərəfdaşlığı ilə icra olunan proqram sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial və emosional bacarıqlarının inkişafını dəstəkləyir. Proqramın icrasına ötən aydan etibarən başlanılıb və hazırda uğurla davam etdirilir.

Proqram çərçivəsində 1, 2 və 3 saylı uşaq evi sosial xidmət müəssisələrində yaşayan uşaqlar üçün həftəlik təlim sessiyaları təşkil olunur. Sessiyalarda 100-dən çox uşaq iştirak edir. Təlimlər zamanı iştirakçıların ünsiyyət, özünüifadə, emosiyaların idarə olunması, komanda işi və qarşılıqlı əməkdaşlıq bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir.

Proqram çərçivəsində təşkil olunan təlimlər ADA Universitetinin tələbələri tərəfindən həyata keçirilir. Təlim prosesinin effektivliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə universitetin müəllim heyəti tərəfindən iştirakçılara mütəmadi metodiki dəstək göstərilir, sessiyaların məzmunu və yanaşmaları üzrə müvafiq istiqamətləndirmə aparılır.

Təşəbbüsün əsas məqsədi sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial-emosional inkişafını dəstəkləmək, onların özünəinamını gücləndirmək, ünsiyyət bacarıqlarını inkişaf etdirmək və cəmiyyətə daha fəal inteqrasiyasına töhfə verməkdir.

# İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib



**Aprelin 20-də İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində aqrar sahənin dayanıqlı inkişafı, o cümlədən mövcud vəziyyət və inkişaf perspektivləri, kənd təsərrüfatında istehsalın artırılması, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar ticarətin və ixracın genişləndirilməsi, regionlarda məşğulluğun qorunması və digər carı məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələ üzrə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun geniş məruzəsi dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda aqrar sahənin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Belçika və Niderland parlamentlərinin 2026-cı il 16 aprel tarixli qətnamələrinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

Belçika və Niderlandın Nümayəndələr Palataları 2026-cı il aprelin 16-da Azərbaycan-Ermənistan sülh prosesinə, hər iki ölkənin birgə səyləri ilə regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına yönəlmiş addımlara zərbə vurmaq məqsədi daşıyan qətnamələr qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizin suveren ərazisinə təhrif edilmiş formada istinad edən, saxta iddialar və əsassız ittihamlar üzərində qurulmuş bu birtərəfli və qərəzli sənədləri kəskin şəkildə qınayır və qətiyyətlə rədd edir.

Azərbaycan və Ermənistan arasında mövcud olmuş münaqişənin tarixini və nəticələrini təhrif edən, ənənəvi anti-Azərbaycan, islamofob dairələrin qeyri-sağlam və irqçi təxəyyülündən irəli gələn bu sənədlər beynəlxalq hüququn və qanunun aliliyinin kobud şəkildə pozulması, regionda davam edən və həssas mərhələdən keçən sülh prosesinə qarşı təxribatdır.

Qeyd edilən sənədlərin xüsusilə Azərbaycan və Ermənistan parlament sədrlərinin növbəti görüşünün keçirildiyi bir vaxtda qəbul edilməsi bu sənədlərin "təşəbbüskarlarının" regiondakı reallıqlardan uzaq olduğunu, onların əsl niyyətinin sülh və dialoqu təşviq etmək deyil, məhz düşmənçiliyi və qisasçılığı qızışdırmaq olduğunu bariz şəkildə göstərir.

Belçika Nümayəndələr Palatasının qəbul etdiyi sənəddə tarixi Vaşinqton Sülh Sammitinə heç bir istinadın olmaması, sammitin nəticələrinin, o cümlədən "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş"in paraflanmasının qeyd edilməməsi sənədin müəllifləri və onun lehinə səs verənlərin mövzu ilə bağlı "savadlılığının" və xroniki hal almış qərəzliliyinin daha bir əyani nümunəsidir.

Azərbaycan və Ermənistan sərhədində vəziyyəti hərbi baxımdan riskli hesab edən və bunu Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının davamlı fəaliyyəti üçün əsas kimi qələmə verən sənəd müəlliflərinin qiymətləndirməsi ilk növbədə Ermənistanın rəsmi şəxslərinin ictimaiyyətə açıqlanan mövqeyi ilə ziddiyyət təşkil edir. Məhz Azərbaycan tərəfinin sülhə yönəlmiş addımları və məsuliyyətli davranışı nəticəsində son iki il sərhəddə hər hansı hərbi insidentin baş vermədiyi ən sakit dövr kimi xarakterizə olunur və bu, Ermənistan tərəfindən də təsdiq edilir.

Müharibə və insanlıq əleyhinə cinayətlər törətdiyi şəffaf və açıq hüquqi proses yolu ilə sü-



buta yetirilmiş şəxsləri "müharibə əsiri" kimi qələmə vermək və onların azadlığa buraxılmasını tələb etmək, hər şeydən öncə, sözügedən sənədlərdə istinad olunan beynəlxalq hüquq normalarına, insan hüquqlarına və qanunun aliliyinə qarşı qəsddir.

Məhkum edilmiş sözügedən şəxslərin istintaq və mühakimə prosesində bütün hüquqlarının qorunduğu, onlar üzərində məhkəmə prosesinin qanuniliyi müvafiq bitərəf beynəlxalq mexanizmlər tərəfindən təsbit edilmişdir. Bu kontekstdə həmin şəxslərin azad edilməsi, habelə onların mühakimə prosesi ilə əlaqədar Azərbaycana qarşı tədbirlərin görülməsi ilə bağlı Ermənistan tərəfindən edilmiş müraciətlərin vaxtilə Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən bir neçə dəfə rədd edilməsi xüsusilə qeyd edilməlidir.

Eyni qaydada BMT İnsan Hüquqları Şurasının Əsassız həbslər üzrə İşçi Qrupunun 13 mart 2025-ci il tarixli müvafiq rəyində qeyd olunan şəxslərin Azərbaycan tərəfindən həbsinin və mühakiməsinin qanuniliyi təsbit edilmiş, həmin şəxslərin hüquqlarının pozulmasına dair iddialar təmin edilməmişdir.

Biz qeyd olunan əsassız çağırışların ünvanlandığı aidiyyəti dövlətlərin və Avropa İttifaqının ikitərəfli dialoq vasitəsilə qətiyyətlə irəlilədilən sülh prosesinə pozucu müdaxilədən çəkinəcəyini gözləyir və onları belə təxribatçı addımların təkrarlanmaması üçün zəruri tədbirlər görməyə dəvət edirik.

Azərbaycan Respublikasının Milli Məclisi Belçika və Niderland parlamentlərindən Azərbaycana qarşı nifrət kampaniyasına və regionda sülhün möhkəmləndirilməsi səylərinə zərbə vuran addımlara son qoymağı tələb edir. Bu addımlar hazırkı həssas mərhələdə yalnız sülh əleyhinə fəaliyyət göstərən revanşist qüvvələrin həvəsləndirilməsinə deyil, həm də Avropa İttifaqının regionla bağlı bəyan edilmiş təhlükəsizlik və iqtisadi maraqlarına xələl gətirilməsinə xidmət edir.

# KTMT Cənubi Qafqazda davamlı sülhün bərqərar olacağına ümid edir

KTMT Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında müsbət tendensiyaları diqqətə çatdırır və regionda davamlı sülhün bərqərar olacağına ümid edir.

AZƏRTAC xəbər verir ki, bu barədə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi Taatbek Masadıkov Moskvada keçirilən KTMT Parlament Assambleyası Şurasının iclasında bildirib.

O, təşkilatın Qafqaz kollektiv təhlükəsizlik regionundakı vəziyyətə diqqət yetirdiyini və Bakı ilə Yerevan arasında dövlətlərarası hərtərəfli sülh müqaviləsinin imzalanması istiqamətində təşviqedici tendensiyaları qeyd etdiyini bildirib.

Masadıkov vurğulayıb ki, Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanması Cənubi Qafqazda uzunmüddətli sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün etibarlı yoldur.

# Ana dilimiz milli varlığımızın aynasıdır

## Ümummilli Liderin təşəbbüsü ilə hələ sovet dövründə 1978-ci il aprelin 21-də Azərbaycan dili dövlət dili kimi konstitusiyada təsbit olunmuşdur

**Hər bir xalqın ana dili o xalqın tarixi yaddaşı, milli məfkurəsi, vətənpərvər şüuru və genetik kodudur. Əbəs yerə deyilməyib: "Bir milləti məhv etmək istəyirsənsə, öncə onun dilini əlindən al". Ana dili, sadəcə, anadan öyrəndiyimiz dil deyil, həm də düşüncələrimizin, duyğularımızın, mənliyimizin, kimliyimizin, milli identikliyimizin təcəllisidir. Buna görə də toplumu millət edən ən böyük amil dildir. Dil millətin varlığını, ucalığını, mədəni zirvəsini ifadə edir. Bu məsuliyyəti daşımağın şərəfi də xalqların, insanların üzərinə düşür. Bu gün dünya kürəsəlləşir. Gündən-günə qloballaşan dünyamızda Azərbaycan dilinin qorunub saxlanması və inkişaf etdirilməsi ən zəruri məsələlərdən, ən vacib reallıqlardandır.**



### Heydər ƏLİYEV: "Hər bir xalq öz dili ilə yaranır"

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu milli dil siyasəti Azərbaycan dilinin saflığının qorunması və dilin inkişafı istiqamətində, milli həmrəylik, bütövlük və identikliyi təmin edən əsas faktordur.

Aydındır ki, hər bir milli dəyər, ələlxüsus da ana dili nə qədər xalqın keçmişini, qədimliyini özündə əxz etdirsə də, dövlət və rəhbərlik qayğısı olmadan ikinci planda durur və məişət dili səddini keçə bilmir, ali məqamlarda təmsil olunma imkanlarını itirir. Fəaliyyəti boyu milli dəyərlərimizə himayədarlıq edən Ümummilli Liderimiz ana dilimizə xüsusi ehtiramla yanaşıb. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında "Azərbaycan dili Azərbaycan SSR-in dövlət dili kimi təsbit olunmuşdu. Bu, gələcəyə köklənən uzaqgörən siyasətin təzahürü idi. Bu amal uğrunda həmişə mübarizə aparan dahi lider ölkənin ziyalılarını, xalqı ana dilinin təbliğinə səsləyib, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ilə ana dilinin daha da inkişaf etdirilməsinə təkan verib. Müstəqillik illərində də Ulu Öndər Heydər Əliyevin qayğısı nəticəsində ana dilimizin hüquqları qorunub, cəmiyyətdəki mövqeləri möhkəmlənib. Bu gün dilimizin özünəməxsus kamil qrammatik quruluşu, zəngin fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksəksəviyyəli yazı normaları mövcuddur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" böyük öndər Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli Fərmanında deyilir: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Müstəqil dövlətimizin rəsmi dili statusunu almış Azərbaycan dilinin geniş tətbiq edilməsi və sərbəst inkişafı üçün münbit zəmin yaranmışdır. Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin nəticələrinin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur. Dil öz daxili qanunları əsasında inkişaf edirsə də, onun tədqiq və tətbiq edilməsi üçün yaradılmış geniş imkanlar bu inkişafın daha sürətli və dolğun olmasına təkan verir".

2003-cü il yanvarın 2-də Ulu Öndərin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Öz doğma Ana dilini sevən lider deyirdi: "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz ana dilimizlə, Azərbaycan dili ilə fəxr edirik. Ancaq əgər keçmişə nəzər salsaq, bu gün zəngin, yüksək mədəni səviyyədə olan, çox geniş söz ehtiyatına malik olan ədəbi, mədəni dilimiz həmişə belə olmamışdır. Onu yaradanlar olub, elmi əsasını quranlar olub, inkişaf etdirənlər olub. Bu, müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir. Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə çatdırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur".

Ulu Öndər Heydər Əliyev dövlət dilimiz olan ana dilimizə böyük üstünlük verərək, həm də tövsiyə edirdi ki, hər bir azərbaycanlı başqa dilləri də mükəmməl öyrənsin, onlardan yeri gəldikcə istifadə etsin. Lakin heç kəs öz doğma Azərbaycan dilinə diqqət, hörmət və məhəbbəti azaltmamalıdır: "Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, C. Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o, tarixi bilməyəcək, onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək, onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları olmayacaqdır".

### İlham ƏLİYEV: "50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir"

Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının qorunmasını hər zaman diqqət mərkəzində saxlayır. Prezident İlham Əliyev 2025-ci il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş tədbirdə ana dilimizin inkişafı və xarici təsirlərdən qorunması istiqamətində "yol xəritəsi" olan fikirlər söylədi: "Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir. Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm televiziyada, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm".

### "Xalqın nicat yolu doğma dildə danışmaqdır"

Azərbaycan xalqının böyük mütəfəkkiri Cəlil Məmmədquluzadə də "Anamın kitabı" pyesində ana dili məsələsinə toxunub. "Anamın kitabı"nın əsas ideyası vətənə, xalqa, ana dilinə sadiq olmağa çağırış idi. Əsərdə müxtəlif dövlətlərə meyili olan, onların dilində danışan ziyalıların səhv yol tutduqları tənqid olunurdu. Müəllifə görə, xalqın nicat yolu kiminsə, hansı dövlətinsə ağuşuna atılmaq yox, vətən ideyası ətrafında birləşmək, xarici dildə yox, məhz ana dilində, doğma dildə danışmaqdır. Cəlil Məmmədquluzadə bütün problemlərin məhz buradan qaynaqlandığını dilə gətirib.

Heç kimə sirr deyil ki, bu gün çox az da olsa, Azərbaycan dilinə xor baxanlara rast gəlinir. Bəziləri xarici dillərdə danışmağı özləri üçün bir üstünlük, istedad və dünyagörüşü komponenti kimi görürürlər. Ancaq Azərbaycan dilinin zənginliyini unudurlar. Bəxtiyar Vahabzadənin söylədiyi kimi:

*Ey öz doğma dilində danışmağı*
*ar bilən fasonlu ədabazlar,*
*Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.*
*Bunlar qoy mənim olsun,*
*Ancaq Vətən çörəyi,*
*Sizlərə qənim olsun!*

Ana dilimiz haqqında görkəmli şəxsiyyətlər olduqca müsbət fikirlər səsləndiriblər. Misal olaraq deyim ki, M.Y.Lermontov yazırdı ki, fransız dili Avropa üçün nədirsə, azərbaycanlıların da dili Şərq üçün həmin şeydir. Məlumdur ki, fransız dili Avropa mədəniyyətinin, sivilizasiyasının dili idi. Lermontov həmçinin Azərbaycan dilinin axıcılığına, rəvanlığına valeh olduğunu da ifadə etmişdi.

Son dövrlərdə bu müzakirələrdən doğan çoxsaylı fikirlər, yanaşmalar ortaya çıxıb. Kimi Azərbaycan dilinə böyük təhlükələrin olduğunu iddia edir, kimi isə bunun əksini düşünür. Doğrudanmı Azərbaycan dilinə təhlükə var? Gəlin, öncə dil və nitq anlayışını bir-birindən fərqləndirək. Dil nədir, nitq nədir? Dil beynimizdə formalaşmış bioloji, tarixi hadisədir. Milli yaddaşımıza həkk olunmuş, anadan, atadankeçmə bir instinkt və ya varlıqdır. Nitq isə dildən istifadə bacarığıdır. Məsələn, kimsə Azərbaycan dilini bilir, amma bu dildə düşüncələrini səlis ifadə edə bilmir, bu, onun dil deyil, nitq problemidir. Digəri isə Azərbaycan dilini bilir və dildə düşüncələrini rəvan, səlis ifadə edə bilir. Bu, artıq onun nitq bacarığıdır. İsveçrəli dilçi alim Ferdinand dö Sossür dil, nitq və dil fəaliyyətini fərqləndirmək üçün üç fransız terminini - "la langue" (dil), "la parole" (nitq), "le langage" (nitq fəaliyyəti) terminlərini dilçiliyə daxil edib. Sossür insanın danışmaq qabiliyyətini, bacarığını bütövlükdə nitq fəaliyyəti (le langage) adlandırır. Ümumi fenomen olan nitq fəaliyyəti daxilən dil (la langue) və nitq (la parole) deyə iki yerə ayrılır. Müəllif nitq aktını nitq hesab edir. Dil anlayışı (la langue), ümumiyyətlə, dil fəaliyyəti anlayışı (le langage) ilə uyğun gəlir. Nitq fəaliyyəti dilin yalnız müəyyən bir hissəsidir.

Bəs biz hansı halda xarici dilləri öyrənməliyik? Əgər ailədə övlad valideynləri ilə ana dilində danışırsa, gözünü açandan, özünü biləndən bu dildə sözlər eşidibsə, ana laylasını Azərbaycan dilində dinləyibsə, bu uşağın orta məktəbi hansı dildə oxuması fərq etmir. Bəli, iddia oluna bilər ki, xarici dil öyrənmək həm də başqa ölkənin ədəbiyyatı, mədəniyyətini əxz etməkdir. Bu, doğrudur, amma o qədər də təsiredici gücə malik deyil. Bu məqamda Azərbaycan dilinə zərrə qədər də təhlükə yoxdur. Ona görə ki, uşaq dil deyil, nitq bacarığını dəyişib. Dil olaraq, Azərbaycan dili ona genetik kodlarla ötürülüb və öz ana dilimizdə hər gün danışır, təhsilini də alır. Sadəcə, nitq bacarığından istifadə edib, düşüncələrini rus dilində ifadə edir.

Hansı məqamda ana dilimizə təhlükə yarana bilər? Əgər bir azərbaycanlı ailəsində valideynlər gündəlik məişət dilində, öz doğma dili deyil, ingilis, fransız, rus və başqa dilləri istifadə edərlərsə, uşağın qulaq yaddaşı o dildə olan sözlərlə dolarsa, daha sonra təhsilə də bu dildə başlayarsa, həmin uşaq birmənalı "şikəst" olur.

### Xalqımızın tarixən təşəkkül tapmış milli sərvəti

Dili qorumaq onu sevməkdən, ona mükəmməl bələd olmaqdan keçir. Amma unutmamalıyıq ki, dilimizi sevmək kifayət etmir. Çalışmalıyıq ki, dilimizi təbliğ edək, daha geniş arealda yayılmasına yardımçı olaq. Bununla yanaşı ana dilimizi yad təsirlərdən, dialekt sözlərdən, ləhcələrdən qoruyaq. Hərflərin düzgün oxunuşu və səlis tələffüzünə diqqət yetirək. Bu işdə ən çox məsuliyyət alimlərin, müəllimlərin, qəzet və televiziyanın üzərinə düşür.

Unutmamalıyıq ki, ana dilimiz - ədəbi dilimiz xalqımızın tarixən təşəkkül tapmış milli sərvətidir. Bu milli sərvətə isə heç kəsin, məxsusi olaraq, gələcəyin təminatçısı olan gənclərin soyuqqanlı yanaşmasına yol vermək olmaz. Dilimiz əxlaqımız, ərkanımızdır. Ərkanımıza sahib çıxmaq isə hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Ana dilimiz milli varlığımızın aynasıdır. Bu ayna bizi dünyaya nümayiş etdirir. O aynanı çirkləndirmək vətənə xəyanətə bərabərdir. Dilimizi qoruyaq, tarixi şüurumuzu yaşadaq, millətimizin imzasını imzalar içində var edək!

***Aygün MƏMMƏDOVA,***
***AzMİU-nun Əcnəbi dillər kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent***



# Antalya forumu növbəti dəfə Azərbaycanın qlobal proseslərdəki rolunu və gücünü göstərdi

**Türkiyənin Antalya şəhəri növbəti dəfə qlobal diplomatiyanın mərkəzinə çevrildi, Antalya Diplomatiya Forumu mürəkkəbləşən dünya nizamında yeni yanaşmaların müzakirə olunduğu mühüm platforma kimi böyük diqqət doğurdu. Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı isə dövlətimizin bu proseslərdə fəal və təşəbbüskar aktor kimi yer aldığını bir daha nümayiş etdirirdi.**

Forumun keçirildiyi kontekst ən azı tədbirin özü qədər əhəmiyyətli idi. Artan geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət müharibələri və çoxtərəfli əməkdaşlıq mexanizmlərinə təzyiqlər fonunda dünya daha az proqnozlaşdırılan mərhələyə daxil olub. Məhz bu səbəbdən forumun "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" mövzusu şüardan daha çox, real tələblərdən doğan strateji çağırış idi. Burada əsas məsələ risklərin identifikasiyası ilə yanaşı, həm də bu risklərin konkret siyasət və əməkdaşlıq mexanizmlərinə çevrilməsidir.

Tədbirin miqyası da onun çəkisini açıq şəkildə ortaya qoyurdu: 150-dən çox ölkədən 500-dən artıq yüksəksəviyyəli nümayəndənin, o cümlədən 22 dövlət və hökumət başçısının iştirakı Antalya platformasının artıq regional çərçivələrdən çıxaraq qlobal diplomatik mərkəzə çevrildiyini təsdiqləyirdi. 40-dan çox panel və sessiyanın keçirilməsi isə forumun həm də konkret qərarların formalaşdığı praktik müzakirə platforması olduğunu göstərirdi. Azərbaycanın belə bir platformanın tam mərkəzində görünməsi təsadüfi deyildi. Bu, ölkəmizin daha geniş geosiyasi proseslərdə söz sahibi olmaq əzminin davamlı və sistemli şəkildə reallaşdırılması idi.

## Dialoq imkanları

Öncə onu diqqətə çatdıraq ki, Antalya Diplomatiya Forumu hər il Türkiyənin Antalya şəhərində keçirilən və qlobal diplomatiya, beynəlxalq münasibətlər, təhlükəsizlik məsələlərinin müzakirə olunduğu yüksəksəviyyəli beynəlxalq platformadır. Bu forum dövlət və hökumət başçılarını, nazirləri, diplomatları, ekspertləri və biznes liderlərini bir araya gətirir.

Belə bir forumun təşkili təşəbbüsü Türkiyənin sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu tərəfindən irəli sürülüb və rəsmi olaraq 2020-ci ildə yaradılıb. Lakin həmin dövrdə dünyanın üz-üzə qaldığı COVID-19 pandemiyası səbəbindən ilk tədbir təxirə salınaraq 2021-ci ildə təşkil olunub. Forum Türkiyə prezidentinin himayəsi və Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə keçirilib.

Forumun əsas məqsədi qlobal problemlərin açıq və inklüziv müzakirəsi üçün platforma yaratmaqdır. Müasir dünyada artan geosiyasi gərginliklər, regional münaqişələr, enerji təhlükəsizliyi, iqlim dəyişiklikləri və miqrasiya kimi məsələlər dövlətlər arasında daha sıx əməkdaşlıq tələb edir. Antalya Diplomatiya Forumu məhz bu ehtiyacdan doğaraq müxtəlif tərəflər arasında dialoq imkanlarını genişləndirir. Burada yalnız dövlət rəsmiləri deyil, həm də beynəlxalq təşkilatların nümayəndələri, akademik dairələr, biznes liderləri iştirak edirlər. Bu da müzakirələrin daha çoxşaxəli və real nəticələrə yönəlik olmasına şərait yaradır.

Forumun mühüm xüsusiyyətlərindən biri onun qeyri-rəsmi diplomatiya üçün əlverişli mühit yaratmasıdır. Klassik diplomatik görüşlərdən fərqli olaraq, burada tərəflər daha sərbəst fikir mübadiləsi aparır, bəzən isə rəsmi danışıqlara zəmin yaradan ilkin təmaslar qururlar. Xüsusilə münaqişə tərəflərinin eyni platformada təmsil olunması forumun praktik əhəmiyyətini artırır. Bu baxımdan, Antalya Diplomatiya Forumu yalnız müzakirə məkanı deyil, həm də potensial vasitəçilik platforması kimi çıxış edir.

Tədbirin digər mühüm məqsədi diplomatiyanın dəyişən mahiyyətinə uyğun yeni yanaşmaların təşviqidir. Qloballaşma və texnoloji inkişaf nəticəsində beynəlxalq münasibətlər daha mürəkkəb xarakter almışdır. Bu şəraitdə ənənəvi dövlət-dövlət münasibətləri ilə yanaşı, qeyri-dövlət aktorlarının da rolu artır. Antalya Diplomatiya Forumu bu reallığı nəzərə alaraq diplomatiyanı daha inklüziv və çoxsəviyyəli proses kimi təqdim edir.

Bu platformanın əhəmiyyəti yalnız qlobal problemlərin müzakirəsi ilə məhdudlaşmır. O, həm də qardaş Türkiyənin beynəlxalq sistemdə rolunun güclənməsinə xidmət edir. Forum vasitəsilə Türkiyə özünü dialoq təşəbbüskarı, vasitəçi və regional güc kimi təqdim edir. Bu isə ölkənin "yumşaq güc" potensialını artırır və onun beynəlxalq nüfuzunu möhkəmləndirir.

Eyni zamanda forum beynəlxalq şəbəkələşmə üçün geniş imkanlar yaradır. Dünyanın müxtəlif ölkələrindən yüzlərlə yüksəksəviyyəli nümayəndənin iştirakı yeni siyasi və iqtisadi əlaqələrin qurulmasına şərait yaradır. Bu baxımdan, Antalya Diplomatiya Forumu yalnız siyasi deyil, həm də strateji kommunikasiya və təsir platforması kimi çıxış edir.

Nəticə etibarilə Antalya Diplomatiya Forumu müasir beynəlxalq münasibətlər sistemində yeni tipli diplomatik platforma nümunəsidir. Onun əsas gücü rəsmi qərarların qəbulundan daha çox, dialoq mühitinin yaradılması, tərəflərin bir araya gətirilməsi və qarşılıqlı anlaşmanın təşviq olunmasındadır. Qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə bu cür platformalar beynəlxalq sabitlik və əməkdaşlıq üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir.

## Forumun beynəlxalq təsir gücü

Azərbaycan üçün bu platforma xüsusilə mühüm xarakter daşıyır, çünki o, həm regional güc mərkəzləri ilə koordinasiya, həm də qlobal auditoriyaya birbaşa çıxış imkanı yaradır.

Azərbaycanın Antalya Diplomatiya Forumundakı iştirakının əsas strateji istiqamətlərindən biri Türkiyə ilə siyasi sinxronizasiyanın gücləndirilməsidir. Azərbaycan və Türkiyə strateji müttəfiqlik münasibətlərinə malik qardaş ölkələrdir. Forum bu əməkdaşlığı daha görünən edir və sistemli formaya salır. Burada formalaşan ortaq mesajlar regional məsələlərdə iki ölkənin vahid siyasi xətt kimi çıxış etməsinə şərait yaradır və bu, onların beynəlxalq təsir gücünü artırır.

Digər mühüm istiqamət postmünaqişə reallığının beynəlxalq ictimaiyyətə izah edilməsidir. Vətən müharibəsindəki qələbəmizlə regionda yaratdığımız yeni reallıqdan sonra Azərbaycanın əsas diplomatik vəzifələrindən biri yeni geosiyasi reallığı dünya ictimaiyyətinə qəbul etdirməkdir. Antalya Diplomatiya Forumu bu baxımdan effektiv platformadır, çünki burada həm Qərb, həm Şərq, həm də Cənub ölkələri eyni masada təmsil olunur. Bu isə Azərbaycanın mövqeyini daha geniş auditoriyaya çatdırmaq üçün əlverişli mühit yaradır.

Forum həmçinin qeyri-rəsmi diplomatiya və pərdəarxası əlaqələr üçün mühüm imkanlar təqdim edir. Müxtəlif ölkələrin yüksəksəviyyəli nümayəndələrinin eyni məkanda olması ikitərəfli və çoxtərəfli qeyri-formal görüşlərə imkan verir. Bu isə xüsusilə mürəkkəb regional məsələlərin müzakirəsində çevik diplomatik manevr imkanları yaradır. Azərbaycan bu platformadan istifadə edərək müxtəlif geosiyasi aktorlarla daha sıx əlaqələr qurmaq imkanı qazanır.

Enerji diplomatiyası baxımından da forumun xüsusi əhəmiyyəti vardır. Azərbaycan artıq Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkələrdəndir. Bu platforma vasitəsilə enerji təchizatı, "yaşıl enerji" layihələri və investisiya əməkdaşlığı mövzuları daha geniş beynəlxalq auditoriyaya çıxarılır. Bu isə Azərbaycanın enerji siyasətinin qlobal səviyyədə legitimliyini, cəlbediciliyini artırır.

Eyni zamanda Antalya Diplomatiya Forumu Azərbaycanın "yumşaq güc" potensialının gücləndirilməsi baxımından vacibdir. Beynəlxalq çıxışlar, panel müzakirələri və media interaksiyaları vasitəsilə ölkəmizin imici daha da yüksəlir və regional sabitliyi təmin edən ölkə mövqeyi güclənir. Bu, uzunmüddətli perspektivdə Azərbaycan üçün çox mühümdür.

## Cənubi Qafqazda güc balansının yeni modeli

Builki forumun açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və qardaş ölkənin xarici işlər naziri Hakan Fidan çıxış edərək həm regional, həm də qlobal gündəliyin əsas istiqamətlərini müəyyənləşdirdilər. Xüsusən Prezident Ərdoğanın çıxışı bir neçə mühüm geosiyasi xətti ön plana çıxardı. Onun Türkiyə-Ermənistan münasibətlərinin normallaşma prosesinin Azərbaycanla koordinasiyalı şəkildə aparıldığını vurğulaması regionda yeni siyasi reallığın artıq formalaşdığını göstərir. Bu, diplomatik jestdən daha çox, Cənubi Qafqazda güc balansının yeni model üzrə qurulmasının açıq mesajıdır.

Eyni zamanda Türk Dövlətləri Təşkilatının artan rolu və yaxın aylarda keçiriləcək Zirvə çərçivəsində sədrliyin Azərbaycandan Türkiyəyə keçməsi təşkilat daxilində institusional davamlığın, strateji koordinasiyanın gücləndiyini göstərir. Bu xəttin davamı kimi Türkiyə Prezidentinin xüsusi vurğuladığı Orta dəhliz təşəbbüsü artıq sadəcə nəqliyyat marşrutu deyil, Avrasiya məkanında geoiqtisadi rəqabətin əsas sütunlarından birinə çevrilməkdir. Azərbaycanın bu dəhlizdə mərkəzi rol oynaması isə ölkənin tranzit və logistika gücünün siyasi təsir alətinə çevirdiyini göstərir.

Antalyada keçirilən forum yalnız qlobal çağırışların müzakirə olunduğu platforma ilə məhdudlaşmadı - eyni zamanda yüksəksəviyyəli ikitərəfli və çoxtərəfli diplomatiyanın intensiv şəkildə həyata keçirildiyi məkana çevrildi. Bu mənada Azərbaycan Prezidenti İlham Əliyevin müxtəlif ölkələrin dövlət və hökumət başçıları ilə görüşləri ölkəmizin ayrı-ayrı coğrafiyalarda artan rolunun və çevik diplomatik xəttinin bariz göstəricisi kimi diqqəti çəkdi.

İlk növbədə Rəcəb Tayyib Ərdoğan ilə keçirilən görüş Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin dəyişməz və sistemli xarakter daşıdığını bir daha təsdiqlədi. Bu münasibətlər artıq regional təhlükəsizlik, enerji və nəqliyyat arxitekturasının əsas sütunlarından birinə çevrilib. Antalya görüşü isə bu xəttin davamlı koordinasiya üzərində qurulduğunu bir daha nümayiş etdirdi.

Forum çərçivəsində Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüş də xüsusi əhəmiyyət daşıyır. Azərbaycan-Pakistan münasibətləri uzun illərdir, qarşılıqlı siyasi dəstək və strateji yaxınlıq üzərində qurulub. Bu təmaslar göstərir ki, rəsmi Bakı yalnız region daxilində deyil, daha geniş geosiyasi arealda da öz tərəfdaşlıq şəbəkəsini möhkəmləndirməkdədir.

Avropa istiqamətində isə Moldova Prezidenti Maya Sandu ilə keçirilən görüş diqqətəlayiq məqamlarla yadda qaldı. Burada xüsusilə enerji əməkdaşlığı ön plana çıxdı. Moldovanın enerji təhlükəsizliyinin həssas olduğu bir dövrdə Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirilməsi ölkəmizin necə etibarlı enerji tərəfdaşı kimi qəbul edildiyini, Azərbaycanın Avropanın enerji xəritəsində rolunun genişləndiyini, siyasi təsir imkanlarının paralel şəkildə artdığını göstərir.

Türk dünyası kontekstində Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüş isə daha çox siyasi və simvolik məna daşıyır. Azərbaycanın Şimali Kipr Türk Cümhuriyyətinə davamlı dəstəyi, eyni zamanda bu qurumun Türk Dövlətləri Təşkilatı çərçivəsində müşahidəçi statusunun önə çəkilməsi türk dünyasında inteqrasiya proseslərinin dərinləşdiyini sərgiləyir. Bu, həm də Azərbaycanın bu coğrafiyada siyasi çəkisinin artmasının göstəricisidir.

Orta Şərq istiqamətində isə Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə keçirilən görüş xüsusi strateji çalarlar daşıyır. Suriyada baş verən dəyişikliklər fonunda Azərbaycanın bu ölkə ilə münasibətləri inkişaf etdirməyə başlaması yeni geosiyasi imkanların açıldığına dəlalət edir. Xüsusilə Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracı uzunmüddətli hərbi münaqişədən sonra özünün yeni həyatını qurmağa çalışan bu ölkənin inkişafına töhfədir. Bu, təkcə enerji layihəsi deyil, həm də regionda sabitliyin və iqtisadi bərpanın dəstəklənməsi baxımından mühüm təşəbbüsdür.

Bu görüşlərin hər biri ayrı-ayrılıqda əhəmiyyətlidir, birlikdə isə onlar daha böyük mənzərə yaradır: Azərbaycan çoxvektorlu, praqmatik və nəticəyönümlü xarici siyasət yürüdür. Rəsmi Bakı həm regional güc mərkəzləri ilə əlaqələri dərinləşdirir, həm də Avropa və Orta Şərq kimi müxtəlif istiqamətlərdə yeni əməkdaşlıq platformaları formalaşdırır.

Antalya Diplomatiya Forumu bu baxımdan həm də Azərbaycanın diplomatik fəaliyyətini real nəticələrə çevrilən strateji məkana yönləndirdi. Burada aparılan danışıqlar və verilən mesajlar göstərdi ki, Azərbaycan artıq qlobal proseslərin yalnız iştirakçısı deyil, eyni zamanda onların istiqamətini müəyyənləşdirən həlledici subyektlərdəndir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Problemlərin müzakirə olunduğu diplomatiya platforması

**Antalya Diplomatiya Forumu (ADF-2026) müasir beynəlxalq münasibətlər sistemində Türkiyənin təkcə regional güc deyil, həm də qlobal səviyyədə intellektual və diplomatik cazibə mərkəzi olduğunu təsdiqləyən ən mühüm platformadır. "Gələcəyi planlaşdırarkən problemlərin öhdəsindən gəlmək" mövzusunda təşkil olunan budəfəki forum beynəlxalq nizamın ciddi sınaqlardan keçdiyi, ənənəvi təhlükəsizlik arxitekturasının sarsıldığı bir dövrdə xüsusi əhəmiyyət kəsb etdi. Forumun əhəmiyyətini şərtləndirən əsas amil onun inklüziv dialoq mühiti yaratmasıdır.**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, Davos İqtisadi Forumu və ya Münxen Təhlükəsizlik Konfransından fərqli olaraq, ADF həm Qərb dünyasının, həm də "Qlobal Cənub" adlanan inkişaf etməkdə olan ölkələrin səsinin eyni səviyyədə eşidilməsinə imkan verir. Bu, Türkiyənin "Dünya beşdən böyükdür" fəlsəfəsinin diplomatik müstəvidə tətbiqidir. Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi altında keçirilən bu tədbir, böhranların həllində vasitəçilik potensialını nümayiş etdirmək üçün unikal meydandır.

K.Bayramov qeyd edib ki, forumun mühüm xüsusiyyətlərindən biri onun effektiv "Yumşaq Güc" aləti olmasıdır: "Türkiyə bu platforma vasitəsilə beynəlxalq gündəmi sadəcə izləyən deyil, həm də formalaşdıran tərəf kimi çıxış edir. 2026-cı ilin mövzusu göstərdi ki, diplomatiya artıq yalnız müharibələrin dayandırılması deyil, həm də süni intellekt, iqlim dəyişikliyi, kiber təhlükəsizlik və enerji logistikası kimi yeni nəsil çağırışlara qarşı kollektiv müqavimətin təşkilidir. Bu baxımdan, Antalya bir neçə günlüyə dünyanın "diplomatik laboratoriyasına" çevrilərək gələcəyin idarəetmə modellərinin müzakirə edildiyi məkana çevrildi".

İlk dəfə 2021-ci ildə beynəlxalq dialoqa töhfə vermək məqsədilə təsis edilən Antalya Diplomatiya Forumunun bu il aprelin 17-də öz qapılarını növbəti dəfə dünya liderlərinə və diplomatlara açdığını xatırladan deputat deyib ki, indiki toplantı həm iştirakçı miqyası, həm də müzakirə edilən mövzuların aktuallığı ilə fərqləndi. Forumda 150-dən çox ölkəni təmsil edən təxminən 5000 qonaq iştirak etdi. Onların arasında 20-dən çox dövlət və hökumət başçısı, 15-ə yaxın yüksəkrütbəli rəsmi müavin və 40-dan çoxu xarici işlər naziri olmaqla 50-dən çox nazir yer aldı. Beynəlxalq təşkilatların 75 nümayəndəsinin, tanınmış akademiklərin və tələbələrin iştirakı forumun intellektual və siyasi nüfuzunu daha da artırdı. Dövlət başçılarının əksəriyyəti Afrika və Avropa ölkələrindən gəldiyi halda, xarici işlər nazirləri səviyyəsində Afrika, Avropa və Asiya qitələri geniş təmsil olundu. Forumun gündəliyi olduqca zəngin idi, tədbir boyu sessiyalar və müxtəlif panellər keçirildi. Bu sessiyalarda müasir dünyada dərinləşən qeyri-müəyyənliklər, qlobal sistemdəki transformasiya prosesləri və regional inkişaf perspektivləri diqqət mərkəzində oldu.

Deputat bildirib ki, "ADF-2026" sadəcə nəzəri müzakirələr platforması deyil, həm də mühüm diplomatik görüşlərin mərkəzidir: "Azərbaycan üçün ADF-nin əhəmiyyəti isə misilsizdir. Bu forum Azərbaycanın həm regional liderliyini, həm də Türkiyə ilə strateji müttəfiqliyini dünyaya nümayiş etdirmək üçün ən effektiv beynəlxalq kürsüdür. Bakının həm Avropanın enerji təhlükəsizliyindəki rolu, həm də Orta dəhlizin reallaşmasındakı mərkəzi mövqeyi məhz Antalyada qlobal oyunçuların diqqətinə çatdırılır".

K.Bayramov vurğulayıb ki, Antalya Diplomatiya Forumu müasir dövrün ən qlobal və mürəkkəb problemlərinin müzakirə edildiyi mühüm bir platforma olaraq, Cənubi Qafqazda formalaşan yeni reallıqların dünya ictimaiyyətinə çatdırılması baxımından əvəzsiz rola malikdir. Bu forumda müzakirə edilən "Gələcəyi planlaşdırarkən problemlərin öhdəsindən gəlmək" konsepti Azərbaycanın regionda həyata keçirdiyi strateji addımlarla tam şəkildə üst-üstə düşür. Belə ki, regionda gələcək rifahın və təhlükəsizliyin təmin edilməsi iki əsas sütun üzərində qurulur: diplomatik sülh və iqtisadi inteqrasiya. Zəngəzur dəhlizinin açılması və regionda dayanıqlı sülhün bərqərar olması məsələsi bir-birini şərtləndirən, lakin strateji baxımdan fərqli mərhələləri əhatə edən iki mühüm amildir. Bu mövzuya Azərbaycanın milli maraqları və beynəlxalq münasibətlər kontekstində yanaşdıqda, onların bir ssenarinin daxilində necə vəhdət təşkil etdiyini aydın görmək olar. "Regionda dayanıqlı sülhün təmin olunması Azərbaycan üçün fundamental bir təməldir. Sülh sadəcə hərbi əməliyyatların dayandırılması deyil, həm də regionun yeni geosiyasi reallıqlarının bütün tərəflər və beynəlxalq oyunçular tərəfindən hüquqi müstəvidə qəbul edilməsidir. Sülh müqaviləsi imzalandığı təqdirdə Azərbaycanın əldə etdiyi tarixi zəfər diplomatik möhürlə möhkəmlənir və ölkəmiz uzunmüddətli inkişaf strategiyasına tam fokuslana bilir. Dayanıqlı sülh mühiti həm də xarici investorlar üçün ən böyük zəmanətdir; çünki siyasi sabitliyin olmadığı yerdə iqtisadi layihələrin davamlılığı həmişə sual altında qalır", - deyə o bildirib.

K.Bayramov əlavə edib ki, Antalya Diplomatiya Forumu sadəcə görüşlər silsiləsi deyil, bəşəriyyətin üzləşdiyi çoxşaxəli böhranlardan çıxış yolu axtaran "ortaq ağıl" platformasıdır. Türkiyənin evsahibliyi etdiyi bu tədbir, diplomatiyanın hələ də ən təsirli alət olduğunu və dialoq vasitəsilə ən mürəkkəb düyünlərin belə açıla biləcəyini bütün dünyaya sübut edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***



# Prezidentin mesajları: sülh, əməkdaşlıq və qlobal inteqrasiya

## Azərbaycan geosiyasi cazibə mərkəzi, dayanıqlı inkişafın və təhlükəsizliyin memarıdır

**Ölkəmizin qazandığı tarixi Zəfər Cənubi Qafqazın geosiyasi mənzərəsini kökündən dəyişməklə yanaşı, Avrasiya məkanında yeni əməkdaşlıq formatlarının yaranmasına rəvac verib. Bu gün Azərbaycan beynəlxalq münasibətlər sistemində, sadəcə, regional güc mərkəzi yox, qlobal gündəliyi müəyyənləşdirən strateji dövlət kimi çıxış edir. Prezident İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının iştirakçılarına ünvanladığı müraciət yeni reallıqların beynəlxalq müstəvidə rəsmi bəyanatı və gələcəyə baxış konsepsiyasıdır. Dövlətimizin başçısının müraciəti Azərbaycanın sülhə, dayanıqlı inkişafa və qlobal inteqrasiyaya sadiqliyini təsdiq edən mühüm siyasi sənəddir.**

Müraciətdə Azərbaycanın sülhə verdiyi töhfələrə, beynəlxalq nüfuzuna və dayanıqlı inkişafına dair mühüm məqamlara diqqət yönəldilib: "BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası, dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan, BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Biz, xüsusən də, multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda, bu mühüm işə töhfə verməkdən məmnunuq".

Dövlətimizin başçısının müraciətində vurğulanan məqamlar regional və qlobal səviyyədə ciddi mesajlar ehtiva edir. Bu müraciət ölkəmizin qitələrarası iqtisadi-siyasi arxitekturanın qurulmasında nə dərəcədə fəal rol aldığını göstərir. Dövlətimizin başçısının Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasını "ən geniş və təsirli regional platforma" kimi xarakterizə etməsi təsadüfi deyil. Asiya və Sakit okean hövzəsi hazırda dünya iqtisadiyyatının lokomotivi sayılır. Azərbaycanın bu platformada xüsusi aktivliyi ölkəmizin Avropa ilə yanaşı, Şərqin nəhəng bazarları ilə iqtisadi körpü yaratmaq istəyinin də göstəricisidir. Dünyada ikili standartların və birtərəfli qərarların artdığı bir vaxtda Azərbaycanın çoxşaxəli əməkdaşlığa sadiqliyi ölkəmizin beynəlxalq hüquqa əsaslanan balanslı xarici siyasət yürütdüyünü nümayiş etdirir.

Prezidentin "artan qlobal qeyri-müəyyənlik" ifadəsi bugünkü dünya nizamının real mənzərəsidir. Dövlətimizin başçısı açıq şəkildə bildirir ki, hərbi münaqişələr və geosiyasi gərginlik siyasi sabitliklə paralel, onilliklər boyu zəhmətlə qurulmuş iqtisadi inkişafı da məhv edə bilər: "Görüşümüz artan qlobal qeyri-müəyyənlik dövründə baş tutur. Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr, beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda, Azərbaycan, dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır".

Azərbaycan liderinin xüsusi yanaşdığı vacib məqamlardan biri dövlətlərin suverenliyi və ərazi bütövlüyü məsələsidir. Ölkəmiz 30 illik işğaldan sonra öz ərazi bütövlüyünü bərpa etmiş bir dövlət kimi bu prinsipi beynəlxalq münasibətlərin "qırmızı xətti" hesab edir. Azərbaycan özünü dünyaya təhlükəsizlik arxitekturasının qoruyucusu və regional inteqrasiyanın əsas güclərindən biri kimi təqdim edir. Bununla, Bakı qlobal xaosun içində ən etibarlı tərəfdaş və beynəlxalq hüquq tərəfdarı imicini daha da möhkəmləndirir.

Müraciətdə diqqət çəkilən önəmli məqamlardan biri də sülhün kağız üzərində qalmadığının, gündəlik həyatın reallığına çevrildiyinin bir daha vurğulanmasıdır. Ermənistanın işğalçı siyasəti ucbatından onilliklər boyu bağlı olan sərhədlərin ticarət üçün açılması regionun iqtisadi konfiqurasiyasını tamamilə dəyişir. Bu, Ermənistanın Azərbaycanın iqtisadi resurslarından və bazarlarından faydalanmağa başladığının rəsmi etirafıdır. Bakının İrəvan üçün tranzit çıxışı yaratması Azərbaycanın regionda əməkdaşlığı stimullaşdıran birləşdirici güc olmasından xəbər verir. 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilən tarixi görüşlər, ABŞ-nin prosesdə iştirakı Azərbaycanın sülh modelinin dünya nəhəngləri tərəfindən qəbul edildiyini sübuta yetirir.

Ölkəmizin rəhbərinin vurğuladığı kimi, 2021-ci ildən bu yana suverenliyin tam bərpası və sülhün iqtisadi mərhələyə keçməsi inanılmaz hadisələrdir. Prezidentimiz sülhün bəhrəsinin şahidi olduğumuzu bəyan edib: "Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətləri başlamışdır və hazırda, Azərbaycan Ermənistan üçün tranzit çıxışına şərait yaradır. Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulmasına töhfə verir". Dövlətimizin başçısının vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini xüsusi qeyd etməsi sülhün xalqlar səviyyəsində dərinləşdiyinə işarədir. Əvvəllər Ermənistanla münasibətlər təhlükəsizlik prizmasından müzakirə olunurdusa, artıq tranzit, ticarət və qarşılıqlı səfərlər kontekstində danışılır. Nəticədə regionun Qlobal Cənub və Şərq-Qərb dəhlizlərindəki rolu daha da artır. Bu məqam beynəlxalq sosial platformalar üçün çox vacibdir, çünki sosial inteqrasiya olmadan iqtisadi inkişaf dayanıqlı ola bilməz.

Prezident İlham Əliyev "Böyük qayıdış"dan da bəhs edib və vurğulayıb ki, Azərbaycan işğal zamanı tam dağıdılmış və azad edilmiş ərazilərdə unikal və genişmiqyaslı yenidənqurma layihələrini həyata keçirir: "Böyük qayıdış proqramı uğurla icra olunur. 80000-dən artıq insan öz həyatını yenidən qurmaq, doğma yurdlarına qovuşmaq, təhsil almaq və işləmək məqsədilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıtmışlar". Nəzərə alaq ki, işğaldan azad edilmiş torpaqlarımız bəzi dövlətlərin ərazisindən daha böyükdür. Qısa müddətdə 80 min insanın öz yurdlarına qayıdışı regionun demoqrafik və iqtisadi mənzərəsinin tamamilə dəyişməsi deməkdir.

Azərbaycanın postmünaqişə dövründə qarşılaşdığı ən böyük problemlərdən biri işğaldan azad edilmiş ərazilərdəki mina təhlükəsidir. Prezident İlham Əliyev müraciətində mina terrorunu növbəti dəfə dünya ictimaiyyətinin gündəminə çıxarıb və bildirib ki, minalar humanitar və inkişaf sahələrində ciddi təhdid olaraq qalır: "Asiya və Sakit okean üzrə komissiyanın əhatə dairəsində olan bir sıra ölkələrdə də mövcud olan mina problemi bu sahədə geniş beynəlxalq əməkdaşlığı zəruri edir. 2020-ci ildə münaqişə başa çatdıqdan sonra, 400-dən artıq azərbaycanlı mülki şəxs mina partlayışları nəticəsində həyatını itirmiş və ya yaralanmışlar".

2020-ci ildən bu yana mina terroru nəticəsində 400-dən çox insanın həyatını itirməsi və ya yaralanması o deməkdir ki, Ermənistanın basdırdığı minalar müharibə bitsə də, can almağa davam edən "səssiz qatillər"dir. Minalar insanların həyatına ciddi təhdid olmaqla bərabər, kənd təsərrüfatına, tikintiyə və investisiya axınına böyük maneçilik törədən görünməz səddir. Bakı mina təhlükəsini qlobal müstəviyə daşıyaraq, bu sahədə beynəlxalq koalisiya qurmağın vacibliyini vurğulayır. Düzdür, Azərbaycan öz gücünə möcüzələr yaradır, lakin beynəlxalq birlik də mina terroruna səssiz qalmamalıdır.

Azərbaycan Prezidenti ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da artdığını, qlobal daşımalarda önəmli nəqliyyat mərkəzinə çevrildiyini xüsusi vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan əsas daşımalar qovşağı kimi öz rolunu gücləndirir: "Cari geosiyasi mühitdə, Orta dəhlizin əhəmiyyəti artır. Zəngəzur dəhlizi Asiyanı Avropa ilə birləşdirərək, Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyanın prioritetləri ilə tam uyğun şəkildə daha geniş nəqliyyat, enerji və rəqəmsal şəbəkələrə töhfə verərək, regional bağlantıları daha da artıracaq. Azərbaycan sabit və şaxələndirilmiş enerji təchizatına töhfə verərək, müxtəlif bölgələrdə enerji təhlükəsizliyinin təminatçısı kimi öz etibarlı rolunu oynamaqda davam edir".

Ölkəmiz gələcəyin logistik xəritəsinin formalaşmasında çox önəmli mövqeyə malikdir. Burada söhbət adi nəqliyyat yollarından yox, qlobal güc balansını dəyişən strateji dəhlizlərdən gedir. Şərqlə Qərbin ən qısa "nəfəsliy"i sayılan Orta dəhliz beynəlxalq daşımalarda alternativ olmaqdan çıxaraq birbaşa zərurət halına gəlib. Ölkəmiz bu dəhlizin əsas bağlayıcı halqası kimi çıxış edərək, Çindən Avropaya yük daşımalarının müddətini əhəmiyyətli dərəcədə azaldır. Ona görə də bu dəhlizin inkişafı Azərbaycanı dünyanın təchizat zəncirində əvəzedilməz oyunçuya çevirir. Prezidentin Zəngəzur dəhlizi haqqında fikirləri bu layihənin Azərbaycan-Ermənistan arasında bir yol olmaqdan daha çox qlobal əhəmiyyətli bağlantı kimi vurğu edir. Zəngəzur dəhlizi enerji xətləri və rəqəmsal şəbəkələr üçün də yeni kanal olacaq.

Azərbaycanın enerji siyasəti neft-qaz ixracı ilə məhdudlaşmır, ölkəmiz Avropanın və regionun enerji təhlükəsizliyinin memarı kimi çıxış edir. Dövlətimizi etibarlı tərəfdaşa çevirən ən mühüm məqam odur ki, Azərbaycan öz öhdəliklərini tam yerinə yetirir və heç vaxt enerji ehtiyatlarından siyasi təzyiq aləti kimi istifadə etmir. Dəfələrlə vurğulandığı kimi, Azərbaycan əlverişli coğrafi mövqeyə malik olsa da, bu coğrafiyanın qlobal mərkəzə çevrilməsinin səbəbi doğru yürüdülən infrastruktur siyasətidir.

Beləliklə, dövlətimizin başçısının müraciəti Azərbaycanın postmünaqişə dövründəki strateji hədəflərinin aydın mənzərəsini cızır. Prezidentin toxunduğu hər məqam Azərbaycanın təkcə öz maraqlarını deyil, bütövlükdə regionun və dünyanın iqtisadi təhlükəsizliyini düşündüyünü sübut edir. Bu gün Azərbaycan öz coğrafi taleyini uzaqgörən siyasətlə birləşdirərək, Asiya və Avropa arasında etibarlılıq və inkişaf mərkəzi kimi öz imzasını möhkəmləndirir. Bu müraciət bir daha təsdiqləyir ki, Azərbaycanın iştirakı olmadan regionda və geniş Avrasiya məkanında heç bir strateji layihə uğur qazana bilməz.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Zəfərimizin Qazax mərhələsi

## İki il əvvəl Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin qaytarılması barədə razılığın əldə edilməsi Azərbaycanın siyasi-diplomatik qələbəsi oldu




**Azərbaycanın Vətən müharibəsində torpaqlarını hərbi yolla azad etməsi çoxəsrlik dövlətçilik tarixində şanlı salnamədir. Bir güllə atılmadan, itki vermədən strateji ərazilərin geri qaytarılması isə Prezident İlham Əliyevin siyasi iradəsinin və zərgər dəqiqliyi ilə hesablanmış diplomatiyasının parlaq qələbəsidir.**

10 noyabr üçtərəfli Bəyanatına əsasən 2020-ci il noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın azad edildi. Eləcə də 2024-cü ildə Qazaxın dörd kəndinin qeyd-şərtsiz qaytarılması milli yaddaşımıza "dəmir yumruğ"un həm də masada diktə etdiyi ədalətin təsdiqi kimi həkk olundu. Belə ki, həmin il aprelin 19-da Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərinin Azərbaycana qaytarılması barədə Ermənistanla razılıq əldə edildi. Mayın 24-də isə bu proses uğurla başa çatdırıldı.

### Tələb və qətiyyət

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi uzaqgörən siyasət xalqımıza Şuşa zəfərini bəxş etdi. Azərbaycanın 10 noyabr üçtərəfli Bəyanatında nəzərdə tutulmuş yeni Laçın avtomobil yolunu vaxtından xeyli əvvəl istifadəyə verməsi ilə 26 avqust 2022-ci ildə Laçın şəhəri, Zabux və Sus kəndləri düşmən tərəfindən boşaldıldı. 2023-cü ildə cəmi 23 saata həyata keçirilən antiterror tədbirləri nəticəsində suverenliyimiz, dövlətimizin konstitusion əsasları da tam təmin edildi. İkiəsrlik erməni cəfəngiyyatına son qoyuldu, tarixi torpaqlarımıza göz dikərək milli nifrət zəminində xalqımıza qarşı qanlı əməllər törədən erməni faşistlərinə, onların xaricdəki havadarlarına unutmayacaqları dərs verildi.

Qarabağda separatizmin kökünün kəsilməsi ilə Rusiya sülhməramlılarının fəaliyyətinə də bölgədə ehtiyac qalmadı. Beləliklə, vaxtından əvvəl Rusiya sülhməramlı kontingenti Azərbaycan ərazilərini tərk etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müəyyənləşdirdiyi növbəti əsas prioritet işğal altında qalan bütün torpaqlarımızın, o cümlədən Qazaxın qeyri-anklav kəndlərinin qeyd-şərtiz azad edilməsi idi. Prezident hələ 2020-ci ildə bu məsələni ən yüksək səviyyədə qaldırmış, 2024-cü il yanvarın 10-da yerli televiziyalara müsahibəsində isə konkret mövqeyini dünyaya bəyan etmişdi: "O kəndlər ki, anklav kəndlərdir, - çünki Ermənistanın bir anklav kəndi Azərbaycan ərazisindədir, - həmin kəndlərlə əlaqədar ayrıca bir ekspert qrupu yaradılmalıdır və o, müzakirə edilməlidir. Biz hesab edirik ki, bütün anklavlar qaytarılmalıdır. Bu anklavlara gedən yollarda şərait olmalıdır və bu anklavlara orada yaşayan insanlar yerləşdirilməlidir".

Bu bəyanat istək deyildi, qalib tərəfin qətiyyətli tələbi idi. Həm də Azərbaycan dövlətinin tələbi beynəlxalq hüquqa və milli gücə söykənirdi.

Beləliklə, Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın 2024-cü il aprelin 19-da keçirilən səkkizinci görüşündə Qazaxın dörd kəndinin - Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılının Azərbaycana qaytarılması barədə razılıq əldə edildi.

Onu da vurğulayaq ki, əldə olunmuş razılıq delimitasiya istiqamətində atılan ilk addım idi və delimitasiyanın məhz bu istiqamətdən başlaması Azərbaycanın təkidi ilə olub. Tərəflər razılaşıblar ki, delimitasiya prosesində 1991-ci il Alma-Ata Bəyannaməsinə əsaslanacaqlar. Həyata keçirilən delimitasiya işləri nəticəsində 12,7 km uzunluğunda sərhəd xətti müəyyən edilib və bununla Qazax rayonunun adıçəkilən kəndlərinin Azərbaycana qaytarılması təmin edilib.

### 34 illik qisas alındı

Qazaxın bu kəndlərinin öz əzəli sahiblərinə qaytarılması həm də mənəvi bir borcun ödənilməsi anlamına gəlirdi. 1990-cı ilin martında erməni faşizminin ilk qanlı cinayətlərindən birinin qurbanı Bağanıs Ayrım kəndi olmuşdu. Martın 23-dən 24-nə keçən gecə 400-dən çox əhalinin yaşadığı bu kəndə hücuma keçən erməni faşistləri 17 evi yandırmış, kənd sakinlərini qətlə yetirmişdi.

Bağanıs Ayrım kəndinin sakini Ramiz Adıgözəlov bildirib ki, 1990-cı il martın 23-dən 24-nə keçən gecə 39 günlük körpəsi ermənilər tərəfindən qətlə yetirilib. O söyləyib ki, xeyli sayda Ermənistan hərbçisi gəlmişdi. Əvvəlcə qadınlar evləri talan edirdilər, sonra da kişilər evləri yandırırdılar. Zərəçəkən həmin gün 6 kənd sakininin və bir milis işçisinin yandırılaraq qətlə yetirildiyini qeyd edib.

Bağanıs Ayrım faciəsindən sonra 1992-ci il martın 8-də Xeyrımlı, mayın 11-də Qızılhacılı, iyunun 4-də Aşağı Əskipara kəndləri işğala məruz qalmışdı.

Körpələrin, günahsız insanların yandırılaraq qətlə yetirildiyi Bağanıs Ayrım qətliamının qisası həm döyüş meydanında, həm də diplomatik masada alındı.

Şəhidlərin ruhu o torpaqlarda dalğalanan üçrəngli bayrağımızın kölgəsində rahatlıq tapdı.

Milli qalibiyyətlərimiz sayəsində həmin kəndlərin sakinlərinin də onilliklərdir çəkdikləri vətən həsrəti birdəfəlik sona yetdi.

### "Burada söz sahibi bizik"

"Bu gün təkcə bizim tələbimizlə heç bir başqa, necə deyərlər, vasitəyə əl atmadan Qazaxın dörd kəndi bizə qaytarılır. Bir tələbimlə qaytarılır, bax belə də olmalıdır.

Bundan sonra belə də olacaq. Burada söz sahibi bizik, Qafqazda aparıcı dövlət bizik, iqtisadi, siyasi, hərbi, hər cəhətdən aparıcı dövlət bizik, bizimlə hər kəs hesablaşmalıdır. Həm Ermənistan, həm onun arxasında duran, onlara yalançı vədlər verən xarici dairələr bizimlə hesablaşmasalar peşman olacaqlar", - deyə qalib lider İlham Əliyevin 10 may 2024-cü ildə Şuşada səsləndirdiyi fikirlər həm də Cənubi Qafqazda tamamilə yeni bir dövrün başladığı reallığı özündə əks etdirirdi. Azərbaycanın regionun lider dövləti olduğunu göstərirdi.

Qazaxın 4 kəndinin azad edilməsi ölkəmizin siyasi tarixində əlamətdar hadisədir. Bu, nəyi, nə vaxt və necə edəcəyini yaxşı bilən, xalqımızı başıuca, qalib edən Prezident İlham Əliyevin milli maraqlarımızı qətiyyətlə təmin etməsinin daha bir parlaq təzahürüdür. Əldə olunan bu qələbə, "dəmir yumruğ"un hərbi güc olmaqla yanaşı, həm də sarsılmaz ədalət simvolu olduğunu bütün dünyaya göstərdi.

İndi işğaldan azad edilən yurdlarımızda olduğu kimi, Bağanıs Ayrımda, Aşağı Əskiparada, Xeyrımlıda və Qızılhacılıda da dirçəliş ab-havası yaşanır.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Ermənistanda seçkilər daha gərgin fazaya daxil olur

## Müxalifətin vahid strategiyasının olmaması hakim partiyanın seçkilərdə qələbə şansını artırır

**Ermənistanda parlament seçkiləri ərəfəsində siyasi vəziyyət getdikcə daha mürəkkəb və ziddiyyətli xarakter alır. Formal olaraq müxalif qüvvələr hakimiyyət başında olan baş nazir Nikol Paşinyanın ünvanına yönəlmiş tənqidlərdə ortaq mövqe nümayiş etdirirlər. Lakin bu zahiri birlik arxasında parçalanma da müşahidə olunur.**



Müxalif düşərgə daxilində vahid strategiya olmadığını deyən Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, Samvel Karapetyan ilə Robert Koçaryan kimi əsas fiqurlar arasında rəqabət bu parçalanmanı daha da dərinləşdirir. Müxalifət etiraz ritorikasını ölkənin inkişafına dair aydın və sistemli alternativ proqrama çevirə bilmir. "Bu isə o deməkdir ki, seçicilərə müxtəlif strategiyalar arasında seçim deyil, daha çox bir-biri ilə rəqabət aparan, lakin ümumi məqsəddən məhrum tənqidi yanaşmalar təqdim olunur. Siyasi sistemin böyük ölçüdə fərdiləşdiyi şəraitdə vahid liderin və qərarvermə mərkəzinin olmaması müxalifətin seçki şanslarını obyektiv şəkildə azaldır. Vəziyyəti ağırlaşdıran digər amil ideoloji qeyri-müəyyənlikdir. Ermənistan cəmiyyəti dəyişmiş regional reallıqlar fonunda yeni inkişaf modelinin axtarışındadır. Lakin müxalif qüvvələrin əhəmiyyətli hissəsi hələ də keçmişə yönəlmiş ritorikaya söykənir ki, bu da onların praktik və real həllər təklif etmək imkanlarını məhdudlaşdırır. Nəticədə cəmiyyətin sabitlik və proqnozlaşdırıla bilənlik tələbi ilə müxalifətin təqdim etdiyi siyasi məzmun arasında uyğunsuzluq yaranır", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Ermənistanın daxili siyasi dinamikası birbaşa xarici amillərlə, ilk növbədə Azərbaycan ilə münasibətlərlə bağlıdır. Regionda formalaşmış yeni reallıqlar fonunda sülh gündəliyi, sərhədlərin hüquqi əsasda müəyyənləşdirilməsi və nəqliyyat əlaqələrinin açılması uzunmüddətli sabitliyin əsas elementlərinə çevrilib. Bakının yanaşması, Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə irəli sürülən mövqe, qarşılıqlı şəkildə ərazi bütövlüyünün tanınması və ərazi iddialarından imtina prinsiplərinə əsaslanır.

Sevinc Fətəliyevanın sözlərinə görə, Azərbaycan üçün prinsipial məqam Ermənistandakı siyasi proseslərin formalaşmış reallıqların yenidən nəzərdən keçirilməsinə gətirib çıxarmasından ibarətdir. Bu baxımdan qarşıdan gələn seçkilər yalnız daxili siyasi mərhələ deyil, həm də regional inkişafın gələcək trayektoriyasına təsir edə biləcək amil kimi qiymətləndirilir. Revanşist ritorikaya meyilli qüvvələrin güclənməsi Azərbaycanla Ermənistan arasında normallaşma prosesini ləngidə bilər, praqmatik yanaşma isə davamlı sülh və iqtisadi əməkdaşlıq üçün yeni imkanlar yaradır. Bu kontekstdə kommunikasiya xətlərinin açılması məsələsi xüsusi əhəmiyyət daşıyır. Zəngəzur istiqaməti də daxil olmaqla, nəqliyyat marşrutlarının inkişafı Cənubi Qafqazı qlobal logistika zəncirlərinə inteqrasiya edə biləcək daha geniş regional arxitekturanın tərkib hissəsi kimi qiymətləndirilir. Lakin bu layihələrin reallaşması birbaşa İrəvanın siyasi iradəsindən asılıdır və bu iradə daxili siyasi rəqabətin təsiri altında formalaşır.

Deputat vurğulayıb ki, Ermənistanda qarşıdan gələn seçkilər, sadəcə, hakimiyyət uğrunda mübarizə deyil, strateji istiqamət seçimi kimi çıxış edir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***



# Bütün vədlərini layiqincə doğruldan Lider

**Azərbaycanın müasir dövlətçilik salnaməsi xalqa verilən vədlərin tam və qətiyyətlə yerinə yetirilməsinin parlaq nümunələri ilə zəngindir. Ölkəmizin keçdiyi inkişaf yolu, sadəcə, iqtisadi və siyasi islahatlarla deyil, həm də dövlət rəhbərinin öz xalqı qarşısında götürdüyü öhdəlikləri reallığa çevirmək bacarığı ilə xarakterizə olunur. Prezident İlham Əliyevin fəaliyyətinin ana xəttini təşkil edən "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" fəlsəfəsi Azərbaycanı qlobal arenada söz sahibi olan qalib və nüfuzlu dövlətə çevirib.**

Bu gün qürurla deyə bilərik ki, dövlətimizin başçısının illər öncə bəyan etdiyi strateji hədəflərin hər biri artıq tamamlanmış reallıqdır. Hələ rəhbərliyinin ilk illərindən hər bir azərbaycanlının Prezidenti olacağını və Azərbaycanın ərazi bütövlüyünün heç bir halda güzəşt mövzusu olmayacağını vurğulayan cənab İlham Əliyev bu vədlərini 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri ilə tam və qəti şəkildə reallaşdırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən siyasət nəticəsində Azərbaycan həm iqtisadi müstəqilliyini möhkəmləndirdi, həm də müasir ordu quruculuğu prosesini zirvəyə daşıdı. Hər bir seçkidə Azərbaycan vətəndaşlarının öz rəhbərinə yüksək etimad göstərməsindən sonra baş verən möhtəşəm tarixi hadisələr xalqın öz seçimində tamamilə haqlı olduğunu göstərdi. Ona görə xalqımız dövlətimizin başçısını sözlərini əməli ilə təsdiqləyən, fəaliyyətini tamamilə Azərbaycanın güclənməsinə, əhalinin rifahına, ölkəmizin beynəlxalq nüfuzunun artırılmasına həsr edən lider kimi qəbul edir.

2018-ci il aprelin 18-də Prezident İlham Əliyevin Milli Məclisdə keçirilən andiçmə mərasimindəki nitqi də ölkəmizin daxili-xarici siyasəti üçün strateji yol xəritəsi xarakteri daşıyırdı. Dövlətimizin başçısı çıxışında 2003-cü ildə verdiyi vədə sadiqliyini və Heydər Əliyev yolunun davamlılığını vurğulayırdı: "Mən 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Şadam ki, mən sözümə sadiq qaldım".

Torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyü məsələsi Prezidentin çıxışının ən kəskin və qətiyyətli bölmələrindən idi. Dövlətimizin başçısı Azərbaycanın işğalla heç vaxt barışmayacağını bəyan edirdi: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, öz torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir". Cənab Prezidentin "Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik. Bunun üçün biz daha da güclü olmalıyıq" vədi bu çıxışdan cəmi iki il sonra reallaşdı.

Dövlət başçısı iqtisadi asılılığın olmamasını siyasi müstəqilliyin əsası kimi dəyərləndirir və bildirirdi ki, iqtisadi müstəqillik bizim siyasi müstəqilliyimizin təməlidir. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, biz bu qədər cəsarətli müstəqil siyasət apara bilməzdik.

Ümumiyyətlə, 2003-2018-ci illər ölkəmizdə sabitliyin qorunduğu və iqtisadi islahatların dərinləşdiyi bir dövr kimi yadda qaldı. Bu müddətdə Azərbaycan enerji idxal edən ölkədən ixracatçı dövlətə çevrildi, nəhəng infrastruktur layihələri icra edildi, sahibkarlara milyardlarla manat güzəştli kreditlər ayrıldı. Regionların inkişafı, kənd təsərrüfatının modernləşdirilməsi və sosial rifahın yüksəlməsi cənab İlham Əliyevin seçkilərdəki uğurunun əsasını təşkil edirdi. Azərbaycanın iştirakçısı olduğu TANAP və "Cənub qaz dəhlizi" kimi transmilli layihələr ölkəmizi Avropanın əsas enerji tərəfdaşına çevirdi. Bütün bu iqtisadi və siyasi uğurların ali məqsədi isə torpaqlarımızın işğaldan azad olunması idi.

Prezident seçkilərindən cəmi bir ay sonra, Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndi istiqamətində həyata keçirilən uğurlu əməliyyat Azərbaycan hərb tarixinə qızıl hərflərlə yazıldı. Bu əməliyyat Azərbaycan Ordusunun hərbi qüdrətini və strateji üstünlüyünü nümayiş etdirən mühüm bir hadisə oldu. Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi bu taktiki fəaliyyət nəticəsində 1992-ci ildən bəri düşmən tapdağında olan Günnüt kəndi işğaldan azad edildi, strateji əhəmiyyətli yüksəkliklər ordumuzun tam nəzarətinə keçdi. Günnüt əməliyyatı sübut etdi ki, 2018-ci ilin aprelində Azərbaycan xalqı təkcə daxili sabitliyə deyil, həm də işğal altındakı torpaqlarımızın azad edilməsi qətiyyətinə səs vermişdi. Bu əməliyyat böyük qələbənin, 44 günlük Vətən müharibəsinin anonsu və Müzəffər Ali Baş Komandanın verdiyi vədlərin real əks-sədası idi.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Ermənistanın işğalçı siyasətinə son qoyuldu və düşmən diz çökdürüldü. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə Azərbaycanın müasir tarixində dövlət suverenliyinin tam bərpası ilə nəticələnən həlledici nöqtə oldu. Bu əməliyyatla Azərbaycanın ərazisində separatçılığa son qoyuldu və dövlət suverenliyi bütün ölkə miqyasında təmin edildi. Bu, son ikiyüzillik tariximizdə qazanılmış ən böyük strateji qələbədir.

Prezident İlham Əliyev Xankəndi şəhərində bayrağımızı ucaltmaqla prezidentlik fəaliyyətinin ən mühüm vədini tam yerinə yetirmiş oldu. Antiterror tədbirləri Cənubi Qafqazda yeni reallıqlar yaratdı və regionun sülh dövrünə keçidi üçün maneələri aradan qaldırdı. 2018-ci il aprelin 18-də verilən vədlər bu gün Qarabağın yenidən qurulan şəhərlərində öz real əksini tapmaqdadır. Artıq Azərbaycan üçün "münaqişə" və "işğal" sözləri keçmişdə qalıb. Xalqımız öz rəhbərinin ətrafında hər zaman sıx səfərbərdir. Qarşıda isə bizi qüdrətli və regionun mütləq lideri olan bir dövlətin növbəti parlaq uğurları gözləyir.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Etibarlı dostlar, strateji tərəfdaşlar

## Azərbaycandan Serbiyaya uzanan dostluq körpüsünün memarı İlham Əliyev və Aleksandar Vuçiçdir

**Çağdaş münasibətlər sistemində dövlətlərin bir-birinə yalnız coğrafi, din, dil baxımından deyil, prinsipial mövqeləri və qarşılıqlı etimadı ilə yaxınlaşdığı nadir nümunələr də var. Azərbaycan və Serbiya arasındakı əlaqələr məhz bu nümunələrdəndir. Hər iki ölkənin suverenlik və ərazi bütövlüyü uğrunda apardığı mübarizə, qlobal güclərin təzyiqləri qarşısında nümayiş etdirdikləri müstəqil iradə Bakı ilə Belqradı strateji müttəfiqliyə və etibarlı dostluq münasibətlərinə yüksəldib.**

Xəzər sahilindən Balkanlara uzanan bu əməkdaşlıq körpüsü enerji təhlükəsizliyinin və regional sabitliyin təməli sayılır. Ələlxüsus, İlham Əliyevlə Aleksandar Vuçiçin şəxsi dostluğu bu münasibətlərin dinamikasını sürətləndirir. Bu dinamikanın növbəti təzahürü aprelin 19-da Serbiya Prezidenti Aleksandar Vuçiçin Azərbaycanın dövlət başçısı İlham Əliyevə zəngində əksini tapıb.

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri, dövlət başçılarının iştirakı ilə keçirilmiş Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası məmnunluqla xatırlanıb. Səfər çərçivəsində imzalanmış sənədlərin əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb. Prezidentlər ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi barədə fikir mübadiləsi aparıblar. Serbiyaya göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edən Aleksandar Vuçiç Azərbaycanla münasibətləri inkişaf etdirmək əzmini bir daha vurğulayıb. O gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyasında iştirak edəcəyini də deyib. Serbiyanın "Airserbia" şirkətinin mayın 3-nə planlaşdırılan Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşların həyata keçiriləcəyindən məmnunluq bildirilib.

Azərbaycan və Serbiya arasındakı münasibətlər hazırda özünün qızıl dövrünü yaşayır. Vuçiçin dövlətimizin başçısına zəng etməsi iki ölkə arasında strateji tərəfdaşlığın praktiki nəticələrinin təzahürüdür. Xüsusən Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclasına istinad edilməsi münasibətlərin sistemli formata keçdiyini göstərir. Bu format, adətən, ən yaxın və ən etibarlı tərəfdaşlar arasında qurulur. Şura çərçivəsində qəbul edilən qərarlar iqtisadiyyatdan təhlükəsizliyə qədər bütün sahələrdə bürokratik maneələri aradan qaldıraraq əlaqələrin yol xəritəsini müəyyən edir.

Serbiya Prezidenti beynəlxalq arenada İlham Əliyev haqqında ən yüksək fikirlər səsləndirən liderlərdən biridir. Vuçiç müsahibələrində tez-tez qeyd edir ki, müasir dünyada sözünə sadiq qalan lider tapmaq çətindir, lakin İlham Əliyev verdiyi hər vədə əməl edən nadir şəxsiyyətdir. O, dəfələrlə vurğulayıb ki, Azərbaycanın suverenliyini tam bərpa etməsi İlham Əliyevin qətiyyətli liderliyinin nəticəsidir və bu, Serbiya üçün də bir örnəkdir. Vuçiç İlham Əliyevin dövlət maraqlarını hər şeydən üstün tutan müstəqil siyasətini yüksək qiymətləndirir və Azərbaycan Prezidentini "Serbiya xalqının əsl dostu" adlandırır. O, İlham Əliyevi, sadəcə, həmkarı yox, çətin zamanlarda arxalanacağı strateji müttəfiqi kimi görür.

Bakı və Belqrad bütün beynəlxalq platformalarda bir-birini tərəddüdsüz dəstəkləyir. Hər iki lider böyük güclərin təzyiqlərinə baxmayaraq, öz ölkələrinin milli maraqlarına uyğun balanslı siyasət yürüdürlər.

Tərəflərin müzakirə etdiyi strateji layihələr sırasında enerji sektoru xüsusi yer tutur. Azərbaycan qazı Serbiyanın enerji asılılığını azaltmaqda əsas faktordur. Bolqarıstan-Serbiya interkonnektorunun istifadəyə verilməsi ilə Azərbaycan qazı Serbiyanın enerji təhlükəsizliyində həlledici rol oynamağa başlayıb. "Yaşıl enerji" və infrastruktur layihələrində də ciddi irəliləyiş əldə ediblər. Gələcək planlarda Xəzər dənizindən Avropaya çəkiləcək "yaşıl enerji" dəhlizi (Qara dəniz sualtı kabeli) vasitəsilə Serbiyanın da buna inteqrasiyası nəzərdə tutulur. Serbiya texnologiya və kənd təsərrüfatı, Azərbaycan isə enerji və logistika imkanları ilə bir-birini tamamlayır.

Bakı-Belqrad birbaşa uçuşlarının bərpası və turizm axınının artması siyasi iradənin cəmiyyətlər səviyyəsinə enməsini təmin edir. Bu infrastruktur layihələri iki ölkə arasındakı coğrafi məsafəni qısaldaraq, iş adamları və mədəniyyət xadimləri üçün yeni imkanlar yaradır. Biznes adamlarının və turistlərin gediş-gəlişi həm qeyri-neft sektorunun, həm də qarşılıqlı investisiyaların artmasına birbaşa təsir edəcək.

Vuçiçin gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunda (WUF13) iştirak edəcəyini təsdiqləməsi iki məqama diqqət çəkir. Birincisi, Azərbaycanın mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etmək statusudur. İkinci məqam isə, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda həyata keçirdiyi sürətli bərpa-quruculuq işlərinə Serbiyanın marağı və prosesdə serb şirkətlərinin iştirak imkanlarının gündəmə gətirilməsidir.

Azərbaycan və Serbiya arasında "2026-cı il üçün imzalanmış Hərbi Əməkdaşlıq Planı" iki ölkənin müdafiə sənayesi sahəsində dərin inteqrasiyasını təsdiqləyir. Serbiya Azərbaycanın müdafiə sənayesi potensialına, Azərbaycan isə Serbiyanın hərbi texnologiyalarına maraq göstərir. Münasibətlərin diqqətçəkən məqamı hərbi-texniki sahədəki sıçrayışdır. Hər iki ölkə müdafiə sənayesi potensialına malikdir və bu sahədə birgə müəssisələrin yaradılması, texnologiya mübadiləsi və hərbi kadrların hazırlığı münasibətlərin təhlükəsizlik komponentini möhkəmləndirir. Bu, Cənubi Qafqaz və Balkanlar kimi həssas regionlarda sabitliyin qorunmasına xidmət edən mühüm amildir.

Prezident Aleksandar Vuçiçin zəngi Serbiya üçün Azərbaycanın nə qədər etibarlı tərəfdaş olduğunun təsdiqidir. Bu münasibətlər həm də Azərbaycanın çoxşaxəli xarici siyasətinin uğurudur. Bakı Avropanın mərkəzində özünə siyasi və iqtisadi baxımdan sadiq müttəfiq qazanıb.

***İ.QOCAYEV, "Azərbaycan"***

# Vətənpərvər gənclər Azərbaycanın etibarlı sabahıdır

**Cəmiyyətimizin əsas vəzifələrindən biri də Azərbaycan gənclərini vətənpərvərlik, azərbaycançılıq, dövlətçiliyə və milli-mənəvi dəyərlərə hörmət ruhunda formalaşdırmaqdır. Ümummilli Lider Heydər Əliyevin "Vətənpərvər olmaq üçün hər bir insanın ürəyində Vətənə bağlılıq olmalıdır, sədaqət olmalıdır" kimi fikirlərinin təsdiqini gənclərimiz ictimai-siyasi həyatın bir çox sahələrində, ən əsası ölkəmizin suverenliyinin bərpasında, Azərbaycan torpaqlarının işğaldan azad edilməsində nümayiş etdirdilər.**



44 günlük Vətən müharibəsində Azərbaycan gəncləri əsl vətənpərvərlik nümunəsi ortaya qoydular. Torpaqlarımızın işğaldan azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən Vətən müharibəsindən gənclərimiz şərəflə çıxdılar, Vətənin etimadını layiqincə doğrultdular, bütün dünya Azərbaycan gəncinin şücaətinə heyran qaldı.

Dövlətimizin başçısının rəhbərliyi ilə daha geniş coğrafiyada reallaşan vətənpərvərlik və azərbaycançılıq müasir dövrün tələblərinə cavab verən gənclər formalaşdırmışdır. Hər iki amil Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynamışdır. Prezident İlham Əliyev gənclərin inkişaf yönümünü mövcud ənənələr, tələblər əsasında daha da təkmilləşdirilməsilə əlaqədar fərman və sərəncamlar imzalamış, Azərbaycan gənclərinin vətənpərvərlik və azərbaycançılıq ruhunu daha da gücləndirmək üçün zamanın çağırışları ilə ayaqlaşan dövlət proqramlarını təsdiq etmişdir. 2007-ci ilin "Gənclər ili" elan olunması, 2011-ci ildə Gənclər Fondunun yaradılması, 2013-cü ildə ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis olunması, ən nəhayət, Azərbaycan gənclərinin İnkişaf Strategiyasının təsdiqlənməsi buna bariz nümunələrdir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə başda gənclərimiz olmaqla "Böyük qayıdış" proqramı uğurla icra edilir. Artıq 70 minə yaxın insan işğaldan azad edilmiş ərazilərdə yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən nümunəvi şərait yaradılmışdır.

Əminliklə deyə bilərik ki, bu günün gəncliyi azərbaycançılıq ideyası ilə yaşayan qurucu, sağlam ruhlu, özünə inamlı, mübariz vətənpərvərlərdir. Onlar mütləq şəkildə Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici siyasət kursunu dəstəkləyirlər. Eyni zamanda gənclərimiz milli-mənəvi dəyərləri əxz edərək formalaşırlar. Dövlət başçısı hər zaman çıxışlarında Azərbaycan gəncliyinin tərbiyə olunmasını, milli-mənəvi dəyərlərimizin qorunmasını ön plana çəkir. Çünki milli-mənəvi dəyərlərimiz qorunduqca gənclərimiz ziyanlı xarici təsirlərdən müdafiə olunur, azərbaycançılıq ideologiyası ətrafında birləşərək Vətənə, dövlətə, xalqa bağlı olurlar.

Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu gündən-günə artır. Respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatları fəaliyyətlərini dövlətin yaratdığı şərait sayəsində daha da genişləndirirlər. Dövlətin gənclərə dəstək və diqqəti sayəsində Azərbaycan gəncliyində özünə, istedadına inam hissi artıb. Gənclər öz üzərlərində dövlət qayğısını daim hiss etdiklərindən nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq ölkəmizin parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün gücləri səfərbər edir, Vətənin inkişafı üçün əllərindən gələni edirlər. Yeri gəlmişkən qeyd edək ki, bu gün gənclərimizin böyük bir qismi ordu sıralarında Vətən qarşısındakı müqəddəs borcunu yerinə yetirir. Onlar təlim və məşğələlərdə döyüş hazırlıqlarını artırır, mənəvi-psixoloji cəhətdən möhkəmlənirlər.

Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə gəncləri daha güclü aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək üçün böyük işlər görülür. Dövlət başçısı gənclərə olan münasibətini çıxışlarından birində belə ifadə etmişdir: "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram".

Vətənpərvər gənclər Azərbaycanın etibarlı sabahıdır. Fiziki və mənəvi cəhətdən sağlam olan, dünyada gedən prosesləri düzgün təhlil edə bilən, müasir texnologiyalarla işləməyi bacaran, əqidəli, milli-mənəvi dəyərlərə malik vətənpərvər gənclər ölkəmizi uğurlu gələcəyə aparan böyük qüvvədir.

***Rəhman SALMANLI, "Azərbaycan"***

Yeni nəşrlər

# XVIII-XIX əsrin əvvəlləri Azərbaycanda baş verən hadisələrə işıq salan əsər

**Qafqaz tarix boyu böyük imperiyaların diqqət mərkəzində olan strateji coğrafiyalardan sayılıb. Zəngin təbii sərvətləri, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm ticarət yolları, siyasi və hərbi baxımdan əlverişli mövqeyi bu məkanı daim yadellilərin maraq dairəsinə çevirib.**

Xüsusən də Azərbaycan torpaqları həm iqtisadi imkanları, həm də geosiyasi əhəmiyyəti ilə seçildiyi üçün müxtəlif dövlətlərin işğalçı planlarının əsas hədəfi olub. Tarixin müxtəlif mərhələlərində xalqımızın üzləşdiyi faciələrin, torpaq itkilərinin, demoqrafik dəyişikliklərin arxasında da məhz bu maraqlar dayanıb.

Belə mürəkkəb və ağrılı tarixi proseslərin obyektiv araşdırılması milli tarixşünaslığın qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu baxımdan, tarix elmləri doktoru, tanınmış alim Güntəkin Nəcəflinin "Rusiya imperiyası və ermənilərin Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq fəaliyyəti (XVIII-XIX əsrin əvvəlləri)" adlı fundamental monoqrafiyasının xüsusi elmi əhəmiyyəti var. 448 səhifəlik nəşr AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi Şurasının qərarı ilə çap edilib.

İlk növbədə qeyd etmək lazımdır ki, əsərin əsas üstünlüyü müəllifin mövzuya emosiyadan uzaq, elmi cəsarət və zəngin tarixi faktlarla yanaşmasıdır. Əsərdə XVIII əsrdən XIX əsrin əvvəllərinədək Rusiya imperiyasının Cənubi Qafqaz siyasəti, erməni siyasi dairələrinin planları, xarici güclərlə əlaqələri, regionda etnik dayaqlar yaratmaq cəhdləri kompleks araşdırılaraq oxucuya təqdim edilir. Tarix və Etnologiya İnstitutunun təqdimatında da xüsusi vurğulandığı kimi, bu problematika ilk dəfə sistemli şəkildə tədqiq olunur. Müəllif arxiv sənədlərinə, ermənidilli mənbələrə, rus rəsmi yazışmalarına və müxtəlif elmi ədəbiyyata söykənərək tarixi həqiqətləri üzə çıxarır. Bu yanaşma kitabı yalnız publisistik əsər deyil, ciddi akademik mənbə səviyyəsinə yüksəldir. Əsərin elmi sanbalı da məhz bu mənbəşünaslıq bazasından qaynaqlanır.

Monoqrafiyada göstərilir ki, Rusiya imperiyası Cənubi Qafqazı işğal etmək və burada uzunmüddətli möhkəmlənmək üçün bölgədə özünə etibarlı etnosiyasi dayaq yaratmağa çalışırdı. Bu məqsədlə xristian amilindən istifadə edilməsi, ermənilərin imperiya siyasətinin alətinə çevrilməsi müəllifin gəldiyi mühüm nəticələrindəndir. Alim I Pyotr, II Yekaterina və I Nikolayın ermənilərdən siyasi vasitə kimi istifadəsini sənədlərlə əsaslandırır. Bu, olduqca mühüm məqamdır. Şübhəsiz ki, məsələnin mahiyyəti təkcə etnik münasibətlərdə yox, böyük dövlətlərin geosiyasi maraqlarında idi. Güntəkin Nəcəfli də əsərində bu həqiqəti aydın şəkildə, erməni məsələsinin, ilk növbədə, imperiya siyasətinin məhsulu olduğunu sübut edir.

Monoqrafiyada diqqətçəkən bölmələrdən biri də Azərbaycan torpaqlarında "Albaniya çarlığı", "Ararat krallığı" və digər adlar altında Rusiyadan asılı xristian qurumlar yaratmaq planlarının araşdırılmasıdır. Müəllif göstərir ki, bu layihələr tarixi reallıqdan uzaq, siyasi sifarişin nəticəsi olaraq meydana çıxıb. Birmənalı olaraq qeyd edə bilərik ki, tarixin saxtalaşdırılması və uydurma dövlətçilik konsepsiyalarının formalaşdırılması sonrakı mərhələlərdə də bölgədə qarşıdurmaların ideoloji əsasına çevrildi. Bu gün də bəzi dairələrin tarixə qərəzli yanaşması fonunda alimin bu araşdırması xüsusi aktuallıq kəsb edir. Çünki tarix yalnız keçmişin xatirəsi deyil, həm də bu günün siyasi proseslərini anlamaq üçün əsas açarlardandır.

Əsərdə önə çəkilən mövzulardan biri də ermənilərin Osmanlı və Qacar dövlətlərinin ərazilərindən işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi siyasətidir. Müəllif bu prosesin spontan miqrasiya deyil, planlı imperiya strategiyası olduğunu göstərir. Kitabın təqdimat materialında qeyd olunur ki, köçürmələr "xüsusi məqsədlə" həyata keçirilmişdir. Bu siyasət nəticəsində İrəvan, Naxçıvan, Qarabağ və digər bölgələrdə etnik tərkib dəyişdirilmiş, sonrakı ərazi iddialarının bünövrəsi qoyulmuşdur. Alimin araşdırmalarından görünür ki, bu gün regionda müşahidə olunan bir çox problemin kökü məhz həmin dövrdə atılmış addımlara gedib çıxır.

Güntəkin Nəcəfli bu mövzuya təsadüfən müraciət etməyib. Onun elmi fəaliyyətində İrəvan xanlığı, ermənilərin köçürülməsi siyasəti, XVIII əsrdə Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq cəhdləri kimi mövzular mühüm yer tutur.




Bu da göstərir ki, müəllif illərlə topladığı araşdırmalarını yeni monoqrafiyada geniş və sistemli şəkildə ümumiləşdirə bilib.

Sözsüz ki, belə alimlər milli tarixşünaslığın ön cəbhəsində dayanırlar. Onlar yalnız keçmişi araşdırmır, həm də gələcək nəsillər üçün həqiqətin elmi əsaslarını yaradırlar. Tarixi yaddaşın qorunması isə dövlətçilik düşüncəsinin və milli kimliyin mühüm dayaqlarından biridir.

Bu kitabın dəyəri həm tarixçilər, həm də siyasi şərhçilər, beynəlxalq münasibətlər üzrə mütəxəssislər, müəllimlər, tələbələr və geniş oxucu auditoriyası üçün çox ciddi qaynaqdır. Çünki əsərdə bir həqiqət açıq-aydın göstərilir - regionda baş vermiş proseslər təsadüfi olmayıb, uzunmüddətli siyasi layihələrin nəticəsidir.

İnformasiya müharibələrinin getdiyi müasir zamanda belə əsərlər milli yaddaşın qorunması baxımından olduqca əhəmiyyətlidir. Çünki tarixi saxtalaşdırmaq istəyənlərə qarşı ən güclü cavab emosional bəyanatlardan çox sənədə, fakta və elmi arqumentə əsaslanan tədqiqatlar olmalıdır.

Güntəkin Nəcəflinin növbəti dəyərli əsəri Azərbaycan tarixşünaslığında mühüm hadisədir. Bu monoqrafiya tarixi həqiqətlərin elmi əsaslarla müdafiəsi, saxtalaşdırmalara cavab verilməsi və milli yaddaşın möhkəmləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Müəllif ağır və ağrılı bir tarixi səhifəni böyük zəhmət, məsuliyyət və peşəkarlıqla araşdıraraq ortaya sanballı elmi-faktoloji əsər qoya bilib.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# İrəvanın "təhlükəsizlik çətiri" axtarışı

## Ermənistan kənar qüvvələrin bölgəyə yerləşməsinin risklərini nəzərə almalıdır

**Avropa İttifaqı ölkələrinin səfirləri Brüsseldə Ermənistana yeni mülki missiyanın göndərilməsi barədə qərar qəbul ediblər. Qərar gələn həftə Aİ xarici işlər nazirlərinin iclasında təsdiqlənəcək. Yeni Aİ missiyasının iki il müddətinə Ermənistanda yerləşdirilməsi, 20-30 beynəlxalq əməkdaşdan ibarət olması və "Avropa İttifaqının tərəfdaşlıq missiyası" adı altında fəaliyyət göstərməsi planlaşdırılır.**

İkinci missiyanın məqsəd və fəaliyyət istiqamətləri də açıqlanıb. Missiya Ermənistanın hibrid təhdidlərə qarşı dayanıqlılığını gücləndirməli, nazirliklərə və təhlükəsizlik qurumlarına strateji və praktiki məsləhət və dəstək verməlidir. Bu məsləhətlər siyasətlərin hazırlanması, xarici informasiya manipulyasiyalarının aşkar edilməsi və qarşısının alınması, kibertəhlükələr, eləcə də qanunsuz maliyyə axınları ilə bağlı olacaq. Missiya həmçinin təhlükəsizlik sahəsində imkanların inkişafı üçün Ermənistana nə lazım olduğunu qiymətləndirəcək.

Avropa rəsmilərinin təqdim etdiyi sənəddə diqqətçəkən məqamlardan biri qarşıdakı siyasi proseslərlə bağlıdır. Sənəddə vurğulanıb ki, iyunda Ermənistanda keçiriləcək parlament seçkiləri, ondan sonrakı yerli seçkilər və mümkün konstitusiya referendumu ölkənin daxili sabitliyi və regional sülh üçün ciddi sınaq olacaq. Seçkilər ərəfəsində kiberhücumlar və dezinformasiya kampaniyaları ehtimalı yüksəkdir. Aİ-nin dəstəyi bu təhdidləri texniki baxımdan neytrallaşdıra bilər. Bu missiya İrəvan üçün bir növ "təhlükəsizlik sığortası" rolunu oynayır.

Yeni missiyanın əsas məqsədlərindən biri də kənar güclərin bölgədəki destabilləşdirici fəaliyyətləri azaltmaq və neytrallaşdırmaqdır. Bu, Aİ-nin Cənubi Qafqazda geosiyasi mövqelərini gücləndirmək niyyətindən xəbər verir. Analitiklər hesab edirlər ki, Aİ-nin Ermənistana göndərdiyi ikiillik missiya Rusiya ilə Ermənistan arasında münasibətlərin daha da pisləşməsinə xidmət edəcək.

Missiyanın seçki ərəfəsində gəlişi Aİ-nin Ermənistanın hazırkı siyasi kursunu qorumaq istəyindən xəbər verir. İrəvanın Moskva ilə gərgin münasibətlər fonunda ölkənin təhlükəsizlik sektorunu Aİ ekspertlərinə açması Rusiyadan asılılığı azaltmaq məqsədini daşıyır. Aİ isə bu missiya ilə Moskvanı bölgədən sıxışdırıb çıxartmağı və Ermənistanın Qərbə inteqrasiya yolunda qarşılaşa biləcəyi hibrid müdaxilələrin qarşısını almağı hədəfləyir. Bunun Rusiya-Ermənisan arasında iqtisadi və siyasi qarşıdurmaya yol aça biləcəyi deyilir.

Qeyd edək ki, Aİ-nin birinci missiyası Ermənistana 2023-cü ilin fevralında gəlib. Həmin missiya Ermənistanın Azərbaycanla sərhəd bölgələrində patrul aparır. Bir neçə dəfə say tərkibi və fəaliyyət müddəti uzadılan ilk missiyanın 2027-ci il fevralın 19-dək Ermənistanda qalması nəzərdə tutulur.

Rəsmi Bakı Ermənistan ərazisində Aİ missiyasının yerləşdirilməsini hər zaman kəskin tənqid edib və haqlı olaraq "mülki müşahidəçi"lərin fəaliyyətini və onların bölgədəki rolunu sual altına alıb. Xatırladaq ki, sülh prosesi çərçivəsində Azərbaycanla Ermənistan arasında sərhəddə kənar qüvvələrin yerləşdirilməməsi ilə bağlı prinsip razılaşdırılmışdı. Aİ və İrəvan ikinci missiyanın əvvəlkindən fərqləndiyini, daha çox daxili təhlükəsizlik və hibrid təhdidlərə fokuslanacağını iddia edir. İddia olunur ki, ikinci missiya sərhəddə "binokl"la müşahidə aparmaq və kəşfiyyat məlumatları toplamaqla məşğul olmayacaq və Ermənistanın dövlət strukturları ilə işləyəcək.

Lakin siyasi şərhçilər istənilən halda regiona kənar güclərin gətirilməsini sabitliyə xidmət etməyən amil kimi qiymətləndirirlər. Hansısa üçüncü tərəfin bölgədəki hərbi-siyasi aktivliyinin artması regionda kənar qüvvələrin olmaması prinsipi ilə ziddiyyət təşkil edir. Missiyanın fəaliyyətə başlaması regionda "mülki müşahidə" formatından "təhlükəsizlik tərəfdaşlığı" formatına keçid deməkdir ki, bu da Cənubi Qafqazı böyük güclərin rəqabət meydanına çevirmək riskini artırır. Əgər missiya Ermənistanı sülh müqaviləsindən yayındırmaq üçün bir vasitəyə çevrilərsə, sabitliyə yox, gərginliyə xidmət edəcək. Bu prosesin regional sabitliyə töhfə verəcəyi, yoxsa maneələr yaradacağı yaxın aylarda bəlli olacaq.

Ümumən, Avropa İttifaqının bu addımı Ermənistan üçün "təhlükəsizlik çətiri" vədi versə də, Cənubi Qafqazın ümumi təhlükəsizliyi baxımından suallar doğurur. Regionun gələcəyinin böyük güclərin geosiyasi maraqları ilə deyil, bölgə ölkələrinin qarşılıqlı etimadı ilə formalaşacağı reallığı hələ də ən aktual məsələ olaraq qalır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*



# "Uşaqdır", - deyib yan keçməyək

## Son vaxtlar yeniyetmələrlə bağlı baş verən faciələr bizdən övladlarımıza münasibətdə daha ayıq olmağı tələb edir

**Türkiyənin Kahramanmaraş şəhərindəki məktəblərin birində baş verən qanlı hadisə dünyanı sarsıtdı. Bu dəhşətli hadisəni eşidənlər ilk anlarda elə zənn etdilər ki, yəqin təhsil ocağına hansısa terrorçu və yaxud quldur dəstəsi silahlı hücum edib. Amma sonradan məlum oldu ki, 10 nəfərin ölümünə, 20 nəfərin yaralanmasına səbəb olan bu qanlı hadisəni həmin məktəbin 8-ci sinif şagirdi İsa Aras Mersinli törədib.**

Məktəbə silahla daxil olan İsa Aras sinif otaqlarına doğru atəş açıb. Atəş səslərindən sonra şagirdlər və müəllimlər güllələrə tuş gəlməmək üçün qorxu və vahimə içində müxtəlif istiqamətlərə qaçıblar. Yeniyetmə qatil planlaşdırdığı terror aktını amansızlıqla həyata keçirdikdən sonra intihar edib, həyatına son qoyub.

Belə qanlı hadisələri ilk dəfə deyil ki, eşidirik. Təəssüflər olsun ki, bu cür dəhşət doğuran hadisələr dünyanın müxtəlif ölkələrində tez-tez baş verir. Ən yüksək təhlükəsizlik tədbirlərinin görülməsinə baxmayaraq, onun qarşısını almaq mümkün olmur. Terrorçular müxtəlif yollar və vasitələrdən istifadə edərək çirkin məqsədlərinə çatırlar. Heç bir günahı olmayan insanları hədəfə alaraq amansızcasına qətlə yetirirlər.

Yeniyetmələrin, gənclərin belə qanlı hadisələr, amansız qətllər törətdiklərini eşidəndə hamımızı cavabı çətin tapılan suallar düşündürür. Düşünürük ki, görəsən, ömürlərinin ən gözəl çağlarını yaşayan uşaqlar, yeniyetmələr hansı səbəbdən belə dəhşətli, tükürpərdən hadisələr törədirlər. Onları buna məcbur edən nədir, hansı hisslərdir. Ömürlərinin başlanğıc çağlarında olan uşaqlarda, yeniyetmələrdə bu cür qəddarlıq, bu cür amansızlıq necə, niyə və haradan yaranır? Bu işdə günahkar kimdir, cəmiyyətmi, ailəmi? Yoxsa elə hər ikisi!

Qanlı hadisə baş verəndən sonra yayılan ilkin məlumatlarda qeyd olunurdu ki, insanlara hücum edib atəş açan şagird məktəbə bel çantasında gizlətdiyi silahlarla daxil olub. Onun çantasında silahlar və bu silahlardan atəş açmaq üçün dolu patron daraqları da var imiş. İsa Aras məktəbə daxil olan kimi 5-ci sinif şagirdlərinə atəş açıb. Sual olunur ki, məktəblidə silah haradandır, onu necə əldə edib. Bu silah onun nəyinə lazımdır? Axı o, məktəbə oxumağa gəlib, insan öldürməyə yox. Bu sualın cavabı özünü çox gözlətmədi. Verilən xəbərlərə görə, qanlı hadisəni törədən şagirdin atası Uğur Mersinli keçmiş polis müfəttişi işləyib. Silahlar da ona məxsus olub. Atası silahları övladına etibar edib, amma onu nəzarətsiz qoyub. Hətta o da məlum olub ki, ata oğlunu hədəfə düzgün atəş açmağı öyrətmək üçün poliqona da aparıb.

Bəlkə də silaha maraq, atəş açmağa həvəs də İsa Arasda həmin günlərdən oyanıb. Beləcə, valideyn nəzarətsizliyi, məsuliyyətsizliyi ucbatından bu cür qanlı hadisələrin bünövrəsi qoyulub. Əgər valideyn uşağını nəzarətsiz qoymasaydı, onda silaha qarşı həvəs oyatmasaydı, heç belə bir faciə də baş verməzdi. Həyatda belə hadisələrin baş verməsinə səbəb həmişə daha çox valideyn səhlənkarlığı olur.



Araşdırma zamanı o da məlum olub ki, bu cinayətin kökündə həm də internetdə yayımlanan, uşaqların psixologiyasını pozan müxtəlif döyüş oyunları dayanır. Valideynlərinin dediklərinə görə, dünyanı sarsıdan bu dəhşətli cinayəti törədən İsa Aras belə filmlərə çox baxırmış. Bu döyüş filmləri onda insanlara atəş açmağa, qan tökməyə, zorakılığa həvəs oyadırmış. Onun valideynləri övladlarının belə zərərli oyunlara aludə olmalarının qarşısını almaqda acizlik göstəriblər, buna biganə yanaşıblar. Qətliamı törədən şagirdin internetdə yayımlanan hərəkətlərinə diqqətlə fikir verəndə elə ilk andan aydın görünür ki, onun psixoloji problemi var. Sən demə, məktəblini poliqona atəş açmağa yox, həkimə aparmaq lazımdır. Belə olmayanda son nəticədə qanlı bir olay baş verir.

İnformasiya agentliklərində yayılan məlumatlara görə, qətliamı törədən 14 yaşlı İsa Aras Mersinlinin hadisədən bir gün əvvəl VPN vasitəsilə məşhur "Discord" tətbiqində hücumu açıq şəkildə anons edib. Yazdığı mesajlara diqqət yetirəndə onun psixoloji problemlərinin olduğu qənaətinə gəlmək mümkündür: "Lənət olsun! Bunu bu gün edə bilərəm". "5-ci və 6-cı sinif şagirdləri otaqda hazır dursa, işim daha asan olardı". "Atam məni boğub öldürməyə çalışdı. Bu gün tamamilə yorğunam". "Evdə təkəm, indi manifestimi bitirib bir az yatacağam". "Daha sonra bu dünyaya nə qədər yorğun olduğumu, nələrə qadir olduğumu göstərəcəyəm".

Qanlı cinayəti törədən məktəblinin atası keçmiş polis zabiti Uğur Mersinli dindirilmək üçün saxlanılıb. Amma bu saxlanılma, dindirilmə nəyi həll edəcək, nəyi geri qaytaracaq. Artıq onun oğlu dünyanı sarsıdan dəhşətli hadisəni törədib. Heç bir günahı olmayan uşaqları, müəllimini gülləbaran edib. Özünün də oxuduğu təhsil ocağını qana boyayıb. Bu dəhşətli hadisədə övladlarını itirmiş insanların kədər dolu çöhrəsinə, yaşı axan gözlərinə baxmaq mümkün deyil. Onların ah-naləsi, ağlaşma səsləri, hayqırtıları yeri-göyü lərzəyə gətirir.

Dəhşətli hadisə zamanı həlak olanlardan biri də 55 yaşlı riyaziyyat müəllimi Ayla Kara olub. O, özünü sevimli şagirdlərinin qarşısına atıb onları qatilin güllələrindən qoruyarkən ağır yaralanıb. Həkimlərin səylərinə baxmayaraq, müəllimi xilas etmək mümkün olmayıb. Onun faciə zamanı göstərdiyi fədakarlıq cəmiyyətdə böyük rezonans doğurub. Ayla Kaya şagirdlərini sevən, onların yolunda ölümə getməyə hazır olan bir müəllim nümunəsi göstərib.

Bu hadisə ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu göndərib. Məktubda deyilir: "Hörmətli cənab Prezident! Əziz Qardaşım. Kahramanmaraşda yerləşən məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla, çox sayda insanın həlak olması və yaralanması xəbərini dərin sarsıntı və kədər hissi ilə qarşıladıq. Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik".

Türkiyədə baş verən bu qanlı hadisə cəmyyətə, insanlara dərs olmalıdır. Həmişə görmüşük ki, uşaqları teatra, konsertə, təbiətin qoynuna gəzintiyə aparardar. İsa Aras Mersinlinin atası isə onu poliqona aparır, atəş açmağa öyrədir. Həm internetdəki döyüş oyunları, həm də canlı-canlı olaraq silahlardan atəş açması isə onu cinayət törətməyə, qan tökməyə həvəsləndirir. Bütün hallarda günah, məsuliyyət cinayətkarın valideynlərinin üzərinə düşür.

Uşaqların bu cür qanlı hadisələri törətməsinin qarşısının alınması üçün onların tərbiyəsi istiqamətində illərin sınağından çıxmış metodlar tətbiq olunmalıdır. Valideynlər uşaqların bütün hərəkətlərini nəzarətdə saxlamalı, onlar üçün zorakılıqdan uzaq mühit yaradılmalıdır. Kahramanmaraşdakı qanlı hadisədən yalnız Türkiyə deyil, bütün dünya dərs götürməlidir. Yeniyetmələrin düzgün tərbiyə olunması üçün sistemli profilaktik tədbirlər görülməlidir. Baş verən bu və ya digər hadisələr bir daha onu göstərir ki, erkən yaşda zorakılığa məruz qalan, qəddar mühitdə böyüyən uşaqlar gələcək həyatlarında aqressiv davranışlara və cinayət hərəkətlərinə meyilli olurlar. Həm uşaqların, həm də cəmiyyətin gələcəyini qorumaq üçün bütün zəruri tədbirlər vaxtında həyata keçirilməlidir. Valideynlər övladlarını internet oyunlarından və başqa zərərli vərdişlərdən qorumalıdırlar.

Ölkəmizə gəldikdə isə, uşaqların böyüməsi, tərbiyə olunması istiqamətində müntəzəm olaraq zəruri addımlar atılır, mühüm işlər görülür, vacib sənədlər qəbul edilir. Uşaqların təhsil alması, oxuması, gələcəkdə cəmiyyətdə öz yerlərini tutması üçün bütün əlverişli şərait yaradılır. Gələcəyimiz olan uşaqlar uğurla həyata keçirilən dövlət uşaq siyasəti sayəsində ölkəmizə layiqli vətəndaşlar kimi böyüyürlər. Uşaqların böyüməsi, tərbiyə olunması, həmçinin başqa hüquq və vəzifələri Azərbaycan Prezidenti İlham Əliyevin 3 mart 2026-cı ildə imzaladığı "Uşaq hüquqları haqqında" qanunda da öz əksini tapmışdır.

Yazını hazırlayarkən Bakıdakı 286 saylı orta məktəbin 9-cu sinif şagirdinin mübahisə zəminində sinif yoldaşına ağır xəsarət yetirdiyi barədə məlumat yayıldı. Həm bu, həm də bir neçə ay öncə "İdrak" liseyində baş verən məlum hadisə bir daha biz böyüklərdən onu tələb edir ki, "uşaqdır" deyib yanlarından etinasız keçməyək, övladlarımıza qayğımız kimi diqqəti də azaltmayaq, onlara münasibətdə ayıq olaq, təhsil aldıqları məktəblə əlaqəni zəifləmtəyək, kimlərlə oturub-durduqlarına nəzarət edək. Əks halda bu cür faciələr bizi qara kabus kimi müşayiət etməkdə davam edəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat

## İslam İnkişaf Bankı Qrupunun İllik Toplantıları üzrə məlumat sessiyası keçirilib

**İqtisadiyyat Nazirliyində 16-19 iyun tarixlərində Bakıda keçiriləcək İslam İnkişaf Bankı Qrupunun 51-ci İllik Toplantılarına hazırlıq məqsədilə məlumat sessiyası təşkil edilib.**

Tədbirdə İslam İnkişaf Bankı Qrupuna üzv ölkələrin ölkəmizdəki diplomatik nümayəndəliklərinin təmsilçiləri iştirak edib.

İqtisadiyyat nazirinin müşaviri Əsgər Ələkbərov və Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq idarəsinin müşaviri Sabir Rzayev İllik Toplantıların strukturu, iştirak qaydaları, qeydiyyat prosedurları ilə bağlı məlumat veriblər. Bildirilib ki, builki toplantılar "Davamlı rifah üçün regional inteqrasiya" mövzusuna həsr olunub. Qeyd edilib ki, mövzu artan regional və qlobal əməkdaşlıq çağırışlarını əks etdirir, Azərbaycanın regional bağlantılar və əməkdaşlıq platformalarında oynadığı strateji rolu vurğulayır.

Ölkəmizin 2010-cu ildən sonra ikinci dəfə bu nüfuzlu tədbirə evsahibliyi etməsinin əhəmiyyəti diqqətə çatdırılıb. 2026-cı il İllik Toplantılarının üzv ölkələr arasında yeni tərəfdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm platforma olduğu qeyd olunub. Bildirilib ki, İllik Toplantılar çərçivəsində sessiyalarla yanaşı, açılış mərasimi, Müdirlər Şurasının iclasları, özəl sektor forumu, gənclər forumu və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Tədbir iştirakçıları Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə mövcud əməkdaşlığı və perspektiv layihələr barədə məlumatlandırılıb.

## Cari ilin I rübündə sahibkarlara 16 "Startap" şəhadətnaməsi verilib

**2026-cı ilin yanvar-mart aylarında 29 mikro və kiçik sahibkar "Startap" şəhadətnaməsi almaq üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib.**

Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na əsasən, Ekspertlər Şurası tərəfindən 16 mikro və kiçik sahibkara "Startap" şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub. Şəhadətnamə almış sahibkarların 10-u hüquqi, 6-sı fiziki şəxsdir. Startaplardan 10-u Bakı şəhərindən, 6-sı isə regionlardandır. "Startap" şəhadətnaməsi almış biznes subyektləri istehsal və xidmət sektorlarında fəaliyyət göstərir, startapların əsas istiqamətləri e-ticarət və rəqəmsal marketinq, səhiyyə texnologiyaları, onlayn oyun istehsalı, səyahət və turizm xidmətləri, rəqəmsal ödəniş sistemləri və s. sahələrdə innovativ həlləri özündə ehtiva edir.




Qeyd edək ki, "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. "Startap" şəhadətnaməsinin verilməsi, yaxud imtina edilməsi haqqında qərar KOBİA tərəfindən Ekspertlər Şurasının rəyi əsasında verilir. Ekspertlər Şurası Agentliyin nəzdində 12 nəfərdən ibarət olan müxtəlif dövlət qurumlarının nümayəndələrindən və müstəqil ekspertlərdən ibarətdir. Mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər.

## 3 ayda 98,3 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu ilin I rübündə 98,3 min şəxsi aktiv məşğulluq tədbirləri ilə əhatə edib.**

Onlardan 36 min şəxs münasib işlərlə təmin olunub, 228 şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

3,6 min işsiz şəxs üçün isə peşə hazırlığı kursları təşkil olunub, 58,5 min şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Qeyri-neft sektorunun inkişafı sayəsində ölkə iqtisadiyyatının rəqabətə davamlığı artır



**Azərbaycan dünyada neft-qaz ölkəsi kimi ad-san qazanmaqla yanaşı, iqtisadiyyatın qeyri-neft sektorunu inkişaf etdirmək üçün də böyük potensiala malikdir. Ölkədə qeyri-neft sektorunun inkişafı bir sıra zəruri şərtlərdən irəli gəlir. Bunlar dövlət büdcəsinə daxilolmaların tarazlaşdırılması, regionların inkişaf etdirilməsi, ixrac sektorunun formalaşdırılması və digər şərtlərdir.**

Son illər respublikada qeyri-neft sektorunun sürətli və rəqabətədavamlı inkişafının təmin olunması istiqamətində həyata keçirilən iqtisadi islahatlar nəticəsində bu sektorun potensial imkanları genişlənmiş, yeni istehsal sahələri yaradılmış, idxalı əvəz edən məhsulların yerli istehsalı hesabına qeyri-neft məhsulları ilə təminolunma səviyyəsi yüksəlmiş, ixrac qabiliyyəti artmışdır.

Qeyri-neft sektorunun inkişafını daha da sürətləndirmək üçün bu sahəyə birbaşa xarici investisiyalar cəlb etməklə daxili istehsalın rəqabət qabiliyyətinin gücləndirilməsi, idxalın əvəzlənməsi fəaliyyətinin dəstəklənməsi və yerli məhsullarla özünü təminetmə səviyyəsinin daha da yüksəldilməsi, qeyri-neft sektorunun ixrac imkanlarının artırılması - bunlar Prezident İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində strateji məqsədlər kimi müəyyən edilmişdir.

Göründüyü kimi, dövlətimiz hələ xeyli əvvəl təbii resurslardan istifadə edərək iqtisadiyyatı şaxələndirməyi, neftdən asılılığı minimuma endirməyi qarşıya prioritet kimi qoymuşdur. Bunun nəticəsidir ki, indi qeyri-neft sektorunun kənd təsərrüfatı, turizm, nəqliyyat, İTK, tikinti sektorlarında nəzərəçarpan nailiyyətlər əldə olunur.

Deyilənlərə misal olaraq cari ilin əvvəlindən qeyri-neft sektorunun bir neçə sahəsində görülən işləri, qazanılan nailiyyətləri Dövlət Statistika Komitəsinin təqdim etdiyi fakt və rəqəmlərlə çatdıraq. Əvvəla qeyd edək ki, bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 1,2 faiz azalmış, qeyri-neft-qaz sektorunda 0,2 faiz artmışdır.

Qeyri-neft sektorunun aparıcı sahələrindən olan kənd təsərrüfatında ümumi məhsul real ifadədə keçən ilin yanvar-mart ayları ilə müqayisədə 1,1, o cümlədən heyvandarlıqda 0,9, bitkiçilikdə 5,5 faiz artım əldə edilmişdir. Aprelin 1-nə kimi 119,2 min hektar sahədə yazlıq bitkilər əkilmişdir. İlin birinci rübü ərzində heyvandarlıqda quş əti də daxil olmaqla ət istehsalı 1,8 faiz artmışdır.

Ölkənin nəqliyyat sektorunda da işlər ahəngdar gedir. Üç ayda 56,6 milyon ton və ya keçən ilin birinci rübünə nisbətən 1,2 faiz çox yük, 508,5 milyon (7,7 faiz çox) sərnişin daşınmışdır. Yüklərin 60,9 faizi avtomobil, 28,4 faizi boru kəməri, 7,2 faizi dəmir yolu, 3,4 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınmışdır. Sərnişinlərin isə 88,8 faizi avtomobil, 10,5 faizi metro, qalanları digər nəqliyyat növlərindən istifadə etmişlər.

İnformasiya və rabitə müəssisələri bu ilin yanvar-mart aylarında 931,7 milyon manat məbləğində xidmət göstərmişlər. Bu da keçən ilin həmin dövrünə nisbətən 9,2 faiz çoxdur.

Sənaye sektorundakı mənzərəni də bir neçə sahənin timsalında təqdim edək. Emal sənayesində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalı 10, tütün məmulatlarının istehsalı 23,2, içki istehsalı 1,3 faiz artmışdır. Bu sahələrin əsas məhsullarından olan duru bitki yağlarının, siqaret və pivələrin istehsalında artım müşahidə edilmişdir.

Toxuculuq sənayesi, geyim, dəri və ayaqqabı istehsalı sahələrində vəziyyət necədir? Burada xüsusilə toxuculuqda və geyim istehsalında qazanılan nailiyyət nəzərə çarpır - artım müvafiq olaraq 33,3 və 9,4 faizdir.

Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində buraxılan məhsulun həcmi 439,1 milyon manat təşkil etmişdir. Burada əczaçılıq məhsullarının istehsalı 45,4 faiz artsa da, digər məhsulların istehsalı azalmışdır.

Tikinti materiallarının istehsalında artım müşahidə olunur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə artım 12,4 faizdir. Beton yığma tikinti konstruksiyalarının və əhəngin istehsalında rəqəmlər bu göstəricidən xeyli yüksəkdir - 38,3 və 24,6 faiz.

Sənayenin qeyri-neft sahəsində metallurgiyanın özünəməxsus yeri var. Rəqəmlər bu sahə barədə nə deyir? Metallurgiya sənayesi məhsullarının istehsalı 7,6 faizi artmış, hazır metal məmulatlarının istehsalı 16,8 faiz azalmışdır. Sahədə keçən ilin eyni dövründə olduğundan çox alüminium məmulatları və armatur buraxılmışdır.

Ölkənin tikinti sektorunda da böyük canlanma var. Belə ki, cari ilin yanvar-mart aylarında sosial və iqtisadi sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2025-ci ilin ilk 3 ayı ilə müqayisədə 14,9 faiz çox investisiya yönəldilmişdir. Qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi üstünlük təşkil etmişdir.

Bu ilin əvvəlindən "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası, Sumqayıtda Güzgü Vərəqələrin İstehsalı Zavodu, karton və qutu taralarının istehsalı müəssisəsi, "Abşeron" Batereya Enerji Saxlanc Mərkəzi, Lənkəran Dövlət Peşə Təhsil Mərkəzi istifadəyə verilmişdir. İstismara daxil olan yeni müəssisə və obyektlər sırasında Qarabağda və Şərqi Zəngəzurda tikilənlərin xüsusi önəmi var. Belə ki, ötən aylarda Ağdərə rayonunda "Qozlukörpü" Su-Elektrik Stansiyası, Xocalı rayonunda Soyqırımı Memorialı və digər obyektlər istifadəyə verilmişdir.

Prezident İlham Əliyevin 2025-ci il sentyabrın 22-də Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına ünvanladığı müraciətində vurğulanıb ki, 2021-2024-cü illərdə qeyri-neft sektoru hər il orta hesabla 6,7 faiz artmış və onun ümumi iqtisadiyyatda payı 68 faizə yüksəlmişdir: "Qeyri-neft ixracı son altı ildə demək olar ki, iki dəfə artmışdır. Bu da ölkəmizin rəqabət qabiliyyətinin yüksəlməsinin əyani göstəricisidir".

Son rəqəmlər də göstərir ki, qeyri-neft-qaz sektorunda istehsal artmaqda davam edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Ötən həftənin iqtisadi icmalı

## Aerokosmik konfrans, Biznes Keys Müsabiqəsi və 5-ci Antalya Diplomatik Forumu...

**Ötən həftə qlobal və regional iqtisadiyyatda bir sıra diqqətçəkən hadisələr baş verdi. Maliyyə bazarlarında dalğalanmalar müşahidə olundu, əsas iqtisadi göstəricilər açıqlanaraq bazar iştirakçılarının davranışına və ümumi bazar trendlərinə təsir göstərdi.**

Enerji qiymətlərindəki dəyişikliklər, inflyasiya ilə bağlı yeni məlumatlar və geosiyasi inkişaflar iqtisadi gündəmin diqqət mərkəzində oldu. Biz bu yazıda Azərbaycanda baş verən iqtisadi və biznes hadisələrini, həmçinin beynəlxalq səviyyədə ölkəmizin iştirakı ilə həyata keçirilən strateji təşəbbüsləri əks etdirəcəyik.

Ötən həftə iqtisadi gündəmdə diqqətçəkən hadisələrdən biri Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin aprelin 13-də keçirilən iclası olub. İclasda Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatı müzakirəyə çıxarılıb, palatanın audit və analitik fəaliyyəti çərçivəsində görülmüş işlərin nəticələri qiymətləndirilib.

İclasda vurğulanıb ki, hesabat qanunvericiliyin tələblərinə uyğun hazırlanıb və komitə öz rəyini Milli Məclisin plenar iclasına təqdim etməlidir. Palatanın 2021-2025-ci illər üzrə strateji planının icra vəziyyəti, səmərəlilik auditlərinin genişləndirilməsi, şəffaflığın artırılması və rəqəmsal transformasiya istiqamətindəki fəaliyyətləri ətraflı şəkildə iştirakçıların diqqətinə çatdırılıb. Hesabat çərçivəsində 2021-2025-ci illər üzrə strateji planın icrası, səmərəlilik auditlərinin həyata keçirilməsi və palatanın fəaliyyətində şəffaflığın artırılması istiqamətində görülən işlər təqdim olunub. 5 illik dövrdə 26 səmərəlilik auditi keçirildiyi, onların ümumi əhatə dairəsinin 4,1 milyard manatdan çox olduğu bildirilib.

2025-ci ildə 15 audit və analitik fəaliyyət həyata keçirilib, əsaslı xərclərdə qanun pozuntuları müəyyən edilib, investisiya layihələrinin maliyyə göstəricilərində düzgün hesablama və aktivlərin tanınmasında nöqsanlar aşkar olunub. Audit nəticəsində 303 tədbir müəyyən olunub və dövlət maliyyə nəzarəti sahəsində əlavə dəyər yaradılıb. Hesabat əsasında komitə öz rəyini Milli Məclisin plenar iclasına təqdim etmək qərarına gəlib.

* * *

Qlobal iqtisadi proseslər davam edərkən, Azərbaycanda ilk "Kosmik Vətən" konfransı Bakıda təşkil olunub. Tədbirin əsas məqsədi ölkədə aerokosmik sahədə fəaliyyət göstərən müxtəlif federasiyalar, ictimai birliklər, inkişaf mərkəzləri, klublar və komandaları bir araya gətirərək mövcud vəziyyəti təhlil etmək və gələcək inkişaf istiqamətlərini müzakirə etmək olub.

Konfrans çərçivəsində cari ildə ölkədə keçiriləcək IV Aerokosmik Modelçilik Festivalı barədə məlumat verilib. Tədbirin bu il Qarabağ iqtisadi rayonunda təşkil ediləcəyi, yarışların sayının artırılaraq 12 kateqoriya üzrə keçiriləcəyi bildirilib. Xüsusilə bu il ilk dəfə keçiriləcək "Naqilsiz rabitə" yarışına diqqət ayrılıb. Tədbir radiohəvəskarları və radio-modelistləri bir araya gətirəcək, bu sahənin inkişafına töhfə verəcək və iştirakçılara beynəlxalq efirə çıxış imkanı yaradacaq.

Tədbirdə həmçinin aerokosmik sahədə regional gənclərin cəlb olunmasının, texniki idman növlərinin bir platformada birləşdirilməsinin və yerli kadr potensialının formalaşdırılmasının vacibliyi vurğulanıb. Yekunda "Kosmik Vətən" anlayışının yalnız emosional deyil, həm də milli təhlükəsizlik və funksional suverenliyin təmin olunması baxımından strateji əhəmiyyəti qeyd olunub.




* * *

Aerokosmik sahədə əldə edilən uğurlardan sonra ölkədə gənclərin biznes bacarıqlarını artırmağa yönəlmiş tədbirləri həftənin iqtisadi gündəmindən dolayı önəmli yer tutub. Aprelin 14-də "Azercell"in dəstəyi ilə "Azərbaycan Biznes Keys Müsabiqəsi 2026" baş tutub.

Bu il müsabiqəyə təxminən 100 komanda müraciət edib. Seçim mərhələlərini uğurla keçən komandalar xüsusi təlim proqramlarında iştirak edərək real biznes problemləri üzərində işləyiblər. Yarışmanın final mərhələsində komandalar müxtəlif şirkət və qurumları təmsil edən münsiflər qarşısında ideya və təşəbbüslərini təqdim ediblər.

Qalib komandalar müvafiq olaraq 8000, 4000 və 2000 manat məbləğində pul mükafatları ilə təltif olunub ki, bu da gənclərin hazırlığı və praktiki bacarıqlarının inkişafına əlavə dəstək rolunu oynayıb.

* * *

İnkarolunmaz faktdır ki, dövlət və beynəlxalq səviyyədə həyata keçirilən strateji əməkdaşlıqlar ölkənin qlobal investisiya proseslərinə inteqrasiyasını gücləndirir. Bu mənada aprelin 15-də Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), Çin İnvestisiya Korporasiyası və İndoneziya İnvestisiya Qurumunun "Galaxy Orientis" Çin - ASEAN İnvestisiya Platformasının yaradılmasında birgə iştirakını qeyd edə bilərik.

Qeyd edək ki, ilk olaraq "Galaxy Orientis" Çin - ASEAN-ın yaradılmasına təxminən 520 milyon dollar məbləğində vəsait cəlb olunub, ümumi hədəf isə 1 milyard dollar təşkil edir. Platforma Çin və ASEAN regionu arasında uzunmüddətli investisiya imkanlarının reallaşdırılmasına və sənaye əməkdaşlığının gücləndirilməsinə xidmət edir. Əsas prioritet sahələrə sənaye, səhiyyə, istehlak, biznes xidmətləri və innovativ texnologiya daxildir.

İnvestisiyalar Çin və ASEAN şirkətlərinin bazarlara çıxışını genişləndirməyə, texnologiya və təchizat zəncirlərindən faydalanmağa yönələcək. Proqramın idarə olunmasında təcrübəli beynəlxalq tərəfdaşlar platformanın effektiv fəaliyyətinə dəstək verirlər.

* * *

Azərbaycanda beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən tədbirlər iqtisadi, elmi-texniki və mədəni əlaqələrin gücləndirilməsinə mühüm töhfə verir. Bu baxımdan, Şuşada Azərbaycan-Latviya iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 9-cu iclası, eləcə də Zəngilanda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilib.

Hər iki tədbirdə tərəflər ticarət əlaqələrinin genişləndirilməsi, investisiya imkanlarının artırılması, həmçinin sənaye, texnologiya, logistika və digər strateji sahələrdə birgə layihələrin həyata keçirilməsi məsələlərini müzakirə ediblər. Həmçinin mədəni və elmi əməkdaşlıq sahəsində yeni təşəbbüslərin dəstəklənməsi, təhsil və texnoloji transfer imkanlarının artırılması kimi mövzular gündəmdə xüsusi yer alıb.

Ölkədə və beynəlxalq arenada iqtisadi və diplomatik fəaliyyətlər davam edib. Lakin ötən həftənin ən yadda qalan və strateji əhəmiyyətli hadisəsi İlham Əliyevin Rəcəb Tayyib Ərdoğanın dəvətilə Türkiyəyə gedərək 5-ci Antalya Diplomatiya Forumunda iştirakı olub. Cari geosiyasi gərginliklər, dəyişən güc balansları və ticarət maneələri fonunda tədbirin əsas mövzusu "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" olub. Forum liderlərə riskləri və imkanları qiymətləndirmək, strateji planlar hazırlamaq və əldə olunan razılaşmaları əməli addımlara çevirmək imkanları təqdim edib.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 başçının müavini, 39 xarici işlər naziri daxil olmaqla 50-dən çox nazir və 75 beynəlxalq təşkilat nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli nümayəndə iştirak edib. Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla 40-dan çox tədbir və sessiya keçirilib.

Tədbirdə Azərbaycanın iştirakının məqsədi beynəlxalq əməkdaşlıq əlaqələrini gücləndirmək, iqtisadi, enerji və ticarət sahələrində yeni perspektivlər yaratmaq, həmçinin strateji müstəvidə ölkənin mövqeyini möhkəmləndirmək olub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





**Ölməzliyə qovuşanlar**

# "Şəhidlik cəsurları qorxutmur"

**Yenicə yaranmağa başlayan ordumuza ilk könüllü gələnlərdən biri də ürəyi Vətən eşqi ilə döyünən Tofiq Məmmədov oldu. Bu addımı atmaqda onun məqsədi əldə silah Qarabağı erməni işğalçılarından qorumaq idi. Onda hələ nə Şuşa, nə də Laçın işğal olunmuşdu. Dünyanı sarsıdan Xocalı faciəsi də baş verməmişdi.**



Erməni qəsbkarlarının təxribatı nəticəsində alovlanan Qarabağ müharibəsi başqaları kimi Tofiqin də həyatının nizamını pozdu. Erməni separatçılarının əbədi-əzəli Azərbaycan torpaqları olan Qarabağda dinc insanları öldürməsinə, kənd-kəsəkləri viran qoymasına, evləri yandırmasına dözə bilməyən Tofiq orduya yazıldı. 1991-ci il dekabr ayının 5-də Şəhidlər xiyabanında əsgərlərin ilk andiçmə mərasimi keçirildi. Qarabağın müdafiəsinə yollanan Tofiq Məmmədov da həmin əsgərlərin arasında idi. Dekabrın 9-da isə o, həyat yoldaşı, uşaqları və valideynləri ilə sağollaşıb Qarabağa yola düşdü. İlk dəfə gördüyü bu yerlərin gözəlliyinə heyran olan Tofiq Məmmədov ermənilərə qarşı cəsarətlə vuruşdu. İstəmirdi ki, bu gözəl yerlərin bir qarışı belə düşmən əlinə keçsin.

25 dekabr 1991-ci ildə Tofiq Məmmədovun da daxil olduğu bölüyün 25 nəfərini Kərkicahan qəsəbəsinin müdafiəsinə göndərdilər. Həmin vaxt bu yaşayış məntəqəsi uğrunda qanlı döyüşlər gedirdi. Düşmən nəyin bahasına olursa-olsun, böyük strateji əhəmiyyəti olan Kərkicahanı ələ keçirməyə çalışırdı. Dekabrın 27-dən 28-nə keçən gecə erməni qüvvələri Xankəndi istiqamətindən genişmiqyaslı hücuma keçərək Kərkicahanı mühasirəyə aldılar. Şiddətli döyüş 6 saatdan çox davam etdi. Bir an belə silahlar susmadı, atəş səsləri kəsilmədi. Dağlara, daşlara od püskürən bu qeyri-bərabər döyüşdə Azərbaycan Ordusunun ilk əsgərləri müdafiə xəttindən geri çəkilmədən sonadək vuruşdular. Bacardıqları qədər separatçılara ciddi müqavimət göstərdilər. Vəziyyət daha da gərginləşəndə, mühasirə dairəsi daralanda əsgərlərdən 5-i mühasirəni yararaq Şuşaya qayıda bildi. 11 yaralı əsgər və zabit əsir alındı, yerdə qalanlar isə şəhid oldular. Cəsur əsgər Tofiq Məmmədov da həlak olanların arasında idi.

Tofiq Əbülfət oğlu Məmmədov 1958-ci il dekabrın 27-də anadan olub. Orta təhsilini indi onun adını daşıyan orta məktəbdə alıb. Təlim-tərbiyəsi, nizam-intizamı ilə seçilən şagirdlərdən olan Tofiq 18 yaşı tamam olanda əsgəri xidmətə çağırılıb. Keçmiş sovet ordusunun sıralarında Gürcüstanın Axalkalaki rayonunda qulluq edib. Hərbi xidmətdən qayıtdıqdan sonra işə düzəlib. Ailə həyatı qurub Tanrıdan qismətinə düşən ömrünü yaşayırdı. Əgər erməni separatçıları Qarabağı işğal etmək üçün müharibə başlatmasaydı, Tofiq həyatını elə bu axarla da davam edəcəkdi.

Tofiqin komandiri olmuş Mehman Hüseynov onun son döyüşünü xatırlayaraq dedi ki, qəfil həmlə ilə hücuma keçən düşmənin qarşısını almaq olduqca çətin idi: "Çünki qəsbkarların canlı qüvvəsi bizimkindən qat-qat çox idi. Dörd saata yaxın mühasirədə vuruşduq. Əsgərlərimiz ölümdən qorxmadan qəhrəmanlıqla döyüşürdülər. Ermənilər itki verdikcə azğınlaşır, hücumlarını daha da gücləndirirdilər. Bu qanlı döyüşdə 7 əsgərimiz şəhid oldu, bir neçəsi isə ağır yaralandı. Sağ qalanlar geri addım atmır, qisas və nifrət hissi ilə vuruşurdular. Tofiq igidlik göstərirdi. O, 20-dən çox düşmən döyüşçüsünü məhv etdi. Əməliyyatın qızğın çağında sürünə-sürünə yanıma gəlib dedi ki, komandir, hərbi sursatım qurtarıb. Özümdə qalan patronların yarısını ona verdim. Bir az keçmişdi ki, Tofiqin yaralandığını eşitdim. Tez özümü onun yanına çatdırdım. Yarası çox ağır idi. O, Vətən torpaqları uğrunda qəhrəmancasına şəhid oldu. Tofiq torpağını, Vətənini, millətini sevən oğlan idi. Heç vaxt ölümdən qorxmazdı. Bəlkə də elə ona görədir ki, mən hələ də onun ölümünə inana bilmirəm, daha doğrusu, inanmaq istəmirəm".

Tofiq "Ana", "Vətən", "Torpaq" sözlərini yazmağı da, onun uğrunda ölməyi də Badamdar qəsəbəsindəki 239 nömrəli orta məktəbdə öyrənmişdi. İndi həmin məktəb onun adını daşıyır. Bir vaxtlar T.Məmmədovun sinif rəhbəri olmuş ədəbiyyat müəllimi Afət Əhmədova qəhrəman şagirdi haqqında ürək ağrısı ilə danışdı. Dedi ki, Tofiqin ölüm xəbəri onu yaxından tanıyanları çox sarsıtdı.



Ürəyində oğul dərdi, bala nisgili gəzdirən Bədircahan ana danışdıqca göz yaşlarını saxlaya bilmirdi:

- Tofiq dekabr ayının əvvəllərində dedi ki, bir neçə gündən sonra Qarabağa gedir. Əvvəlcə istədim onu bu yoldan çəkindirim. Sonra gördüm ki, bu iş baş tutan deyil. Çünki həmişə evdə Qarabağ müharibəsindən söz düşəndə deyirdi ki, yurdumuza göz dikən düşməni bax, bu əllərimlə boğub öldürmək istəyirəm. Cəbhəyə yola düşməzdən bir neçə gün əvvəl mənə dedi ki, əgər şəhid olaramsa, ağlayıb göz yaşları tökməzsən, o ağaran saçlarını yolmazsan, qara geyinib gəzməzsən, qoy dost-tanış səni gözüyaşlı görməsin.

Gedəndən 10 gün sonra evə zəng vurmuşdu. Körpələri ilə danışmaq istədi. Amma uşaqlar evdə yox idi. Dedi ki, sabah da zəng vuracağam, qoy uşaqlar evdə olsun, heç olmasa səslərini eşidim. Ertəsi gün axşam çox gözlədik, amma ondan zəng gəlmədi. Axı hardan biləydik ki, dünənki zəng balamın son zəngi imiş. İlin son günü, dekabrın 31-i axşam telefonumuz zəng çaldı. Dəstəyi qaldırdım. Fikirləşdim ki, yəqin Tofiqdir, zəng vurub Yeni ilimizi təbrik etmək istəyir. Amma zəng vuran hərbçi yoldaşı oğlumun şəhid olduğunu dedi. Quruyub yerimdə qaldım. Bir an içində dünya gözlərimdə qaranlığa büründü. Başımı itirdiyimdən zəng vuranın kim olduğunu, haradan danışdığını da soruşmadım. Müdafiə Nazirliyinə, hərbi hissəyə zəng vurduq, amma dəqiq xəbər ala bilmədik. Hər yerdən əlimiz üzüləndən sonra elə fikirləşdim ki, bəlkə kimsə bizi səhv salıb. Gecə səhərə kimi gözlərimə yuxu getmədi. Oğlumun şəhid olmağına inana bilmirdim. Səhər lap ertədən telefon zəng çaldı. Ömrümdə ilk dəfə olaraq qorxa-qorxa dəstəyi qaldırdım. Eşitdiyim sözlər varlığımı sarsıtdı. Zəng vuran bildirdi ki, Tofiqin meyiti məsciddə yuyulub, hazırdır, gəlin aparın. Dilim söz tutmadı. Elə bildim ki, evimiz titrəyir, bütün dünya ayağımın altında əsirdi. Ağlamaqdan göz yaşlarım da qurumuşdu. Yaxınların, doğmaların iştirakı ilə Tofiqi Şəhidlər xiyabanında dəfn etdik.

T.Məmmədov Qarabağ döyüşlərinə ölüm adlı bir körpünün üstündən qorxmadan keçib getmişdi. Bu yolun astanasında o, son ürək sözlərini ağ kağız vərəqləri üzərinə köçürüb qardaşı oğlu Şahinə vermişdi. Tapşırmışdı ki, əgər işdir qayıtmasa, şəhid olsa, vəsiyyətini anasına versin. Tofiqin dəfnindən bir neçə gün sonra Şahin əmisinin son tapşırığını yerinə yetirdi. Onun yazdığı məktub bu sözlərlə başlayırdı: "Qarabağa döyüşməyə getmək niyyətimi tanışlara bildirəndə təəssüf ki, heç kim məni anlamaq istəmədi. Qadınlarımızı başa düşürəm, amma "kişi"lərin "nəyinə lazımdır" kəlməsi küt bıçaq kimi ürəyimi deşirdi. Mən bu gün torpaq uğrunda ölməyə hazır olan türk oğullarının arasında olduğuma görə fəxr edirəm. Mənim üçün Ana, Torpaq kəlmələri, sadəcə, quru sözdən ibarət deyil. Ona görə qərara gəldim ki, mənim yerim oradır - ön cəbhədir, döyüş meydanıdır, barıt qoxulu səngərlərdir".

Tofiq 20 gün gecə-gündüz erməni quldurları ilə ölüm-dirim mübarizəsi apardı. Qanlı döyüşlərdən şərəfli ölümü ilə üzüağ çıxdı. T.Məmmədov vəsiyyətini bu sözlərlə bitirmişdi: "Vətənin azadlığı uğrunda ölmək həm asandır, həm də çətin. Amma bu şəhidlik cəsurları qorxutmur".

239 nömrəli təhsil ocağının pedaqoji kollektivi və şagirdləri onun adını həmişə uca tutur, xatirəsini hörmətlə yad edirlər. Məktəbin həyətindəki büstünün qarşısında həmişə tər qərənfillər olur. Sabahımız olacaq gənclər igidliyi, vətənpərvərliyi onun kimi cəsur oğullardan öyrənirlər. Xalqımız Tofiq kimi qəhrəmanları həmişə qəlbində və ürəyində yaşadır və yaşadacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Milli Qəhrəman Samid İmanovun 45 illik yubileyi qeyd olunub




**Neftçalada 2016-cı ilin aprel ayında şəhid olan Milli Qəhrəman Samid Gülağa oğlu İmanovun 45 illik yubileyi və anım günü qeyd olunub. Tədbir iştirakçıları Samid İmanovun və şəhid olan digər hərbi qulluqçuların məzarlarını ziyarət ediblər, önlərinə gül dəstələri düzüblər və ruhlarını ehtiramla yad ediblər.**

Heydər Əliyev Mərkəzində davam edən tədbirdə Milli Qəhrəmanın şəxsi əşyalarından və eksponatlardan ibarət sərgiyə baxış keçirilib, şərəfli ömrü və döyüş yolu ilə bağlı məlumat verilib.

RİH-in başçısı M.Seyidov çıxışında bildirib ki, 2016-cı ilin Aprel döyüşləri Azərbaycanın hərb tarixində mühüm mərhələ olmaqla yanaşı, böyük Zəfərə aparan yolun başlanğıcı olub: "Həmin döyüşlər zamanı Azərbaycan Ordusu yüksək döyüş hazırlığı, peşəkarlıq və qəhrəmanlıq nümayiş etdirərək mühüm strateji mövqeləri azad etdi. Aprel döyüşlərində Azərbaycan Ordusunun gücü və döyüş ruhu bir daha təsdiqləndi. Bu uğurun davamı olan 44 günlük Vətən müharibəsi Azərbaycanın Zəfəri ilə başa çatdı. Ölkəmizin ərazi bütövlüyü bərpa olundu və şəhidlərimizin qanı yerdə qalmadı".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Tənzilə Rüstəmxanlı, Milli Qəhrəman Samid İmanovun anası Xuraman İmanova, həyat yoldaşı Badam İmanova, Vətən Müharibəsi Qəhrəmanı şəhid Camal İsmayılovun anası Filarə İsmayılova və başqaları Samid İmanovun Vətənə sonsuz sədaqəti, peşəkarlığı və yüksək mənəvi keyfiyyətləri ilə hər zaman seçilən hərbçilərdən biri olmasını, xidmət etdiyi müddətdə üzərinə düşən bütün tapşırıqları layiqincə yerinə yetirdiyini, döyüş yoldaşları arasında böyük hörmət və nüfuz qazandığını bildiriblər. Qeyd edək ki, şəhid Samid Gülağa oğlu İmanov 14 oktyabr 1981-ci ildə Neftçalanın Həsənabad qəsəbəsində anadan olub. 2016-cı il aprel ayının 3-dən 4-nə keçən gecə təmas xəttində başlanan döyüşlər zamanı böyük şücaət göstərib və qəhrəmancasına şəhid olub. Aprelin 9-da Neftçala şəhər Şəhidlər xiyabanında dəfn olunub.

Mayor Samid İmanov xidməti dövründə "Hərbi xidmətdə fərqlənməyə görə" II və III dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı, "Qüsursuz xidmətə görə" II və III dərəcəli medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı və "Qızıl Ulduz" medalları ilə təltif olunub. Azərbaycan Prezidenti İlham Əliyevin 2016-cı il 19 aprel tarixli sərəncamı ilə ölümündən sonra ona Azərbaycanın Milli Qəhrəmanı adı verilib.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Bir elin oğlu oldu



**Mingəçevir şəhər rəhbərliyi, hüquq-mühafizə orqanlarının nümayəndələri, hərbi komissar Aprel şəhidi Teymur Qasımovun ailəsini ziyarət ediblər.**

ŞİH-in başçısı İlham İsmayılov Teymur Qasımova, Aprel şəhidlərinə, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərimizə Allahdan rəhmət diləyib. Düşmənin yurdumuzda törətdiyi vəhşiliklərdən, məkrli planlarından danışılıb, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ordu quruculuğu sahəsində görülən işlər vurğulanıb, Aprel döyüşlərinin əhəmiyyəti qeyd olunub. Bildirilib ki, Aprel döyüşləri böyük qələbənin başlanğıcı oldu. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu qələbənin ardından 2020-ci ildə 44 günlük Vətən müharibəsi xalqımıza Zəfərin təntənəsini yaşatdı.

O da bildirildi ki, şəhidlərin ailə üzvlərinə diqqət və qayğı göstərmək bizim vətəndaşlıq borcumuz və təbii ki, həm də Prezidentin tapşırığı, tövsiyəsidir. Xatırlandı ki, Mingəçevirdən olan 4 Aprel şəhidi ailəsinin mənzil problemləri öz həllini tapıb. İki ailəyə mənzil verilib, iki ailə üçün isə ev inşa olunub. Sonra ziyarətdə iştirak edən şəhidin döyüş yoldaşları, qonaqlar Aprel döyüşləri, Vətən müharibəsi ilə bağlı xatirələrini bölüşüblər.

Şəhidin anası Gülnarə Qasımova göstərilən diqqət və qayğıya görə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, Mingəçevirin digər Aprel şəhidləri - Adil Adilzadənin, Rüstəm Əhmədovun və Rahim Tağıyevin də ailələri unudulmur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Tovuzda Aprel şəhidinin anım günü keçirilib

**Tovuzda Aprel döyüşlərində qəhrəmancasına döyüşərək şəhid olmuş Mirsalam Cəfərovun anım günü qeyd olunub. Mərasim şəhidin doğulub boya-başa çatdığı Bayramlı kəndində keçirilib.**



İştirakçılar əvvəlcə şəhidin məzarını ziyarət ediblər. Çıxış edən YAP rayon təşkilatının sədri Nihad Pənahov bildirib ki, Aprel zəfərinin qazanılması üçün döyüşən igidlərimizdən biri də Mirsalam Cəfərov olmuşdur. O, göstərdiyi şücaətlə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazmışdır.

Sonra şəhidin anası Qızxanım Cəfərova çıxış edərək şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

**Tarix yazan oğullar**

# Zirvədə tamamlanan ömür

**Vətən, sadəcə, bir torpaq parçası deyil, o, min illərin yaddaşı, anaların duası, şəhid qanı ilə yoğrulmuş müqəddəs bir əmanətdir. Bu əmanəti qorumaq isə ürəyində vətən sevgisini daşıyan, canından belə keçməyə hazır olan igid oğullara nəsib olur.**



Erməni işğalçıları uzun illər xalqımıza doğma torpaqlarımızın həsrətini yaşatdı. Bu həsrət hər bir azərbaycanlının qəlbində zaman-zaman köz kimi yanaraq alovlanıb böyük bir inama çevrilirdi. 2020-ci ildə başlanan Vətən müharibəsi bu həsrətin sonu, milli qürurumuzun bərpası oldu.

Bu müharibə bir xalqın ləyaqət savaşı, tarix qarşısında öz sözünü demək anı idi. Cəbhədə döyüşən igidlərimiz yalnız torpaq uğrunda yox, həm də gələcək nəsillərin azad yaşaması uğrunda canlarını fəda etdilər.

Hadrut və Suqovuşan istiqamətində gedən ağır döyüşlər isə bu mübarizənin taleyini müəyyənləşdirən əsas məqamlardan idi. Xüsusən Hadrutun azad olunması Şuşaya gedən yolun açılması baxımından strateji əhəmiyyət daşıyırdı. Bu strateji qəsəbə uğrunda gedən döyüşlərdə igidlərimiz misilsiz qəhrəmanlıq göstərərək tarix yazdılar.

Vətən sərhəddən başlayır. O sərhədləri qoruyanlar isə bu müqəddəs amalın keşiyində duran qəhrəmanlardır. Onlar üçün Vətən anlayışı həyatın mənasıdır. Məhz belə qəhrəmanlardan biri də Vətənə sədaqəti ilə seçilən, sərhəddən başlayan müqəddəs borcunu döyüş meydanında şərəflə davam etdirən gizir Əli Məmmədov idi.

Əli Məmmədov 2000-ci il aprelin 13-də Yevlaxda dünyaya göz açmışdı. Zeynal və Almaz Məmmədovların böyütdüyü bu vətənpərvər gənc hələ məktəb illərindən intizamı, məsuliyyəti, sakit, lakin qətiyyətli xarakteri ilə seçilirdi. Yevlax şəhəri Qənbər Məhərrəmov adına 4 saylı tam orta məktəbdə aldığı təhsil onun həyat yolunun bünövrəsini formalaşdırmışdı.

Hərbi xidmətə yollanarkən Əlinin daxilində böyük bir amal, Vətəni qorumaq kimi müqəddəs sevgi boy atmışdı. 2018-ci ildə Dövlət Sərhəd Xidmətinin Horadiz sərhəd dəstəsində xidmətə başlayan Əli qısa zamanda özünü məsuliyyətli və cəsur sərhədçi kimi göstərdi. Cənub sərhədlərimizin keşiyində dayanaraq sərhəd pozucularına qarşı qətiyyət nümayiş etdirdi, xidməti fəaliyyəti ilə seçildi.

Peşəkar sərhədçi olmaq arzusu onu yenidən ordu sıralarına qaytardı. 2020-ci ilin fevralında Çevik Hərəkət Qüvvələrinin Artilleriya briqadasında istehkamçı-minaaxtaran kimi xidmətə başlayan kiçik gizir Əli Məmmədov qısa müddətdə peşəkarlığı ilə yoldaşlarının hörmətini qazandı.

44 günlük Vətən müharibəsi başlayanda isə Əli artıq öz yerini bilirdi. O, ön cəbhədə, ən çətin istiqamətdə yer alaraq Hadrut uğrunda gedən ağır döyüşlərdə iştirak edirdi.

Payızın sərt küləyi dağların ətəyində uğuldayırdı. Hadrut istiqamətində irəliləyən bölmənin qarşısında minalanmış sahələr, düşmənin möhkəmləndirilmiş mövqeləri dayanırdı. Əli və onun kimi istehkamçılar üçün bu, ölüm-dirim anı idi. O, sakit və diqqətlə torpağı yoxlayır, yoldaşlarının irəliləməsi üçün təhlükəsiz yol açırdı. Onun hər addımında ölüm gizlənirdi, amma Əlinin ürəyində, ruhunda, baxışlarında qorxu yox, qətiyyət vardı.

Hiyləgər düşmən mərd oğullarımız üçün tələ qurmuşdu. Birdən düşmənin atəşi gücləndi, güllələr daşa, torpağa çırpılır, partlayış səsləri ətrafı bürüyürdü. Əli isə geri çəkilmirdi. O, sonuncu maneəni də zərərsizləşdirərək döyüş yoldaşlarının irəliləməsi üçün şərait yaratdı. Ürəyi Vətən həsrəti ilə tonqal kimi alovlanıb işıq saçan oğullarımız bilirdi ki, bu yüksəklik alınacaq.

Qəhrəmanlıq bəzən ən ağır bədəllə yazılır. 2020-ci il oktyabrın 9-da Hadrut döyüşləri zamanı Əli Məmmədov kimi cəsur bir döyüşçü Vətən uğrunda canını fəda edərək şəhidlik zirvəsinə ucaldı. Onun yarımçıq qalan ömrü, əslində, tamamlanmış bir həyatın nümunəsi oldu. Əli Məmmədov Vətənə olan borcunu son nəfəsinə qədər yerinə yetirdi.

Bu gün Əli Məmmədovun adı təkcə bir ailənin, nəslin yox, bütöv bir elin, obanın qüruruna çevrilib. Onun kimi igidlərin sayəsində torpaqlarımız azad olunub, bayrağımız zirvələrdə dalğalanıb.

Şəhidlər ölmür, onlar xalqın yaddaşında yaşayır, hər azad şəhərdə, hər dalğalanan bayraqda, hər qazanılan qələbədə yenidən doğulurlar. Əli Məmmədov da o ölməzlərdən biridir - Vətənin yaddaşına yazılan bir ad, gələcək nəsillərə örnək olan bir qəhrəman.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● TOLERANTLIQ

## Müqəddəs Məryəm Ananın Dua Örpəyi Kilsəsi

**Ölkəmizdə bütün dini abidələrə tolerant münasibət var. Belə abidələrdən biri də Qubanın Hacıhüseynli kəndindəki Müqəddəs Məryəm Ananın Dua Örpəyi Kilsəsidir.**





Öncə onu qeyd edək ki, kilsənin tikildiyi bu kənd 1892-ci ilə qədər də Hacıhüseynli adlanırdı. Həmin illər Rusiyanın xüsusi nümayəndəsi kəndə gəlir və bir neçə gün ərazini dolanır. Sonra məktubla mərkəzə müraciət edir. Tezliklə cavab məktubu gəlir və bundan sonra - 1891-ci ildə kəndin yerli türk əhalisi köçürülür və onların yerinə əraziyə ruslar yerləşdirilir. Qısa zamanda kənddə rus üslubunda evlər tikilir. Türklərə mənsub olan bütün dini tikililər sökülür. Digər ərazidə yaşayan müsəlman əhalidən alınan vergi təmənnasız olaraq buraya köçürülən ruslara verilir. Yeni köçürülənlərin böyük hissəsi beləcə heç bir iş görmədən gəzir dolanır, onlara ərzaq isə yaxınlıqdakı kəndlərdən gətirilirdi. Bir qədər sonra Hacıhüseynli kəndinin adı dəyişdirilərək Bakı qubernatoru Vladimir Roggenin həyat yoldaşının şərəfinə Yelenovka adlandırılır.

Eyni dövrdə ətraf ərazilərdə başqa 3 rus kəndi də salınır. Yeni köçürülən rusların istəyi ilə Yelenovka kəndində kilsənin tikilməsi ilə bağlı qərar qəbul olunur. Tikinti üçün rus imperiyasının daxili işlər nazirliyi vəsait ayırır. Kilsənin memarı mühəndis Pavel Koqnovitski, podratçısı isə Mir İsmayıl Mirzəyev olur. Kilsənin tikintisi 1897-ci ildə yekunlaşır. Kilsədə ibadət edənlər əsasən Yelenovka, Aleksandrovka, Petropavlovka və Borispol kəndlərinin sakinləri olurlar.

Sovet işğalından sonra kilsədə Müqəddəs Məryəm Ananın ibadəti yasaqlanıb və kilsənin binasından anbar kimi istifadə olunub. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra isə kilsənin binası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.

İndi Qubaya təşrif buyuran turistlər kilsəni ziyarətə gəlirlər. Tolerantlığın canlı nümunəsi olan kilsə Azərbaycanda insanların dini dünyagörüşünün azad olduğuna bir nümunədir.

*Abutalıb TURABOV,*
*Quba Soyqırımı Memorial Kompleksinin əməkdaşı*

● UĞUR

## Lerikdə doğuldu, Bakıda ali təhsil aldı, indi sorağı Almaniyadan gəlir

**Səidə Nağızadə 1995-ci ildə Lerikin Vizəzəmin kəndində anadan olub. Orta təhsilini Əbülfət Musayev adına kənd tam orta ümumtəhsil məktəbində alan bu mehriban, vətənpərvər, fitri istedada malik qız yüksək biliyi və çalışqanlığı ilə seçilib, nümunə göstərilib.**



2012-ci ildə - XI sinifdə oxuduğu zaman respublika fənn Olimpiadasında biologiya fənni üzrə IV yerə layiq görülüb. Başqa uğurları da olub və hər uğuru ona məqsədinə çatmaq üçün stimul verib.

Səidə məktəbi qurtarıb sənədlərini Azərbaycan Dövlət Tibb Universitetinin Müalicə işi fakültəsinə verdi. Yuxusuz gecələri, oxuyub öyrəndikləri bəhrəsini verdi - seçdiyi ali məktəbə daxil oldu. Yenə də gecəni gündüzə qatıb yaxşı həkim olmaq üçün çalışdı və 2018-ci ildə ali təhsilini uğurla başa vurdu. Sonra Almaniyada tibbi diplomunun tanınması və aprobasiya imtahanlarını verərək həkimliyə başladı.

Səidə Nağızadə 2021-ci ildən etibarən Almaniyada çalışır, eyni zamanda Şimali Reyn-Vestfaliya əyalətində nevrologiya ixtisası üzrə rezidentura təhsili alır. Xoşbəxtliyini sevib-seçdiyi həkimlik peşəsində görən Səidə xanım işinə vicdanla yanaşır, təmiz, ali duyğularla həkimlik peşəsinin şərəfini uca tutur.

*Zəfər ORUCOĞLU,*
*Lerik rayonu*

AZƏRBAYCAN-a cavab verirlər

## Su ötürücülərinin tikintisi mərhələlərlə həyata keçiriləcək

**Qəzetinizin 28 fevral 2026-cı il tarixli sayında dərc edilmiş "Evlərimiz təhlükədədir" sərlövhəli oxucu məktubuna Abşeron Rayon İcra Hakimiyyətində baxılmışdır.**

Məlumat üçün bildiririk ki, Masazır kəndindəki relyefinə görə çökək olan sözügedən ərazi "Qır gölü" adlanan təbii gölün ərazisidir. 2006-cı ildən qeyd olunan gölün ərazisi vətəndaşlar tərəfindən torpaq tökülərək qurudulmağa başlanılmışdır. Qurudulmuş ərazidə onlarla fərdi yaşayış evi tikilmişdir.

Hazırda gölün su qalan hissəsində suyun səviyyəsnin artmasının qarşısının alınması məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən nasosxana quraşdırılmışdır.

Son günlər yağıntıların artması nəticəsində gölün səviyyəsi qalxmış və bəzi həyətyanı sahələri su basmışdır.

Həmçinin bildiririk ki, Masazır kəndində kanalizasiya və yağıntı sularının ötürülməsi üçün mərkəzləşdirilmiş kanalizasiya şəbəkəsi quraşdırılmamışdır.

"Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin imzaladığı 12 yanvar 2026-cı il tarixli sərəncamına əsasən, tərtib edilmiş tədbirlər planında su basmasına məruz qalan ərazilərdə su ötürücülərin tikintisi nəzərə alınmışdır və bu işlər mərhələlərlə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən həyata keçiriləcəkdir.

*İlkin ƏSƏDOV,*
*Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini*

● TƏDBİR

## Vacib mövzularda keçirilən tədbirlər bizi maarifləndirir

**Rayonumuzda tez-tez əhalini maraqlandıran, narahat edən mövzularda tədbirlər təşkil olunur. Belə tədbirlərdən biri "Azərbaycan dili: milli kimliyin və mədəni irsin daşıyıcısı" mövzusunda elmi-praktik konfrans idi.**




Konfrans Masallı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzinin Masallı bölməsinin birgə təşkilatçılığı, Masallı Rayon İcra Hakimiyyəti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Pedaqoji Universitetinin Cəlilabad filialı, Masallı Dövlət Regional Kolleci və Lənkəran-Astara Regional Təhsil İdarəsinin Masallı rayonu üzrə Təhsil sektorunun tərəfdaşlığı, Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Masallı rayon komitəsinin dəstəyi ilə keçirilən konfrans elm, təhsil və ictimaiyyət nümayəndələrini bir araya gətirərək Azərbaycan dilinin müasir dövrdə qorunması, inkişafı və təbliği istiqamətində aktual məsələlərin müzakirəsi üçün mühüm platforma oldu. Tədbir çərçivəsində panel müzakirələri və TEDx formatında çıxışlar təşkil edildi. Panel sessiyalarında sahə üzrə mütəxəssislər tərəfindən dil mədəniyyəti, ana dilinin qorunması, qloballaşma şəraitində milli kimliyin saxlanılması kimi mövzular ətrafında geniş fikir mübadiləsi aparıldı, müxtəlif yanaşmalar səsləndirildi. TEDx formatlı çıxışlarda isə gənc natiqlər və ekspertlər öz ideyalarını, şəxsi təcrübələrini və innovativ baxışlarını iştirakçılarla bölüşərək auditoriyaya motivasiyaedici mesajlar verdilər. Qeyd olundu ki, bu kimi tədbirlərin təşkili Azərbaycan dilinin zənginliyinin qorunması, gənc nəslə aşılanması və milli-mədəni dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyət daşıyır.

*Ə.MƏMMƏDOV,*
*Masallı rayonu*

● FOTO

## Çiçəkləri sevməyi, yaşıllığı qorumağı öyrənməliyik

*Bir gülün, bir budağın qədrini bilmək, bir parkı təmiz saxlamaq böyük dəyişikliklərin başlanğıcı ola bilər*









**Qışın soyuq, səssiz günlərindən sonra yazın gəlişi ilə torpaq uzun bir yuxudan oyanır, yenidən nəfəs alır. Tumurcuqlayan ağaclar, yaşıllaşan çəmənlər, isinən hava insanın ruhuna yüngüllük bəxş edir. Bahar təkcə təbiətin deyil, insanın da yenilənməsidir. Torpağın sinəsindən boylanan ilk güllər - zanbaqlar, bənövşələr, yasəmənlər - yazın gəldiyinin səssiz, amma təsirli sorağıdır.**

Bakı da yazın gəlişi ilə donunu dəyişir, daha da gözəlləşir. Küçələrdə, xüsusən sahilboyu ərazilərdə bitən zanbaqlar insanın gözünü oxşayır, ruhuna sakitlik gətirir. Bu gözəllik təsadüfən yaranmır. Bunun arxasında bağbanların zəhməti, sevgisi dayanır. Torpağa toxunan hər əl, əkilən hər çiçək insanların daha gözəl, daha rahat, daha pozitiv bir mühitdə yaşaması üçün edilir.

Ölkəmizdə görülən abadlıq işləri, yaşıllaşdırma layihələri, yeni park və bulvarların salınması təkcə ekoloji məqsəd daşımır. Bu, insanların həyat keyfiyyətini artırmaq, daha sağlam və pozitiv mühitdə yaşamaları, dincəlmələri üçündür. Xaricdən ölkəmizə gələn qonaqlar ilk növbədə şəhərin səliqəsinə, təmizliyinə, yaşıllığına diqqət edirlər. Bir çiçəyin belə qorunması ölkəmizin ekoloji imicinə təsir edir.

Biz təkcə yaradılanı qorumaqla kifayətlənməməli, eyni zamanda nümunə olmağı bacarmalıyıq. Əkiləni qoparmaq əvəzinə, özümüz də abadlaşdırma işlərinə qoşulmalı, yaşadığımız mühiti daha gözəl və daha yaşıl etməyə çalışmalıyıq. Hər birimizin həyətində, eyvanında, pəncərə önündə əkdiyi bir gül, bir dibçək bitkisi belə, yaşıllıqdır, gözəllikdir, özü də bu, sadəcə, estetik məsələ yox, həm də düşüncə tərzidir - yaratmaq, qorumaq və paylaşmaq mədəniyyətidir. Yaşıllığı artırmaq insanın ruhuna sakitlik gətirir, ətraf mühiti daha isti və canlı edir, uşaqlara isə təbiətə sevgi və qayğı hissini öyrədir. Kiçik addımlar zamanla böyük dəyişikliklər yaradır və hər kəs öz yaşadığı məkandan başlayaraq bu gözəlliyin bir parçasına çevrilir.

Biz yaşıllığı qorumağı bacarmırıq. Gözümüzə xoş gələn bir gülü qoparmaq, bununla onu özümüzə yaxınlaşdırmaq, sahib olmaq istəyirik. Halbuki o gül torpaqda daha gözəldir. O, orada bütövdür, canlıdır. Qoparılanda isə solmağa başlayır. Dərilmiş gül güldanda bir neçə gün bizi sevindirə bilər, sonra solacaq. Deməli, biz onu dərməklə bir gözəlliyi məhv etmiş oluruq. Bu günlər min bir əziyyət bahasına əkib becərilmiş güllərə qarşı edilən vandallıq ictimaiyyət arasında haqlı olaraq birmənalı qarşılanmadı. Belə davranış təkcə bir gülün qoparılması yox, ümumi münasibətin göstəricisi idi. Təbiətə, ətrafa olan gözəlliyə münasibətin. Biz bəzən fərqində olmadan özümüz üçün yaradılan harmoniyanı pozuruq. Halbuki qorumaq daha dəyərlidir. Bir gülü torpaqda sevmək daha saf və daha təmiz hissdir.

Yaz bizə, sadəcə, çiçəklər gətirmir. O, bizə dərs də verir. Səbir dərsi - çünki torpaq aylarla gözləyir ki, çiçək açsın. Yenilənmə dərsi - çünki həyat yenidən başlayır. Və ən əsası, qoruma dərsi - çünki bu gözəlliklər yalnız qorunduğu zaman gözəl qalır. Əgər biz, doğrudan da, gözəlliyi seviriksə, onu qorumağı da öyrənməliyik.

Bu məsələ, əslində, daha böyük bir anlayışla bağlıdır - ictimai mədəniyyət və vətəndaş məsuliyyəti ilə. İnkişaf təkcə yeni binaların tikilməsi, yolların salınması, parkların yaradılması ilə ölçülmür. Əsl inkişaf insanların bu yaradılanları necə qoruması ilə ölçülür. Əgər biz əkilən bir gülü qorumuruqsa, sabah daha böyük dəyərləri qorumaqda çətinlik çəkəcəyik.

*Nərminə ƏSGƏROVA,*
*İlham BABAYEV(foto),*
*"Azərbaycan"*

● PROBLEM

## Qəsəbəmiz yağış yağanda keçilməz olur

**Yaşadığımız Məhsəti qəsəbəsi Gəncənin yeni qəsəbələrindəndir. Burada son illər bir sıra infrastruktur layihələri həyata keçirilmişdir ki, bu da sakinlər tərəfindən razılıqla qarşılanmışdır.**



Ancaq nədənsə qəsəbə salınarkən yağış sularının axıdılması üçün kollektorun inşası unudulub. Doğrudur, qəsəbədə 400 metrlik drenaj xətti çəkilib. Lakin xətt keyfiyyətsiz çəkildiyindən yağış yağanda küçələr suyun altında qalır. Nəticədə sakinlər əziyyət çəkməli olurlar. İstər böyüklər, istərsə də məktəbə gedən uşaqlar evdən bayıra çıxa bilmirlər. Hətta qəsəbəmizə təcili yardım maşınları gəlməkdən imtina edirlər.

Bu günlər yağan leysan yağışları qəsəbəmizi yenə suya qərq etdi. Küçələr keçilməz vəziyyətə düşdü. Demək olar ki, qəsəbədə həyat dayandı. Evləri su basdı və insanlar xeyli ziyana düşdülər.

Hörmətli redaksiya! Xahiş edirik, qəsəbə sakinlərinin bu problemdən azad olunmasına yardımçı olasınız, səsimizi əlaqədar qurumlara çatdırasınız.

*Natiq CƏFƏROV,*
*Gəncə şəhərinin Məhsəti qəsəbə sakini*

● RAZILIQ

## Leysanın fəsadları qısa zamanda aradan qaldırıldı

**Son vaxtlar yağan leysan yağışlar yaşadığımız qəsəbədə də bir sıra fəsadlar törətdi. Bir çox evlərlə yanaşı, ictimai binalara, eləcə də yol infrastrukturuna ziyan vurdu.**

Yaranmış vəziyyətlə bağlı rayon icra rəhbərləri qəsəbəyə gələrək sakinlərlə görüşdülər. Mövcud vəziyyət təhlil edildi. Leysanın fəsadlarının aradan qaldırılması üçün aidiyyəti təşkilatlara tapşırıqlar verildi, görüləcək işlər müəyyənləşdirildi.

Çox çəkmədi, Daşkəsən Rayon İcra Hakimiyyəti tərəfindən daxili imkanlar hesabına Quşçu körpüsü qəsəbəsində əsas və ara yollarda yaranmış çatlar, çalalar və digər dağıntıların aradan qaldırılması üçün işlərə başlanıldı. Qum-çınqıl gətirilib çat yaranmış yerlərə töküldü, texnikanın köməyi ilə hətta bəzi ərazilərdə çətin keçilən yollar rahat və təhlükəsiz vəziyyətə gətirildi. Bundan başqa, su axarlarının normal fəaliyyətini təmin etmək üçün yolların kənarındakı su ötürücüləri təmizlənərək qaydaya salındı.



Hörmətli redaksiya! İndi qəsəbəmizə gediş-gəliş tamamilə qaydaya düşüb. Sakinlər bu işdə əməyi olan hər kəsə minnətdarlıqlarını bildirirlər.

*Allahverdi MURADOV,*
*Daşkəsən rayonunun Quşçu körpüsü qəsəbə sakini*

# BMT: rəqəmsal texnologiyalara qadınlar və kişilər üçün bərabər çıxış təmin edilməlidir

**BMT Qadınlar Təşkilatının Avropa və Orta Asiya üzrə regional direktoru Belen Sanz Luke bildirib ki, qadınlar və kişilər texnoloji inkişaf və rəqəmsal transformasiyanın üstünlüklərindən bərabər dərəcədə faydalanmalıdırlar. Luke bu fikri Antalyada keçirilən 5-ci Diplomatik Forumunda tədbirin qlobal kommunikasiya tərəfdaşı kimi çıxış edən "Anadolu" agentliyinin suallarını cavablandırarkən səsləndirib.**




O, hər iki cins üçün rəqəmsal transformasiyaya bərabər çıxışın zəruriliyini vurğulayıb. Bildirib ki, BMT qadınların rəqəmsal iqtisadiyyatda iştirakını artırmağa çalışır və onların texnoloji fənlər üzrə təlimini dəstəkləyir. "Getdikcə daha çox qadının bu sahələrdə məzun olduğunu görürük, lakin qadınlarla kişilər arasındakı fərq hələ də qalmaqdadır", - deyə BMT rəsmisi qeyd edib. Luke həmçinin deyib ki, dünyada qadınlar və qızlar mobil telefonlar və onlayn platformalar da daxil olmaqla, rəqəmsal texnologiyalar vasitəsilə təcavüz riski ilə üzləşirlər: "Biz qadınları rəqəmsal zorakılıqdan qorumaq üçün çalışırıq. Rəqəmsal platformalarda qadının istənilən təsvirindən istifadə etmək onun razılığını tələb edir. Süni intellekt alqoritmləri çox vaxt gender qərəzliliyi ilə hazırlanır. Əgər bu dəyişdirilməsə, qadınların süni intellekt və rəqəmsal texnologiyalardan faydalanması daha çətin olacaq".

Qadınların cəmiyyətdəki rolundan danışan Luke həmçinin söyləyib ki, onlar sülhün qorunmasında və münaqişələrin qarşısının alınmasında əsas elementdir. Lakin qadınlar tez-tez böhranlara ilk reaksiya verənlər olsalar da, tez-tez sülh danışıqlarından kənarda qalırlar. O vurğulayıb ki, qadınlar dünya miqyasında parlament üzvlərinin təxminən 27 faizini təşkil edir və bu rəqəmin artırılması üçün siyasi partiyalar, parlamentlər və özəl sektorla əməkdaşlıq labüddür.

"Əgər siyasətdə iştirak etmək istəyirəmsə, zorakılığın qurbanı olmayacağımdan əmin olmalıyam. Bir çox ölkələrdə qadınlar məhz siyasi fəaliyyətlərinə görə yüksək səviyyədə zorakılıqla üzləşirlər", - deyə Luke əlavə edib.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Geosiyasi gərginliklər fonunda Azərbaycan prinsipial və dəyişməz mövqeyi ilə qlobal sülhə töhfə verir
Prezident İlham Əliyev Antalyada Diplomatiya Forumunun açılış mərasimində iştirak edib
Antalyada Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib
Prezident İlham Əliyevin Antalyada Suriyanın keçid dövrü Prezidenti ilə görüşü olub
Azərbaycan Prezidenti İlham Əliyev Antalyada Şimali Kipr Prezidenti ilə görüşüb
Prezident İlham Əliyevin Antalyada Moldova Prezidenti ilə görüşü olub
Prezident İlham Əliyev Antalya Diplomatiya Forumu çərçivəsində Pakistanın Baş naziri ilə görüşüb
Dövlət həmişə vətəndaşının yanındadır
Qlobal platformalarda Azərbaycanın artan rolu və nüfuzu
Uşaqların hüquqları dövlət tərəfindən qanunla qorunur

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Rumen Radevin koalisiyası Bolqarıstan seçkilərində qalib olub

**Keçmiş Prezident Rumen Radevin rəhbərlik etdiyi "Mütərəqqi Bolqarıstan" koalisiyası ölkədə keçirilmiş növbədənkənar parlament seçkilərində qələbə qazanıb. Lakin sorğulara görə, o, yəqin ki, mütləq səs çoxluğu qazana bilməyəcək.**



Bülletenlərin 97 faizdən çoxu sayılan ilkin nəticələrə əsasən, "Mütərəqqi Bolqarıstan" səslərin 44,72 faizini toplayıb. Qeyd edək ki, bundan əvvəl exit-pollar Radevin rəhbərlik etdiyi koalisiyanın qələbəsini proqnozlaşdırmışdı.

Rəsmi məlumatlara görə, keçmiş Baş nazir Boyko Borisovun mərkəzçi-populist GERB-SDS koalisiyası 13,39 faiz səslə ikinci yerdədir. Sorğular yenə səhv etməmişdi - onu 15-16 faiz səslə ikinci yerdə göstərmişdi. Xatırladaq ki, GERB-nin rəhbərlik etdiyi koalisiya Bolqarıstanın son hökumətini formalaşdırmış və dekabr ayında korrupsiyaya qarşı kütləvi etirazlardan sonra istefa vermişdi.

Nəhayət, "Dəyişikliyə davam et" Partiyası və "Demokratik Bolqarıstan" koalisiyası bloku 12,8 faiz səslə üçüncü yerdədir.

Bu üç qüvvədən başqa, daha iki siyasi ittifaq 4 faiz həddini keçərək parlamentə daxil olacaq. Türk azlığının da maraqlarını təmsil edən Hüquqlar və Azadlıqlar Hərəkatı (HAH) hazırda 6,76, ifrat-millətçi "Dirçəliş" Partiyası isə 4,3 faiz səsə malikdir. Qeyd olunur ki, "Dirçəliş"in lideri Kostadin Kostadinov dəfələrlə Rusiya ilə münasibətləri qorumağın vacibliyini bildirib.

Rumen Radev jurnalistlərə demokratik islahatçı "Dəyişikliyə davam et" - "Demokratik Bolqarıstan" bloku ilə hökumət qurmağa hazır olduğunu bildirib. "Bolqarıstanın normal, sabit bir hökumət əldə etməsi üçün müxtəlif variantları nəzərdən keçirməyə hazırıq", - deyə o, əlavə edib.

Radevin uzun müddətdir siyasi rəqibi olan GERB lideri Boyko Borisov bazar günü səhər tezdən onların yeni təşkil olunacaq hökumətə qoşulmayacağını bildirmişdi. lakin sonradan bir az fərqli açıqlama verib. "Seçkilər kimin qalib gələcəyini müəyyən edəcək, amma danışıqlar hökuməti kimin idarə edəcəyini müəyyənləşdirəcək. GERB hökumətə və ya müxalifətə qoşula bilər. Həyatda olduğu kimi, siyasətdə də səbir lazımdır", - Borisov deyib.

Rəqiblərinin yalnız avroskeptik deyil, həm də Rusiyapərəst siyasətçi adlandırdığı Rumen Radev səsvermə məntəqələri bağlandıqdan sonra Bolqarıstanın Avropa İttifaqındakı yeri və Avropanın dəyişməsinə ehtiyac olduğunu xüsusi vurğulayıb: "Sizi əmin etmək istəyirəm ki, Bolqarıstan Avropa yolunda qalmaq üçün hər cür səy göstərəcək, amma inanın mənə, güclü Avropada güclü Bolqarıstan tənqidi düşüncə və praqmatizm tələb edir".

Bolqarıstan Mərkəzi Seçki Komissiyasının məlumatına görə, seçkilərdə iştirak edənlərin sayı olduqca aşağı olub: təxminən 47 faiz və ya 3,1 milyon nəfər.

Hazırkı seçkilər ölkədə son 10 ildə ən böyük etirazların yaşandığı 2025-ci ilin sonlarında baş verən siyasi böhranın birbaşa nəticəsidir. 2009-cu ildən 2021-ci ilə qədər fasilələrlə baş nazir vəzifəsini icra edən Boyko Borisovun 2021-ci ildə istefasından bəri Bolqarıstanda ardıcıl 10 hökumət dəyişib.

Son məlumata görə, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Rumen Radevi Bolqarıstan parlament seçkilərində qələbəsi münasibətilə təbrik edib və onunla "təhlükəsizlik və rifah" naminə işləməyə hazır olduğunu bildirib. O, bununla bağlı "X" sosial səhifəsində yazıb: "Rumen Radevi parlament seçkilərində qələbəsi münasibətilə təbrik edirəm. Bolqarıstan Avropa ailəsinin qürurlu üzvüdür və ümumi problemlərin həllində mühüm rol oynayır. Bolqarıstanın və Avropanın rifahı və təhlükəsizliyi naminə birlikdə işləməyi səbirsizliklə gözləyirəm".

***R.HİLALOĞLU, "Azərbaycan"***

# Pulu qazanmaq çətindir, yoxsa xərcləmək

## Alış-verişdə istək ehtiyacı üstələməməlidir

**Alış-veriş gündəlik həyatımızın ayrılmaz hissəsidir. Amma, görəsən, biz alış-veriş edərkən həmişə rasional qərar veririkmi, yoxsa seçimlərimizin böyük hissəsi hisslərimiz, reklamlar və sosial təsirlər tərəfindən formalaşır?**



Müasir dövrdə bu sual daha da aktuallaşıb. Çünki bazarda seçim çoxdur və ən əsası - bizi alış-verişə təşviq edən amillər əvvəlkindən qat-qat güclüdür.

Ən sadə sualdan başlayaq: həqiqətən ehtiyacımız olanı alırıq, yoxsa, sadəcə, istəyimizi təmin edirik? Əvvəllər alış-veriş daha çox ehtiyac üzərində qurulurdu. İnsanlar təzə geyimi əynindəki köhnəldikdə alırdı, texnikanı sıradan çıxanda dəyişirdi. Bu gün isə vəziyyət fərqlidir. Sosial media, reklamlar və "trend" anlayışı bizim ehtiyac hissimizi dəyişdirib. Artıq biz çox vaxt nəyinsə çatışmadığı üçün yox, sadəcə, gördüyümüz üçün almaq istəyirik. Bu, xüsusilə gənc nəsildə daha açıq görünür. Bir məhsulu almaq üçün əsas səbəb onun funksiyası deyil, necə göründüyü və başqalarında necə təsir yaradacağı olur.

Bu zaman endirimlər mövzusu ortaya çıxır. "Endirimlər bizi aldadırmı?" sualı, əslində, düşündüyümüzdən daha dərindir. İlk baxışdan endirim sərfəli görünür: daha ucuz qiymətə məhsul əldə edirik. Amma çox vaxt bu, psixoloji oyunun, başqa sözlə, marketinqin bir hissəsidir. Mağazalar əvvəlcə qiyməti yüksəldib sonra guya "endirim" edərək bizdə "fürsət" hissi yaradır. Bu vaxt biz real ehtiyacımız olmasa belə, "sonra baha olacaq" düşüncəsi ilə marketinq tələsinə düşürük.

Ən düzgün "alış-veriş vaxtı" məsələsi də maraqlıdır. Bir çox ölkədə alış-veriş mədəniyyəti artıq sistemləşib. Məsələn, Avropa və Amerikada ilin müəyyən dövrlərində böyük endirimlər olur və insanlar alış-verişlərini əsasən həmin dövrlərə planlayırlar. Mövsüm sonu endirimləri, il sonu kampaniyaları kimi vaxtlar real qənaət üçün daha uyğundur. Azərbaycanda isə bu mədəniyyət hələ tam oturuşmayıb. Endirimlər tez-tez və bəzən qeyri-şəffaf olur. Buna görə də ən düzgün vaxt təkcə "endirim" zamanı deyil, ehtiyacın həqiqətən yarandığı və qiymətlərin müqayisə edildiyi zamandır. Yəni planlı alış-veriş hər zaman impulsiv alış-verişdən daha sərfəlidir.

Bahalı məhsul məsələsinə gəldikdə isə, "bahalı məhsul = keyfiyyət" düşüncəsi hər zaman doğru deyil. Bəli, bəzi hallarda keyfiyyətli məhsullar daha baha olur, çünki istifadə edilən material, istehsal texnologiyası və brend dəyəri yüksəkdir. Amma bu, bütün hallara aid deyil. Çox vaxt biz məhsulun keyfiyyətindən çox brendə görə pul ödəyirik. Eyni funksiyanı yerinə yetirən, amma daha az tanınan markalara aid məhsullar daha münasib qiymətə ola bilər. Bu, xüsusilə geyim, kosmetika və gündəlik istifadə məhsullarında açıq şəkildə görünür. Ümumiyyətlə, brend, marka asılılığı müasir istehlak cəmiyyətinin ən maraqlı fenomenlərindən biridir. İnsanlar bəzən müəyyən markalara emosional bağlı olur. Bu, sadəcə, keyfiyyət məsələsi deyil, marka, brend bir növ kimlik və status göstəricisi sayılır. İnsanlar geyindiyi, istifadə etdiyi məhsullarla özlərini ifadə etdiklərini düşünürlər. Bu isə alış-verişi ehtiyacdan çıxarıb psixoloji və sosial bir prosesə çevirir. Amma artıq inkişaf etmiş ölkələrdə son illər bunun əksinə bir trend də yaranıb - insanlar daha sadə, loqosuz və funksional məhsullara üstünlük verməyə başlayıblar. Minimalizm və "az, amma keyfiyyətli" yanaşması populyarlaşır.

Azərbaycanda isə vəziyyət bir qədər fərqlidir. Bizdə hələ də brend status göstəricisi kimi qəbul olunur. Xüsusən sosial mühitdə insanların bir-birini dəyərləndirməsində bu amil müəyyən rol oynayır. Bununla belə, gənc nəsil arasında bu düşüncə tədricən dəyişir. Getdikcə daha çox insan artıq qiymət və keyfiyyət balansına diqqət yetirir, impulsiv alış-verişdən uzaqlaşmağa çalışır.

Bütün bunları dövrlər üzrə müqayisə etdikdə maraqlı mənzərə ortaya çıxır. Keçmişdə seçim az idi, ona görə də qərar vermək daha asan idi. Bu gün seçim çox olduğundan qərar vermək çətindir. Keçmişdə alış-veriş ehtiyacın ödənilməsi idi, bu gün isə çox vaxt özününümayişdir. Texnologiya və marketinq inkişaf etdikcə, insanın seçimlərinə təsir edən amillər də çoxalır.

Alış-veriş həm iqtisadi, həm psixoloji, həm də sosial bir prosesdir desək, yanılmarıq. Bu zaman ən düzgün yanaşma şüurlu olmaqdır. Hər alışdan əvvəl özümüzə sadə bir sual verməyimiz kifayətdir: "Mənim buna həqiqətən ehtiyacım var, ya yox?" Bu sualın düzgün cavabı çox vaxt bizi lazımsız xərclərdən qoruyur və pulumuzu daha səmərəli xərcləməyə imkan verir. Məşhur ifadədir - pulu xərcləmək onu qazanmaqdan daha çətindir.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# Code Fest 2 innovativ olimpiadasının qalibləri müəyyənləşib





**Code Fest 2 - gənclər arasında proqramlaşdırma, texnologiya və rəqəmsal bacarıqları inkişaf etdirməyi hədəfləyən innovativ olimpiadadır.**

Bu layihə məktəblilər və yeniyetmələr üçün nəzərdə tutulmuşdur və onların yaradıcılıq, məntiqi düşünmə və problem həlletmə qabiliyyətlərini üzə çıxarmağa imkan verir.

Olimpiada çərçivəsində iştirakçılar 4-15 yaş qrupları üzrə 11 fərqli kateqoriyada yarışıblar. Bu kateqoriyalara proqramlaşdırma (Python Junior, Scratch, Python, Aİ), robototexnika (Lego WeDo 2.0), 3D modelləşdirmə, Uİ/UX və digər texnoloji istiqamətlər daxildir. Tapşırıqlar iştirakçıların həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını yoxlamağa yönəlib.

"Code Fest 2" proqramlaşdırma və robototexnika olimpiadasının əsas məqsədi gənclərdə texnologiyaya marağı artırmaq, onların erkən yaşdan İT sahəsinə yönəlməsinə dəstək olmaq və gələcəyin peşəkar kadrlarının formalaşmasına töhfə verməkdir. Eyni zamanda bu cür tədbirlər iştirakçılar arasında sağlam rəqabət mühiti və onların öz potensiallarını kəşf etməsinə şərait yaradır.

Olimpiadanın keçirilməsinə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, o cümlədən Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi dəstək verib.

Avropa Azərbaycan Məktəbində keçirilən yarışın sonunda hər bir kateqoriya üzrə qaliblər müəyyən olunaraq mükafatlandırılıblar.

***Rizvan HİLALOĞLU, İlham BABAYEV( foto), "Azərbaycan"***

***Ağstafa şəhəri, H.Əliyev prospekti, 9 ünvanında yerləşən özəl tibb fəaliyyəti ilə məşğul olan Ailə Klinikası MMC-yə aid (VÖEN:1007160281) IN/L-1/2023 qeydiyyat nömrəli 13 yanvar 2023-cü il tarixli lisenziya və lisenziya əlavəsi itdiyi üçün etibarsız sayılır.***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Ağdamdan Vaqif Həsənov Şahin Rüstəmova həyat yoldaşı
**ARZU XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov Şahin Rüstəmova həyat yoldaşı
**ARZU XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Su təchizatı, yağış və tullantı su sistemlərinin istismarı şöbəsi, Suyun təhlükəsizliyi sektorunun müdiri Ceyhun Kazımova atası
**QURBAN KAZIMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3721**
**Sifariş 508**

**Qiyməti 60 qəpik**